ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ ÖYRƏNMƏ MÜHİTİNİN TƏŞKİLİ VƏ İDARƏ OLUNMASI

BAKI-2023

*Metodik tövsiyə Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi şurasının 19 oktyabr 2021-ci il tarixli (protokol № 3) iclasının qərarı ilə nəşr edilir.*

**Elmi redaktorlar:** **İntiqam Cəbrayılov,**
*pedaqogika üzrə elmlər doktoru, professor*
**Piralı Əliyev,**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Rəyçilər:** **Akif Abbasov**
*pedaqogika üzrə elmlər doktoru, professor*
**Hümeyir Əhmədov**
*pedaqogika üzrə elmlər doktoru, professor*
**Lalə Məmmədli**
*pedaqogika üzrə fəlsəfə doktoru*

**Ümumtəhsil müəssisələrində öyrənmə mühitinin təşkili və idarə olunması (metodik tövsiyə). Bakı: "CN POLİGRAFİYA", 2023, 108 səh.**

Metodik tövsiyədə ümumtəhsil məktəblərində öyrənmə mühitinin təkmilləşdirilməsi, öyrənənləri fəal öyrənməyə və tənqidi düşünməyə stimullaşdıran siniflərin ortaq xüsusiyyətləri, pedaqoji prosesin məhsuldarlığına birbaşa təsiri məsələləri təqdim edilmişdir. Öyrədici (əşyavi mühit, informasiya mühiti, sosial-psixoloji mühit), inkişafetdirici və dəstəkləyici mühit, onun təşkilinə verilən tələblər, fiziki məkanın, sinif otağının təşkilinin təlimə təsiri məsələləri problem kimi qarşıya qoyulmuşdur.

Metodik tövsiyədən məktəb rəhbərləri, müəllimlər, metodistlər təhsil sahəsində fəaliyyət göstərən mütəxəssislər, tələbələr, doktorant və dissertantlar da istifadə edə bilər.

**©ARTİ, 2023**

**MÜNDƏRİCAT** **Səh.**


**1.** Pandemiya dövründə ümumi təhsilin təşkili məsələləri *(Piralı Əliyev)*.............................................................................................. 4

**2.** Ümumtəhsil məktəblərində öyrənmə mühitinin təkmilləşdirilməsi *(Mətanət Qurbanova, Günay Hüseynzadə)*......... 19

**2.1.** *Öyrənmə mühiti. Öyrənənləri fəal öyrənməyə və tənqidi düşünməyə stimullaşdıran siniflərin ortaq xüsusiyyətləri*................ *21*

**2.2.** *Öyrədici mühit, onun təşkilinə verilən tələblər*......................... *26*

**2.3.** *Öyrədici mühitin növləri* ........................................................ *31*

**2.4.** *İnkişafetdirici və dəstəkləyici mühit, onun təşkilinə verilən tələblər*............................................................................................ *40*

***2.5.*** *Fiziki məkanın təşkili. Sinif otağının təşkilinin təlimə təsiri* ....... *44*

**3.** Ümumtəhsil məktəblərində öyrənmə mühitinin koordinasiyalaşdırılması işinin təşkili *(İlhamə Əsədova)*.................. 74

**4.** Öyrənmə mühitində şagirdlərin maraqlarının və milli ənənələrin nəzərə alınması *(Bahar Bəylərova- Ələkbərova)*............ 85

# 1. PANDEMİYA DÖVRÜNDƏ ÜMUMİ TƏHSİLİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

## GİRİŞ

Covid -19 pandemiyasının meydana gəlməsilə dünyada bütün sahələrə - ictimai, sosial-iqtisadi, mədəni, təhsil və s. mənfi təsirini göstərmişdir. Bütün ictimai fəaliyyətlərin təmin edilməsi üçün işləyən fərdlərin nəzəri və praktik biliklərini özündə birləşdirən təhsil sahəsi bu prosesdə daha çox təsirə məruz qalmışdır. Bu səbəbdən dünyanın bir çox ölkələrində təhsil müəssisələri sürətli bir şəkildə mövcud vəziyyətdə ənənəvi təhsildən **onlayn** təhsilə keçdi. Bu sahədə dövlət və qeyri-hökumət təşkilatları, dövlət və özəl təhsil müəssisələri təcrübə mübadiləsi apararaq mövcud vəziyyətdə mümkün olan ən düzgün addımları atmağa çalışdılar. Doğrudur, bəzi ölkələrdə təhsil müəssislərində olan təhsil işçilərinin, tələbələrin və şagirdlərin bir çoxunun müxtəlif səbəblərdən bu prosesdə fəal iştirakı mümkün olmadı. Bunun səbəbi kimi onların informasiya-kommunikasiya texnologiyalarından istifadə etmək bacarıqlarının olmaması və ya yaşadıqları mühitdə internet imkanlarının çox zəif olması göstərildi. Lakin ənənəvi təhsildən yeni təhsil modellərinə keçid prosesinin uzun bir proses olduğunu və zamanla formalaşdığını da unutmamaq lazımdır.

Bununla yanaşı diqqət etsək görərik ki, Covid-19 pandemiyası mövcud olmadığı zamanlarda təhsil texnologiyalarının inkişafı ilə birlikdə təhsil müəssisələri artıq əyani sinif mühiti olmaqdan çıxaraq yeni tədris metodlarını tətbiq etməyə başlamışdılar. Qlobal miqyasda distant təhsilə keçid ilə əlaqədar bir çox təhsil müəssisələrində hibrid təlim modeli tətbiq edilməyə başlanmışdı. Bəzi təhsil işçiləri hibrid təhsil modelini tədris planının yarısının virtual bir sinif yaradaraq tədris edilməsi kimi düşünsə də, reallıqda bu təhsil modeli tamamilə fərqli xüsusiyyətlərə malikdir. ***Bu model əslində ideal bir öyrənmə mühiti yaratmaq üçün ənənəvi və onlayn təhsil formalarının ən yaxşı xüsusiyyətlərini birləşdirən hərtərəfli bir prosesdir.***

### HİBRİD TƏHSİL MODELİ NƏDİR?

Xarici ölkə təcrübəsi göstərir ki, hibrid modelə görə, üz- üzə və distant təhsil bir arada verilir. Həftəlik 30 saat olan dərs saatları azaldılır. Dərs saatlarının 15 saat olması nəzərdə tutulur. Ana dili, riyaziyyat, xarici dil, həyat bilgisi kimi təməl

fənlər təhsil müəssisələrində, üz -üzə öyrədilir. Fiziki tərbiyə, tarix, təsviri incəsənət və s. kimi dərslər isə distant formada təşkil olunur.

Siniflər ikiyə bölünür. Bir qrup birinci, üçüncü günlər, başqa bir qrup ikinci, dördüncü günlər məktəbə gedir.

Hibrid öyrənmə bəzi məktəblilərin dərsə əyani, bəzilərinin isə onlayn proqramlar vasitəsi ilə evdən qoşulduğu bir təhsil modelidir. Bu tipli təhsil modelinin tətbiqi zamanı müəllimlər ***video konfrans qurğusu*** və ***proqram təminatı*** kimi vasitələrdən istifadə etməklə ***öyrənənlərə üz-üzə və onlayn şəkildə dərs deyirlər***. Yaxşı planlaşdırıldığı zaman hibrid təhsil bir çox öyrənən üçün təhsili daha əlverişli hala gətirilməklə ***fərdi*** və ***onlayn*** öyrənmənin ən yaxşı cəhətlərini özündə birləşdirir. Hibrid öyrənmənin uğurlu nəticə verməsi üçün hibrid şəkildə keçiləcək dərslərin elementlərini üz-üzə və ya onlayn olmaqdan asılı olmayaraq öyrənmə formatına uyğunlaşdırmaq lazımdır.

## HİBRİD VƏ QARIŞIQ (BLENDED) TƏHSİL MODELİNİN FƏRQİ

Hibrid öyrənmə və qarışıq öyrənmə eyni təhsil elementlərini ehtiva etdiyi üçün onlar tez-tez bir-biri ilə qarışdırılır. Buna baxmayaraq, hər ikisi iki fərqli öyrənmə modelidir. ***Qarışıq öyrənmə, üz-üzə dərsləri asinxron təlim metodları ilə birləşdirir***, ***burada məktəblilər onlayn şəkildə məşğələlər keçir və təlim zamanı daha öncədən çəkilmiş videolar izləyirlər***. ***Hibrid təlim isə müəllimin eyni anda bir qrup şagirdlə üz-üzə və uzaqdan dərs keçdiyi bir metoddur***. Hibrid təhsil müddətində ***müəllimlər asinxron*** tədris metodlarından istifadə etməklə sinxron təlimi dəstəkləyə bilirlər.

## HİBRİD ÖYRƏNMƏ KONSORSİUMU

Hibrid öyrənmə konsorsiumu ümumi və tam orta təhsil səviyyəsində təhsilalanlar üçün onlayn təlim metodları hazırlayan qlobal bir təhsil cəmiyyətidir. Bu konsorsiumun iştirakçıları inanır ki, onlayn öyrənməyə informasiya cəmiyyətində hər zaman tələbat olacaq, ancaq üz-üzə öyrənmə heç vaxt öz aktuallığını itirməyəcək. Onlar ənənəvi təhsilin verdiyi bütün imkanları hibrid öyrətmə mühitində yaratmaqla ikincinin də eyni dərəcədə əlçatanlığını formalaşdırmağa xidmət edir. Bu təhsil modelinin istifadəsi nəticəsində əvvəllər

digər ölkələrdə təhsil alan və tədrislə məşğul olan müəllimlərin təcrübəsini əldə edə bilməyən şagirdlər indi bunu çox rahatlıqla əldə edirlər.

**HİBRİD ÖYRƏNMƏNİN FAYDALARI**

Həm üz-üzə təhsilin, həm də onlayn öyrənmənin özünə xas üstünlükləri və zəif tərəfləri var. Hibrid təhsil modelinin əsas məqsədi bu iki öyrənmə təcrübələrini birləşdirməklə arada olan boşluqları tamamlamaq və təhsili bir bütün kimi ələ almaqdır. ***Ümumilikdə bu təhsil modelinin aşağıdakı üstünlükləri var:***

***Çevik öyrənmə təcrübəsi***

Bir çox məktəb hibrid təhsil modelinə ***çevik bir tədris mühiti*** yaratmaq üçün qoşulur. Onlar tədris müəssisəsində çevik təlim cədvəli və rejimi təmin etməklə, şagirdlərin təlim materiallarına yanaşmasını, həmyaşıdları və müəllimləri ilə olan ünsiyyət qabiliyyətlərini yüksəldirlər. Məsələn, hibrid təlim mühiti üz-üzə təhsil almaq üçün məktəbdə iştirak edə ***bilməyən şagirdlər üçün evdən öyrənmə imkanı yaradır.***

***Sinxron ünsiyyət imkanları***

Hibrid öyrənmə modelində dərsdə iştirak edən şagirdlər bir-birlərilə ünsiyyətdə olmaq, diskusiyalar aparmaq, təqdimatlar edərək əməkdaşlıq etmək imkanına sahib olurlar. Bununla yanaşı onlar onlayn təhsil platformalarından da istifadə etməklə bu ***akademik çalışmalarını internet üzərindən də davam etdirə bilirlər.***

***Müstəqil təqdiqat aparmaq***

***Onlayn öyrənmə*** mühitində şagirdlər özlərini daha azad hiss edirlər. Belə ki, onlar özlərində idarəetmə qabiliyyətlərini inkişaf etdirərək müstəqil öyrənmə bacarıqlarını formalaşdırırlar. Eyni zamanda onlar öyrəndikləri materialları istənilən tempdə dəfələrlə oxumaq, izləmək və tədqiq etmək imkanlarına sahib olurlar.

***Resurslardan daha səmərəli istifadə etmək***

Onlayn öyrənmə mühitində ***şagirdlərə təqdim ediləcək materiallar düzgün seçilməli və onlara verilən resursların zəruriliyi əsaslandırılmalıdır***. Əgər şagird onlayn dərsdə iştirak edirsə, bu dərsin onlayn formatda təşkil edilməsinin bir məntiqi səbəbi olmalıdır. Belə ki, ***şagird həmin dərsin onlayn formatda keçilməsinin yeganə yol olduğunu bilməli və onun dəyərini anlamalıdır.***

## HİBRİD TƏHSİL MODELİNİN MÜXTƏLİF FORMALARI

***Face-to-face Driver***

Bu modelin tətbiqində ***müəllimlər materialı təhsilalanlara özləri təqdim edirlər***. Onlar daha öncədən hazırlanmış tədris planına əsasən dərsləri keçir, eyni zamanda şagirdlər üçün onlayn tədris materialları hazırlayırlar. Bu materialları şagirdlər ***sinifdə, evdə və ya məktəbin kompüter laboratoriyasında işləyə bilərlər***.

***Rotation***

***Bu modelə əsasən şagirdlərin sinifdə üz-üzə dərs alması və onlayn tədrisdən istifadə etməsi sıra ilə tətbiq edilir***. Belə ki***, hazırlanmış cədvəl əsasında şagirdlərin sinifdə iştirakı növbəli şəkildə aparılır.*** Şagirdlər sinifdə üz-üzə dərsdə iştirak edir, tədris edilən proqramın bir qismini tamamlayır və keçilən mövzu ilə əlaqədar əlavə tapşırıqları və layihələri evdən onlayn formatda tamamlayır. Bu şəkildə şagirdlər növbəli formada həm üz-üzə, həm də onlayn tədris almış olurlar.

***Flex***

Bu tədris modelinin böyük hissəsi ***onlayn formatda keçirilir***. Müəllimlərin şagirdlərlə görüşü isə onlayn platformada və ya əlavə edilmiş materialların istifadəsində yaranmış problemləri aradan qaldırmaq üçün olur. Bu görüşlər də onlayn şəkildə tətbiq edilə bilir.

***Online lab***

Bu tədris modeli ***daha çox onlayn formatda olsa*** da, Flex tədrisindən fərqi ***çalışmaların məktəb daxilindəki laboratoriyalarda aparılmasıdır***. Burada ***müəllim nəzarətçi funksiyasında çıxış edir. Materiallar isə daha öncədən hazırlanıb kompüterlərə yerləşdirilir.***

***Self Blend***

Bu ***modeldə şagirdlər onlayn almaq istədikləri dərsi özləri seçirlər***. Bu modeldə şagird dərslərin bir çoxunu onlayn keçsə də, bəzi dərslərə ənənəvi surətdə qatılırlar.

***Online Driver***

Bu modeldə kurikulumun tətbiqində həm onlayn, həm də ənənəvi formatda müəllim tədris prosesində iştirak edir. Belə ki, şagirdlər dərslərin bir çoxunu onlayn keçsə də, bəzən siniflərdə iştirak edə bilərlər.

**Uğurlu hibrid öyrənmə mühiti yaratmaq üçün**

- yarımillik və illik hədəflər düzgün müəyyənləşdirilməli;
- fəaliyyət xəritəsi yaradılmalı;
- hədəflərdən hansının şagirdin sinifdə iştirakı ilə daha effektiv nəticə verə biləcəyi müəyyən edilməli;
- onlayn təhsilin tədris fəaliyyətinin neçə faizini təşkil edəcəyi düzgün müəyyən edilməli;
- məzmun və istifadə ediləcək materiallar formalaşdırılmalı;
- hibrid öyrənmə planı sınaqdan keçirilməli.

***1. Yarımillik və illik hədəflər düzgün müəyyənləşdirilməli.***

Nəticələrin reallaşdırılmasına yönəldilmiş ***yarımillik və illik*** hədəflər müəyyənləşdirilməli və bu hədəflər məktəblilərə çatdırılmalıdır. Bu məqsədlərə çatmaq üçün hansı addımların atılması gərəkliyini və sonda şagirdləri qiymətləndirmə prosesində hansı meyarlardan istifadə ediləcəyini düzgün müəyyən etmək lazımdır. Planlaşdırma bitdikdən sonra bütün planı başdan sona kimi bir daha tədqiq etməklə boşluqları müəyyən edib aradan qaldırmaq olar.

***2. Fəaliyyət xəritəsi yaradılmalı***

Yarımillik və illik hədəfləri müəyyən etdikdən sonra növbəti addım olaraq həmin hədəflərə çatmaq üçün atılacaq addımları xronoloji ardıcıllıqla düzmək lazımdır. Xronoloji ardıcıllığa riayət etməklə cədvəllər vasitəsilə bütün addımlar vizuallaşdırılmalıdır. Bu şəkildə planlaşdırılmış işin içərisində olan əksikliklər daha rahatlıqla görüləcək.

***3. Hədəflərdən hansının şagirdin sinifdə iştirakı ilə daha effektiv nəticə verə biləcəyi müəyyən edilməli***

Keçiləcək bütün mövzular və hədəflər müəyyən edildikdən sonra dərsləri hibrid formaya gətirmək üçün fənnin hansı hədəflərinin tamamlanmasında şagirdlərin iştirakının vacib olduğu müəyyənləşdirilməlidir. Məsələn, aşağıdakı işlərin bir çoxunun üz-üzə formatda aparılması daha faydalı ola bilər:

- şagirdlərlə sinxron halda beyin fırtınası aparanda;
- şagirdlərin kurs müddətində etməli olduğu işlərin üz-üzə aparması və onların məsuliyyətinin dəqiqliklə izah edilməsində;
- şagirdlərin frontal təqdimatlar etməsində;
- şagirdlərin çalışmalarına üz-üzə rəy vermə ehtiyacı yarananda.

***4. Onlayn təhsilin tədris fəaliyyətinin neçə faizini təşkil edəcəyi düzgün müəyyən edilməli***

Hibrid təlimdə üz-üzə təlim sadəcə qrup diskussiyaları üçün çox vacib olduğu üçün qalan vaxt onlayn tədrisə ayrıla bilər. Bu zaman şagirdlər:

- öz-özünə öyrənərək onlayn platformada olan hədəfləri tamamlaya bilərlər;
- avtomatik qiymətləndirmə sistemləri olan test platformalarından istifadə edilə bilər;
- asinxron qrup müzakirələrində, yazı ilə bağlı olan çalışmaların hamısında, audio və video dərslərin keçilməsində istifadə edilə bilər.

***5. Məzmun və istifadə ediləcək materiallar formalaşdırılmalı***

Yarımillik və illik öyrəniləcək materialların fəaliyyət xəritəsi müəyyənləşdiriləndən sonra tədris ilində istifadə ediləcək materiallar, onlayn qaynaqları formalaşdırılmalıdır. Əgər başqa ölkələrdə hazırlanmış daha yaxşı video materiallar, kitablar və s. kimi qaynaqlar mövcuddursa onlardan hədəflərinizə uyğun gələnləri istifadə edə bilərsiniz.

***6. Hibrid öyrənmə planı sınaqdan keçirilməli***

Hazırlanmış hibrid məzmunu tətbiq etməzdən əvvəl pilot layihə olaraq bir qrup şagirdləri təcrübədən keçirmək faydalı olardı. Bunun nəticəsində həm şagird yanaşmasını, həm də hazırlanan materialların müsbət və mənfi cəhətlərini müəyyənləşdirmək mümkündür.

Beləliklə, hibrid təhsilin təşkilində nəzərə alınmalı məsələlərdən biri də şagirdin ehtiyacına yönəlmiş fərdi cədvəlin hazırlanmasıdır.

**1. Şagirdrlərin təlim ehtiyaclarının öyrənilməsi**

Tədris prosesində ən vacib məsələlərdən biri təhsilalanların təlim ehtiyaclarının düzgün müəyyən edilməsidir. Belə ki, müəllimlərin tədris prosesi üçün müəyyən etdiyi hədəflərlə şagird ehtiyaclarının üst-üstə düşməsi təlimin keyfiyyətini artıran amil kimi nəzərdə tutulur.

**1.1. Şagird ehtiyacları nə deməkdir?**

Şagird ehtiyacları onların təlim prosesinin sonunda əldə etmək istədikləri ilə mövcud vəziyyətdə sahib olduqları biliklər, təcrübələr və onların maraqları arasındakı boşluqlar təşkil edir. Belə ki, şagirdlər öyrənmə prosesində həm formal, həm də informal təhsil mühitində əldə etdikləri bilik və bacarıqlarından

istifadə edirlər. Müəllimlər şagirdlərin hansı mövzuda bilik almağa ehtiyacı olduğunu aşağıdakı cədvəldə əks olunmuş kateqoriyalar üzrə müəyyənləşdirməlidir.

| İdraki | Sosial | Affektiv | Psixomotor |
|---|---|---|---|
| Sualları düzgün müəyyənləşdirmək | Yaşıdları ilə ünsiyyət qurmaq | Hədəfə çatmaq | Rahat mühit formalaşdırmaq |
| Doğru sual vermək | Dəstəkləmək və kömək almaq | Faydalı vərdişləri dəstəkləmək | İctimai nəqliyyatdan təhlükəsiz istifadə etmək |
| Mütəxəssislərdən kömək almaq | Xarici motivasiya ünsürlərindən istifadə etmək | Başqalarının fikirlərinə açıq olmaq | Şagirdlərin sahib olduğu bacarıqları inkişaf etdirmək |
| Problemləri həll etmək | Fərqliliklər yaratmaq | Qarşılıqlı ünsiyyət və özünü qiymətləndirmə qabiliyyəti | Yetərincə yatmaq |
| Müstəqil düşünmək | Problemlərin həlli müddətində ünsiyyət qurmaq | Öz güvən formalaşdırmaq | Uyğun qidalanma və yetərli enerjiyə sahib olmaq |
| Yeni məlumat formalaşdırmaq | Yeniliklər axtarmaq və mövhümatçılığa qarşı çıxmaq | Vəziyyəti düzgün idarə etmək | İdman etmək |
| Yeni məhsullar formalaşdırmaq | Dostluq münasibətləri yaratmaq | Aidlik duyğusu formalaşdırmaq | Lazımlı alətlərə sahib olmaq |
| Məlumat mənbələrindən istifadə etmək | Zamanı düzgün idarə etmək | Başqalarını motivasiya edə bilmək qabiliyyəti | Nümayiş etdirmək qabiliyyəti |

Keyfiyyətli tədris mühitinin formalaşdırılması öyrənənlərin nailiyyətlərinə, onların tərbiyəsinə və inkişafına müsbət təsir göstərir. Şagirdlərin öyrənmə prosesinin keyfiyyətli olması üçün tədris müəssisəsi onlara seçim etmək, məsuliyyətli olmaq və öz öyrənmə prosesini idarə etmək üçün imkanlar yaratmalıdır. Bunu tədris prosesinin ən başlanğıcında etmək şagird və müəllim arasında güvən hissinin formalaşmasını tezləşdirir. Bu tipdə bir öyrənmə mühitinin formalaşdırmaq üçün aşağıdakı addımları atmaq olar:

***1.1.1. Əvvəlcədən şagirdlərə hörmətlə yanaşdığınızı göstərin.***

Şagirdlərin hər birinin öz düşüncə və fikirlərini paylaşması üçün mühit formalaşdırmaq lazımdır. Bunun üçün onları qruplara ayırmaq və bu qruplara xüsusi adlar vermək lazımdır. Bu şəkildə onlar sinifdə olan diskussiyalara qatıldıqda öz fikirlərini daha rahat ifadə edirlər. Belə ki, digər şagirdlər deyilən fikirləri fərdiləşdirmədən qrup adına qəbul edirlər.

***1.1.2. Öncədən mühakimə etməyin.***

Sinif daxilində fəaliyyətləri formalaşdırdığınızda bütün şagirdlər arasında bərabərliyi qorumağa çalışın. Məsələn, sinifdə olan şagirdlərdən nüfuzlu ailələrin övladlarını, əvvəlki tədris ilini fərqlənmə ilə bitirənləri və ya olimpiadalarda və idman komandalarında iştirak edən uğurlu şagirdləri sinifdaxili fəaliyyətlərdən ayırmayın. Eyni zamanda, xüsusi qayğıya ehtiyacı olan şagirdləri də digər şagirdlərlə eyni qruplarda yerləşdirin.

***1.1.3. Risk almaları dəstəkləyin.***

Şagirdlərin bir çoxunun həyat təcrübəsi və risk almaq kimi qabiliyyətləri əksik olduğu üçün onlar üçün risk alma mühitləri formalaşdırın. Məsələn, sinifdə xüsusi fəaliyyətləri qrup işi şəklində görərək zəif qabiliyyətlərə sahib olan şagirdlərlə güclü olanları bir qrupda birləşdirin. Onlara öz bildiklərindən nisbətən çətin bir çalışma təqdim edərək birlikdə yeni məlumatlar araşdırmağa kömək edin. Bu müddətdə onları qrup işində yalnız qoymayın. Onlara dəstək olun.

***1.1.4. Şagirdlərin səhvlərini xoş qarşılayın.***

Bəzi şagirdlər səhv etməkdən çox qorxurlar. Bunun ən böyük səbəbi onların daha öncəki səhvlərinə tənqidi yanaşılmasıdır. Bunun üçün müəllimlər sinifdə olan bütün şagirdlərin fikirlərinə açıq olduğunu və hər kəsin səhv etmək kimi bir haqqının olduğunu onlara dəqiq göstərməlidirlər.

***1.1.5. Hədəfləri öncədən müəyyənləşdirin.***

Şagirdlərə təlimin başlanğıcında hədəflərini göstərin və onlara bütün prosesi bir cədvəl şəklində görmələrinə imkan yaradın. Bu şəkildə onlar getdikləri yol haqqında öncədən məlumatlanmış olacaqlar. Bu onlarda özgüvən formalaşdıracaq.

***1.1.6. Şagirdlərin performans meyarlarını öncədən müəyyən edin.***

Şagirdlərə göstərəcəkləri performansın ölçü meyarlarını dəqiq göstərin. Çünki, bu onlarn motivasiyasını yüksəldəcək. Şagirdlər hansı meyarlara uyğun dəyərləndirildiklərini bildikdə onlar daha yüksək motivasiya alırlar. Bu meyarlar olmadıqda isə şagirdlər uğurlu ola bilmək üçün nələr etməli olduqlarını dəqiq bilmirlər. Bu da öz növbəsində onların özgüvənini sarsıdaraq müəssisəyə qarşı güvənsizlik mühiti yaradır.

***1.1.7. Düzgün qiymətləndirmə sistemi qurun.***

Təhsil müəssisəsində istifadə edilən qiymətləndirmə meyarları və cədvəlləri düzgün müəyyən edilməlidir. Bunu müəyyən etdiyinizdə şagirdlər müəssisədə ayrı-seçkilik olmadığına və bütün şagirdlərin eyni meyarlar daxilində qiymətləndirildiyinə inanırlar. Qiymətləndirmə sisteminin mövcudluğu onun keyfiyyətindən də öndə gəlir. Sonra isə bu sistem üçün müəyyən etdiyiniz cədvəllərin ölçüsü olduğundan əmin olun.

***1.1.8. Performansın sənədləşdirilməsi.***

Şagirdlərin göstərdiyi performansı mütləq sənədləşdirin və qeydiyyatını aparın. Şagirdlər göstərdikləri uğurun və ya uğursuzluğun qeydiyyata alındığını görmədikdə öz motivasiyalarını itirirlər. Bu halda uğurlu şagirdlər yeni hədəflər qoymaqdan çəkinirlər. Eyni şəkildə uğursuz nəticələri olan şagirdlər də üzərlərində hansısa bir təzyiq görmədikləri üçün mənfi davranışlarını düzəltmək istəmirlər.

***1.1.9. Davamlı olaraq hədəfi yüksəldin.***

Təhsilalanlar üçün müəyyən etdiyiniz hədəfləri daim yeniləşdirin. Şagirdlər təhsil prosesinin davamını və növbəti səviyyəsini oyun kimi gördüklərində həmin oyunun bir parçası olmaqdan zövq alacaqlar. Çalışın ki şagirdlərə təqdim etdiyiniz çalışmalar və proyektlər çətinlik və məzmun baxımından eynilik təşkil etməsin. Əks təqdirdə onların dərsə olan marağı azalacaq.

***2. Şagird ehtiyaclarının müəyyən edilməsi yolları.***

Hər şagird bir fərddir və onlar sinfə gələndə öz bilik, bacarıq və səriştələrini də sinif mühitinə daşıyırlar. Şagird mərkəzli təhsil sistemində tədris prosesi planlanmamışdan qabaq şagirdlərin mövcud qabiliyyətlərini düzgün müəyyən etmək lazımdır. Bunu təmin etməyin ən uyğun yolu isə öyrənənlərin özlərindən soruşmaqdır. Bunun üçün birinci dərsdən öncə müəllim şagirdlərin ehtiyaclarını müəyyən etməlidir. Şagirdlərin bu biliklərini göstərə biləcəyi mühitin formalaşdırılması onlara yeni tədris ilində təhsilə qarşı bir həyəcan oyatmağa kömək edəcək.

Şagirdlərin ehtiyaclarını müəyyən etməyin yeganə yolu yoxdur. Məsələn, müəllimlər şagirdlərin ehtiyaclarını müəyyən etmək üçün əvvəlki illərdə dərs dediyi şagirdlərinin ehtiyaclarını xatırlayaraq yola çıxa bilərlər. Çünki, bütün şa-

girdlər tədris prosesinin eyni mərhələsində oxşar ehtiyaclara sahib olurlar. Aşağıda göstərilən yollara müraciət edərək müəllimlər qısa zamanda şagird ehtiyaclarını müəyyən edə bilərlər:

**2.1.** Müəllimlər təlim proqramını şagirdlərlə birlikdə incələyə bilərlər. Onlar bu zaman şagirdlərlə proqram daxilində olan mövzuları müzakirə edərək onlara müəyyən edilmiş hədəflərə çatmaq üçün hansı bacarıqlara və məzmun qabiliyyətlərinə sahib olmaqları gərəkdiyini soruşa bilərlər. Eyni şəkildə onlar şagirdlərə də təlim proqramı haqqında suallar verməyə icazə verməlidirlər. Bu şəkildə onlar həm proqram haqqında çəkindikləri məqamları və onlara çətin gələ biləcək mövzular haqqında öz düşüncələrini paylaşacaqlar.

**2.2.** Müəllimlər şagirdlərə yeni öyrənəcəkləri dərsdən gözləntiləri haqqında bir sərbəst yazı yazmağı istəyə bilər. Müəllimlər bu yazıları oxuyaraq onların üzərində kiçik şərhlər əlavə edə bilərlər. Eyni şəkildə müəllim şagirdlərin fikirlərini ümumiləşdirərək o fikirlər haqqında bir təqdimat hazırlayaraq sinfin dərsdən gözlədiklərini söyləyə bilərlər. Bu çalışma müəllimlərə keçiləcək dərsin məzmunu haqqında şagirdlərə ümumiləşdirilmiş fikirlər paylaşmaq imkanı yaradacaq.

**2.3.** Müəllimlər şagirdlərin ehtiyaclarını fərdi şəkildə müəyyən etdikdən sonra onları cədvəl halına gətirərək şagirdlərə sorğu şəklində təqdim edə bilərlər. Şagirdlər qrup şəklində və ya fərdi qaydada bu list vasitəsi ilə ümumiləşmiş hədəflər arasından özlərinə uyğun gələnlərini seçə bilərlər. Bu şəkildə sinfin ümumi ehtiyacını müəyyənləşdirmək mümkündür.

**2.4.** Öncəki illərdə bu fənni öyrənmiş şagirdlərin təlim prosesinin sonunda həmin dərs haqqında yazdıqları təcrübələri şagirdlərlə paylaşmaq və onlara həmin dərsin çətinliklərini və uğurlu olmağın mümkün strategiyalarını öncəki şagirdlərin təcrübələri fonunda göstərmək olar.

**2.5.** Şagird ehtiyaclarını müəyyən etməyin digər bir yolu isə ənənəvi qaydada şagirdlərə ötən tədris ilində olan mövzulara əsaslanan test və ya açıq tipli tapşırıqların təqdim edilməsidir. Bunun nəticəsində müəllim sinifdə olan şagirdlərin mövcud biliklərini müəyyənləşdirmiş olacaq. Ancaq bundan sonra onlar yeni tədris ili üçün öz hədəflərini müəyyənləşdirə bilərlər.

**2.6.** Hər bir şagirdin fərdi qabiliyyətinin səviyyəsini müəyyənləşdirən

diaqnoz meyarları hazırlamaqla, diaqnostik qiymətləndirmə apararaq, təhsilalanların fərdi imkanları təyin etməli və bunun əsasında idraki, emosional və psixomotor bacarıqlarının inkişafını təmin edən cədvəl hazırlanmalı;

**2.6.1**. fərdi plan tərtib edilərkən şagirdlərin inkişaf səviyyəsinin dinamikası nəzərə alınmalı;

**2.6.2.** təlim metodları, üsulları və vasitələrinin tətbiqində fərdi yanaşma nəzərə alınmalı;

**2.6.3.** uşaqların fərdi tələbatını nəzərə alaraq bacarıqlarının inkişafı üçün sağlam mühit yaradılmalı;

**2.6.4.** sinifdə şagirdlərin mənimsəmə səviyyəsinin müxtəlif olmasını nəzərə almaqla fərdi məşğələ cədvəli tərtib edilməlidir.

Şagirdə yönəlik fərdi cədvəlin tərtib olunması üçün aşağıdakı şərtlərin nəzərə alınması lazımdır:

a) şagirdlərin fərdi və psixoloji xüsusiyyətləri haqqında məlumat;

b) tədris materialının təhlil edilməsi, şagirdlərin qarşılaşacağı mümkün çətinliklərin müəyyənləşdirilməsi;

c) şagirdlər üçün fərdi dərs planının tərtib edilməsi;

d) şagirdlər üçün fərdi tədrisin "proqramlaşdırılması";

e) fərqləndirilmiş təlimdən istifadə edərək tədris prosesinin səmərəli təşkili.

Şagirdin təhsil ehtiyacları nəzərə alınmaqla, məzmunun fərdiləşdirilməsinə əsaslanan təhsil proqramının inkişafını təmin edən tədris proqramı olmalıdır. Təlimdə geri qalan şagirdlər üçün onların fərdi tədris planlarında bu borcun aradan qaldırılmamış fənlər üçün kompensasiya tədbirlərinin olması deməkdir.

Fərdi ehtiyaclar şagirdin maraq və qabiliyyətlərinə, motivasiyasına, bacarıqlarına uyğun olmalıdır. Şagirdin fərdi ehtiyac trayektoriyasını müəyyənləşdirmək üçün məqsədləri müəyyən etmək lazımdır. Bu prosesdə bir neçə prinsip nəzərə alınmalıdır:

1. proqram təhsilalanın fərdi təlim trayektoriyasının formalaşdırılmasına imkan verməli;

2. mühit təhsilalanın qabiliyyətlərini inkişaf etdirməli;

3. texnologiya fərdi təlim trayektoriyasını fəal şəkildə həyata keçirilməsi zərurətini əks etdirməli.

***Zəruri xüsusiyyətlər:***

1) kurs, bölmə və mövzunun mənimsənilməsi üzrə hədəflər seçilməli;

2) proqramın səviyyəsinə uyğun olaraq optimal sürət və forma seçilməli;

3) fərdi ehtiyaclara uyğun informasiya üsullarından istifadə edilməli;

4) imkanlar daxilində nəticənin reallaşdırılmasına və təqdimi;

5) koqnitiv fəaliyyətin xüsusiyyətlərinə uyğun qiymətləndirmə aparılmalı.

***Fərdiləşməyə mane olan amillər:***

1) təlim məşğələlərinin təşkili zamanı ümumi cəhətlərin olması (sinif-dərs sistem);

2) dərslərin keçirilməsində onlardan istifadə edilməsi;

3) tədris prosesinin təşkilində sinif-dərs sistemində formal şəkildə fəaliyyətin fərdiləşməsinin həyata keçirilməsi.

***Formalaşma şərtləri***

Fərdi ehtiyaclara görə verilən təlim hər bir uşağın şəxsi xüsusiyyətlərinə uyğun həyata keçirilir. Hər bir şagirdi unikal bir şəxsiyyət kimi görmək və inkişaf etdirmək istəyən müəllim, çətin bir vəzifəni həll etməlidir - hər kəsi fərqli şəkildə öyrətməlidir. Belə ki, təhsil fəaliyyətinin fərdiləşməsi təhsilalanın unikallığının qəbul edilməsinə əsaslanır. Təlimin fərdi xüsusiyyətlərinin və xarakterinin nəzərə alınması artıq ibtidai məktəbdə tələb olunur. Hər bir şagirdə bütün tədris fənlərinin mənimsənilməsi üçün öz tədris trayektoriyası yaratmaq imkanı verilir. Təlimin məqsədi şagirdin fərdi inkişaf zonasını təmin etməkdən ibarətdir ki, bu da ona hər mərhələdə öz fərdi keyfiyyətlərinə və qabiliyyətinə əsaslanaraq təhsil məhsulları yaratmağa imkan verir.

Təhsilin fərdi trayektoriyası müvafiq fəaliyyət növlərinin həyata keçirilməsi yolu ilə şagirdin fərdi potensialının təhsildə reallaşdırılmasının nəticəsidir. Təhsil fəaliyyətinin fərdiləşdirilməsi şagirdlərin aşağıdakı imkanlarını reallaşdırmaq həyata keçirmək məqsədi daşıyır:

- hər bir tədris fənninin məqsədlərini müəyyən etməsi;
- fərdi təhsil proqramlarının tərtib edilməsi;
- təhsil məsələlərinin həlli üçün fərdi tədris tempini, forma və metodlarını, nəzarət üsullarını, refleksləri və öz fəaliyyətini qiymətləndirilməsi meyarlarının seçməsi;

- tədris planına uyğun olaraq öyrənilən fənləri, yaradıcılıq laboratoriyalarını və digər məşğələ növlərini fərdi seçməsi;
- tədris fənlərinin məzmununun mənimsənilməsi;
- fənlər üzrə əlavə mövzu və yaradıcılıq işlərinin fərdi seçilməsi.

Şagirdin fərdi təhsil fəaliyyətinin əsas elementlərinə: fəaliyyətin mənası (nəyə görə bunu edirəm?); şəxsi məqsədin müəyyənləşdirilməsi (ehtimal olunan nəticə); fəaliyyət planı; planın həyata keçirilməsi; refleksiya (öz fəaliyyətinin dərk edilməsi); qiymətləndirmə; məqsədə düzəliş və ya yenidən təyin olunma aiddir.

Şəxsiyyətyönümlü təlimin məqsəd və vəzifələrinə nail olmaq şərti şagirdlərin fərdi ehtiyaclarının xüsusiyyətlərini, onların unikallığını, müxtəlifliyini və muxtarlığını qoruyub saxlamaqdır. Bunun üçün aşağıdakı üsullardan istifadə olunur:

- fərdi təhsil trayektoriyasının qurulması;
- fərdi tapşırıqların verilməsi;
- cütlərlə və qruplarla işin təşkili;
- hər bir şagird tərəfindən fərdi olaraq yerinə yetirilməsini nəzərdə tutan açıq tapşırıqların hazırlanması;
- şagirdlərə özləri üçün dərs planı hazırlamağı, ev tapşırığının məzmununu, yaradıcılıq işinin mövzusunu, yaxın dövr üçün fənn üzrə fərdi təhsil proqramını seçməyi təklif etmək.

Şəxsiyyətyönümlü təlimin əsas vəzifəsi hər bir şagirdin öz təhsilinin fərdi trayektoriyasını yaratmasıdır. Şagirdin təhsili yalnız onun şəxsi məqsədlərinə nail olması ilə məhdudlaşmır. Şagird təlim nailiyyətləri nümayiş etdirdikdən sonra onların mədəni-tarixi analoqlarla müqayisə olunması baş verir. Təlimin refleksiv-qiymətləndirmə mərhələsində şagirdin həm fəaliyyətinin fərdi nəticələrinə, həm də öyrənilən ümummədəni nailiyyətlərə, o cümlədən təhsil standartlarına aid təhsil məhsulları müəyyən edilir.

Fərdi trayektoriya üzrə təlimin təşkili xüsusi metodika və texnologiya tələb edir. Müasir didaktikada bu məsələnin həlli adətən iki əks üsul təklif olunur, onlardan hər biri fərdi yanaşma adlandırılır.

Birinci üsul hər bir şagirdə, öyrəndiyi materialı mürəkkəblik, istiqamət dərəcəsinə görə fərqləndirməklə fərdi yanaşma təklif olunan təlimin fərqləndirilməsidir. Bunun üçün şagirdlər adətən qruplara bölünürlər (tipə görə: bacarıqlı, orta, geridə qalan) və ya səviyyələr (yüksək, orta, aşağı).

İkinci üsul isə təhsil yolunun hər bir şagird üçün öyrəndiyi təhsil sahəsinə uyğun şəkildə qurulmasını nəzərdə tutur. Başqa sözlə, hər bir şagirdə bütün tədris fənlərinin mənimsənilməsi üçün öz tədris trayektoriyası yaratmaq imkanı verilir.

Birinci yanaşma məktəblərdə daha geniş yayılıb, ikinci yanaşma isə yalnız kənardan verilən ümumi məqsədlər fonunda şagirdin fərdi hərəkətinə deyil, eyni zamanda hər biri öz unikallığı ilə seçilən və ayrı-ayrılıqda hər bir şagirdin şəxsi potensialına aid olan müxtəlif təlim modellərinin işlənib hazırlanması və həyata keçirilməsini tələb edir. Təlimin məqsədi hər bir şagirdin yaradıcılığının fərdi zonasını təmin etməkdən ibarətdir. Şagird fərdi keyfiyyətlərə və bacarıqlara əsaslanaraq öz təhsil yolunu qurur. Fərdi təhsil modellərinin eyni vaxtda həyata keçirilməsi-şəxsiyyətyönümlü təhsilin əsas məqsədlərindən biridir.

Müəllim fərdi təhsil trayektoriyası tərtib edərkən şagirdlərə məsləhətçi rolunda çıxış edərək, onun fərdi maraqlarını, tədris fəaliyyətinin xüsusiyyətlərini, tədris materialları ilə iş üsullarını, tədris materialının mənimsənilməsinin xüsusiyyətlərini, tədris fəaliyyətinin növlərini nəzərə almalıdır. Bu zaman fərdi trayektoriyanın tərtib edilməsi prosesində şagird üçün ən vacib olanı bu və ya digər materialın öyrənilməsi üçün mümkün olan imkanları, qabiliyyətləri, perspektivləri, maraqları, səyləri qiymətləndirməkdir.

Şagirdlərin təhsil nailiyyətləri təkcə həcminə görə deyil, həm də məzmununa görə fərqlənir. Bu fərq fərdi qabiliyyətlərlə və müvafiq fəaliyyət növləri ilə şərtlənir. Müəllim şagirdlərə həm emosional-obrazlı, həm də məntiqi fəaliyyəti mənimsəmək üçün müxtəlif növ fəaliyyətlər təklif edə bilər və etməlidir. Bu halda bütün şagirdlər üçün standartların mənimsənilməsinin həcmi ilə seçilən ümumi təhsil trayektoriyası deyil, şagirdlərə həm həcmi, həm də məzmunu ilə fərqlənən fərdi təhsil məhsullarının yaradılmasına gətirib çıxaran fərdi trayektoriyalar təmin ediləcəkdir.

## Ədəbiyyat

1. UNECKO- nun 2020 pandemiya ilə əlaqədar təqdim etdiyi mat. toplusu.

2. Обеспечение непрерывного учебного процесса в Северной Македонии в период пандемии COVID-19

3. Концептуальная записка: Образование в эпоху COVID-19 и в последующий период август 2020 года. Организация Обьединенный Наций.

*4. Илюхин Б. В.* Как пандемия скажется на качестве образования, если продлится больше 3-6 месяцев? Федералный Институт Развития Образования. М.:, 15 апрел 2020

5. COVID-19 Educational Disruptionand Response. *UNESCO*. https://en. Unesco.org/ covid19/ educationresponse (15.04.2020).

6. National learning platforms and tools.*UNESCO*. https://en.unesco.org /covid19/educationresponse/nationalresponses#EASTERN%20EUROPE%20& %20CENTRAL%20ASIA (13.04.2020).

7. How countries are using edtech (including online learning, radio, television, texting) to support access to remote learning during the COVID-19 pandemic. *The World Bank*. – URL: https://www.worldbank.org /en/ topic/edutech /brief/how-countries-are-using-edtech-to-support-remote-learning-during-the-covid-19-pandemic (13.04.2020).

8. La clase del día: ideas para articular las propuestas de Seguimos Educando.*Ministerio de Educatión Argentina*. URL:https://www.educ.ar /noticias /200376/la-clase-del-diacutea-ideas-para-articular-las-propuestas-de-seguimos-educando (15.04.2020)

9. Distance learning solutions. *UNESCO*. https://en. unesco.org /covid19 /educationresponse/solutions (14.04.2020)

10. URL:https://news.mail.ru/politics/41420340/?from 1 (16.04.2020)

11.Covid-19 impact: Online learning companies see spike in number of students. – URL:https://www.livemint.com/ companies/news/covid-19-impact -online-learning-companies-see-spike-in-number-of-students- (14.04.2020)

12. Online learning rockets in coronavirus pandemic, says Pearson.*Reuters*. URL:https://www.reuters.com/article/us-health-coronavirus-education-pearson/online-learning-rockets-in-coronavirus-pandemic-says-pearson-idUSKBN21D384 (13.04.2020)

# 2. ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ÖYRƏNMƏ MÜHİTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

## GİRİŞ

İctimai inkişafın hər bir mərhələsində insanın təhsil ehtiyaclarının təmin edilməsi, gənc nəslin təhsili, maarifləndirilməsi məsələsi cəmiyyətin təhsillə üzvi bağlılığı fonunda öz aktuallığını və qüvvəsini qoruyub saxlayır. Bütün cəmiyyətlərdə, quruluşlarda təhsil fəaliyyəti və qurumları üçün kifayət qədər resursların səfərbər edilməsi mümkün olmasa da nəticədə hər kəs təhsilin ictimai həyatdakı xüsusi rolunu qəbul edir.

"YUNESKO-nun müəyyən etdiyi beynəlxalq tərifə əsasən, təhsil şəxsiyyətin bacarıq və davranışlarının təkmilləşdirilməsinin elə bir prosesi və nəticəsidir ki, bu zaman o, əqli yetkinlik və fərdi inkişafa nail olur. ... Təhsil dedikdə yalnız formal təhsil, yəni məktəb və ya universitet təhsili nəzərdə tutulmur. Təhsil həyatın müxtəlif çağırışlarına hazırlıq üçün uzunmüddətli və çoxşaxəli öyrənmə prosesidir. Başqa sözlə, təhsil fərdlərə ötürdüyü əsaslı bilik və bacarıqlarla onların öz arzu və amallarını necə ifadə etməsini və həyata keçirməsini müəyyənləşdirir, həm də onları öz icmalarının həyatında fəal iştirak edən düşüncəli vətəndaş kimi yetişdirir[1]"

Bilik və bacarıqların kapital sayıldığı, iqtisadiyyatın əsas resursuna çevrildiyi şəraitdə xüsusilə, ümumtəhsil məktəblərində öyrənmə mühitinin təkmilləşdirilməsi baxımından insanların, idarəetmə heyəti, öyrədən və öyrənənlər qrupunun intellektual, ictimai fəaliyyətinə, sosial məsuliyyətinin üzərinə də yeni tələblər qoyulur.

Təlim mühitində təbiət və cəmiyyətə aid şübhə doğurmayan, isbat olunmuş faktlar, qanunlar, qaydalar və s. elmi biliklərin mənimsənilməsi ilə yanaşı ümumi və xüsusi səciyyəli bacarıq və vərdişlər əldə edilir. Təlim prosesində öyrənənin şəxsiyyətinin inkişafına, təlimin məzmununu və metodikasını dəyişməklə isə onların inkişaf səviyyəsini yeniləşdirməyə nail olmaq mümkündür.

---

[1] Təhsil və insan inkişafı. Fəsil 5. BMT-nin İnkişaf proqramı (United Nations Development Programme) https://www.undp.org/content/dam/azerbaijan/docs/publications/sustainabledevelopment/HDtextbook/5.pdf

19 dekabr 2019-cu il Çinin Vuhan əyalətindən başlanğıc götürməklə daha geniş coğrafiyaya, zaman keçdikcə də dünyaya yayılan, bütün canlılarda xəstəlik və ölümə səbəb olan, yoluxucu xarakter daşıyan, epidemiya prosesinin zirvəsi hesab edilən Koronavirus (COVID-19) pandemiyası ümumi həyat keyfiyyətinin aşağı düşməsinə, iqtisadi risklərə və mövcud iqtisadi mühitdə maliyyə itkilərinin artmasına gətirib çıxardı. Çətin nəzarət edilən və sürətlə yayılan virus beynəxalq səviyyədə bir sağlamlıq böhranının yaranmasına səbəb olmaqda davam edir. Bütün dünyada iqtisadi, sosial, sağlamlıq, təhsil sahələrində təcili qabaqlayıcı tədbirlər hazırlanmasına və tətbiq edilməsinə başlanıldığı kimi xüsusilə geniş kütləni əhatə edən təhsil sahəsində də operativ zəruri addımlar atıldı. Fiziki təmasın minimuma endirilməsi baxımından ilkin etapda dünyadakı ümumi öyrənənlərin 90%-ni əhatə edən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesi dayandırıldı.

Daha planlı təşkil və idarə edilən qurum olan ümumtəhsil müəssisələri davamlı və daimi olaraq fiziki təmas, birbaşa ünsiyyət əsasında təşkil edilən təlim prosesi ani, eyni zamanda hazırlıqsız olaraq fərqli formata keçid qarşısında qaldı. Yeni mərhələdə təlim mühitinin öyrədici, inkişafetdirici və dəstəkləyici mexanizmlərinin də dəyişərək yeni dünya nizamı ilə sinxronlaşması, qlobal böhranın tələblərilə hesablaşması zərurəti ilə qarşılaşdı.

Ötən illərdə təhsil sahəsində aparılan tədqiqatlar və mövcud ayrı-ayrı təhsil fəlsəfələrinin müqayisəli təhlili deməyə imkan verir ki, yeni şəraitdə mahiyyətcə tamamilə fərqli deyil, əsasən formaca fərqli nizama uyğunlaşmaq tələb olunur.

Öyrənənlərin fəal öyrənməyə və tənqidi düşünməyə stimullaşdırıldığı siniflərdə pedaqoji proses, əvvəlcədən müəyyən edilmiş nəticələrin əldə olunması üçün öyrədənlərin əlaqələndirici, istiqamətverici, məsləhətçi, öyrənənlərin isə tədqiqatçı, təcrübəçi, yaradıcı subyektlər kimi qarşılıqlı əməkdaşlıq fəaliyyətləri əsasında öyrədici, inkişafetdirici və dəstəkləyici mühitin təşkili mexanizmləri nəzərə alınmaqla qurulur.

Sinif idarəçiliyi tədrisin ən vacib elementlərindən biridir. Sinfin yaxşı idarə olunması şagirdlərin davranışlarına, tədris prosesində iştiraklarına və akademik uğurlarına müsbət təsir göstərən amillərdəndir. Şagirdlər müəllimlərinin nümayiş etdirdikləri müsbət və mənfi davranışlardan birbaşa təsirlənir və

hətta davranışlarını da müvafiq olaraq dəyişdirirlər. Buna görə səmərəli sinif idarəetmə sisteminin qurulmasının şagird davranışına müsbət təsir göstərdiyini demək olar.

Təhsil sisteminin əsas elementləri olan məktəbdə şagirdlər, müəllimlər, idarəçilər, köməkçi heyət və valideynlər kimi bir çox tərəf var. Tərəflərin vəzifələrindən asılı olaraq təhsil məqsədlərinə nail olmaq, təhsilin idarə edilməsi, məktəb rəhbərliyi və sinif rəhbərliyi ilə sıx bağlıdır.

Sinif otağı, şagirdlərin tədris fəaliyyətlərini həyata keçirdiyi sosial bir mühitdir. Buna görə sinif, təlim və tərbiyə fəaliyyətinin həyata keçirildiyi yer kimi təhsil sisteminin mərkəzidir. İnsan bədəni sistemində ürəyin yeri nədirsə, təhsil sistemində də sinfin yeri odur. Şagirdə lazım olan müəllimlər, proqramlar və avadanlıqlar sinifdədir və təhsilin hədəfi olan şagird davranışlarının formalaşdırılması da sinifdə başlayır.

## 2.1.Öyrənmə mühiti. Öyrənənləri fəal öyrənməyə və tənqidi düşünməyə stimullaşdıran siniflərin ortaq xüsusiyyətləri

Təhsilin keyfiyyəti, təlim mühitində onun bütün komponentlərinin arasındakı tarazlığın təmin edilməsi ilə düz mütənasibdir. Təhsil mühiti təlim mühiti ilə müqayisədə daha ümumi, mücərrəd, geniş və əhatəli mühitdir. Burada öyrənən azad inkişaf etməyə, yaradıcı fərd olmağa təşviq edilir, həyatın özü olan təhsil mühitində birbaşa həyatın içində yer alır. Təlim mühiti elə təşkil edilir ki, şagirdlər məktəbdə həyat həqiqətlərini tapa bilmək üçün müstəqil düşünsün, qrup halında, kollektiv şəkildə əməkdaşlıq edə bilsin, qarşılıqlı hörmət və ünsiyyət şəraitində qarşıya qoyulmuş problemləri, sualları, məsələləri həll edə bilsinlər. Səmərəli təhsil və təlim mühiti şəraitində məktəb bütün diqqətini şagirdlərin hərtərəfli inkişafına, onların maraq və ehtiyaclarının təmin olunmasına istiqamətləndirir. Belə olduqda, təhsilin məqsədi, şagirdlərə biliklərin yalnız nəzəri cəhətdən deyil, təcrübəyə əsaslanmaqla inkişafetdirici xarakterdə verilməsini təmin edə bilir.

Təlimin təşkilində mənimsəməni təmin edən mühitin yaradılması, şagirdlərin alternativ variantlardan birini seçməyə yönəldilməsi, problemin həllinə əsaslanan və ona imkan verən layihələrə cəlb edilməsi, praktik məsələlərdən nəzəri prinsiplərə doğru (konkretdən mücərrədə) yönəldilməsilə

mühüm əhəmiyyət kəsb edir. Bu zaman, müəllim şagirdləri problemin həllinə istiqamətləndirir, onlara məsləhətlər verir, təlimin məcrasını dərsliklərin müəyyən etdiyi biliklərə deyil, öyrənənlərin maraqlarına yönəldir. Təlim prosesində fərqli üsullara üstünlük verməklə, təhsil fəlsəfəsinin ayrı-ayrı istiqamətlərində təhsil mühiti və təlim mühitinin tələblərinin vəhdətində, yaxud xüsusilə proqressiv əsaslarla öyrənənlərin diqqətini problemlərin müstəqil həllinə yönəltməyi tələb edir.

Təhsilin məqsədi, vəzifələri, şagirdin öyrənmədə iştirakını fəallaşdırmağa və tənqidi düşünməyə stimullaşdırılması baxımından təlimin və onun öyrədici, inkişafetdirici, dəstəkləyici mühitinin təşkili, müəllimin məqsədi, pedaqoji taktı, onun idarəetmə, mənəvi və siyasi dəyərlər aşılamaq imkanlarına xidmət edir. Ayrı-ayrı təhsil konsepsiyalarının xüsusiyyəti, təhsilin idarə edilməsinin qanunauyğunluqları və s. amillərin öyrənilməsi, müqayisəli təhlili cari vəziyyət üçün təhsilin fəlsəfəsinin müəyyən edilməsi, təlimin səmərəliliyinin təmin edilməsi baxımından əhəmiyyətlidir.

Müasir cəmiyyətdə təhsilin keyfiyyətinin təmin edilməsi, təhsil fəlsəfəsinin müəyyən edilməsi üçün onun keçmişinin təhlil edilməsi, dəyərləndirilməsi baxımından zəruridir. Bu günün həyat şərtləri dünənin həyat şərtlərinə bənzəmədiyi kimi xüsusilə təhsil sahəsində təhsilin möhkəm dayaqlara istinad edir. Çevik mexanizmlərin tətbiqi, faydalı ola bilməsi naminə təhsilin keçmişi ilə mövcud təhsil fəlsəfələri müqayisə və təhlil edilməlidir.

**Proqressivizm**ə əsasən təhsildə məzmuna xüsusi yer verilir və prosesin mərkəzində əsasən öyrənən durur. Proqressiv təhsil fəlsəfəsinin nümayəndələri hesab edirlər ki, öyrənənlər zəruri ideyaları fəal təcrübə yolu ilə sınaqdan çıxarmalıdırlar. Təcrübə zamanı yaranan suallara öyrənənin özü tərəfindən cavab axtarılırsa təlim daha çox əhəmiyyət kəsb edir. Passiv olmayan, fəal təlim mühitində öyrənən şagird özünün fərdi təcrübəsində fiziki və mədəni kontekstdən məna çıxarır və problemi həll edir. Yaradıcı müəllimlər elə bir təcrübə mühiti təşkil edirlər ki, öyrənənlər təcrübələrdən keçərək öyrənir, məzmuna da maraq və sualları əsasında bələdləşirlər. Proqressivist pedaqoqların tətbiq etdiyi elmi metodlar əsasında öyrənənlərin müəyyən problem və hadisələri sistematik, həm də daha qısa müddətə öyrənə bilməsi üçün əsas diqqət, bu prosesin necə aparılmasına istiqamətlənir.

Proqressiv təhsil fəlsəfəsi Amerikada 1920-ci ilin ortalarından başlayaraq, 1950-ci ilin ortalarına qədər formalaşmışdır. Con Dyui və digər nümayəndələrin fikrincə bu təhsil fəlsəfəsinin əsas prinsipi ondan ibarət idi ki, təhsil, məktəblərdə azadlıq və demokratiyanı təcrübədən keçirməklə, vətəndaşların həyatının yaxşılaşmasına xidmət etməlidir. Qərar verərkən fikirlərin paylaşılması, şagird-müəllim münasibətlərinin planlaşdırılması, şagirdlərin seçimi əsasında müəyyən edilən mövzular bu fəlsəfi cərəyanın aspektlərini əhatə edir. Burada kitablar əsas məzmun və mahiyyətdən ziyadə sadəcə vasitələrdir.

Proqressiv təhsil fəlsəfəsinə əsasən ***təhsil mühiti*** – həyatın birbaşa özüdür, burada öyrənənlər həyata hazırlanmır, həyatın içində, proses əsnasında öyrənirlər.Proqressiv təhsil fəlsəfəsinə əsasən ***təlim mühiti*** elə qurulmuşdur ki, məktəb, öyrənənlərin qruplarda düşünməsini və yarışı deyil, əməkdaşlığı təmin edir.

**Perennializm** - fəlsəfi baxışlar içərisində ən mühafizəkar və ənənəvi fəlsəfədir. Perennializm nümayəndələri hesab edirlər ki, təhsil də insan təbiəti kimi dəyişməzdir. Təhsil həyat üçün hazırlıq deməkdir və öyrənənlərə strukturlu təhsil vasitəsilə dünyanın quruluşu, nizamı öyrədilməlidir. Perennialistlər daha çox nizamlı təlim və davranışa nəzarət etməklə öyrənilən bilik, fənn və nəzəriyyələrə istinad edirlər. Perrenialistlər üçün məktəb əsasən əbədi inancları tədris etməklə səbəbləri axtarıb tapmaq üçün mövcuddur. Müəllim izah edir və deyir, şagird isə informasiyanı passiv şəkildə qəbul edir, buna görə də həqiqət əbədidir. Məktəb mühitində baş verən bütün dəyişikliklər isə səthidir.

Perrenialistlər hesab edir ki, təhsilin məqsədi şagirdləri sivilizasiyanın böyük ideyaları haqqında məlumatla təmin etməkdən ibarətdir. Bu ideyalar istənilən dövrdə problemlərin həlli üçün böyük potensiala malikdir. Əsas diqqət daimi ideyaları, sabit, əbədi olan həqiqətləri axtarmaq, daima müəyyən və mühüm səviyyədə olan təbii, bəşəri ideyalar kimi tədris etməyə istiqamətlənməlidir. İntellektin tərbiyələndirilməsi təhsildə ali prioritetlərdəndir. Tələbyönümlü kurikulum, uzunmüddətli intizam daxilində şagirdin inkişafını əvvəlcədən müəyyən edilmiş çərçivə əsasında məhdudlaşdırmaqla mədəni

savadlılığa üstünlük verir. Bəşəriyyətin əldə etdiyi ən yüksək nailiyyətlər olaraq ədəbiyyat, incəsənət və təbiət elmlərinin prinsiplərinin və ya qanunlarının əsas olduğu vurğulanır. 1963-cü ildə "Böyük Kitablar" proqramını işləyib hazırlayan Robert Maynard Huçin, sonradan qərb mədəniyyətinə dair 100 böyük kitaba əsaslanan və kurikulumu hazırlayan Mortimer Adler[2] də bu təhsil fəlsəfəsinin nümayəndələri idi.

Perennialist təhsil fəlsəfəsinə əsasən ***təhsil mühiti*** – həyatı tam mənada əks etdirmir, o, öyrənənlərin intellektual imkanlarının inkişafına nail olan, onları gələcəyə hazırlayan xüsusi mühitdir. Perennialist təhsil fəlsəfəsinə əsasən ***təlim mühiti***nə görə məktəb, öyrənənləri xüsusi "kitab aləmi" ilə əhatə etməli, intellektual və tənqidi təfəkkür şəraitində şəxsiyyətin tərbiyəsini təşkil etməlidir.

**Esensializm**in nümayəndələri hesab edirlər ki, biliklər şagirdlərə sistemli və nizamlı qaydada ötürülməlidir və əsasən, məktəbin tədris edəcəyi standartların intelektual və mənəvi baxımdan xüsusiyyətləri vurğulanır. Burada kurikulum əsas, akademik bilik, bacarıq və vərdişləri əhatə edir. Bu təhsil fəlsəfəsinin müəyyən mənada perenializmə yaxın olmasına baxmayaraq, esensialistlər kurikulumun dəyişdirilə bilən olması ideyasının tərəfdarıdırlar. Təhsil, praktik xarakter daşımalı və öyrənənləri cəmiyyətin dəyərli üzvü olmağa hazırlamalıdır. Təhsil, eyni zamanda əsas diqqəti faktlara və şagirdlərin oxu, yazı, danışıq, hesablama bacarıqlarına yönəltməlidir. Məktəblər siyasət təlqin etməməli və siyasətə təsir göstərməməlidirlər. Öyrənənlərə mütəmadi səy göstərmək, çalışqanlıq, gərgin işləmək və nizam-intizama tabe olmaq öyrədilməlidir. Müəllimlər şagirdlərə yoldaşları ilə münasibətdə səbrli olmaqda kömək etməlidirlər. Bu cür yanaşma 1920 və 30-cu illərdə üstünlük təşkil edən proqresivist yanaşmaya da müəyyən təsirini göstərmişdir.

Vilyam Baqley, 1934-cü ildən ədəbiyyatda və mətbuatda formalaşdırdığı proqressiv yanaşmalara xüsusilə yer vermişdir. Esensializmin C.D. Koerner (1959), H.G. Rikover (1959), P. Koperman (1978) və T. Sizer (1985) kimi digər nümayəndələri də məlumdur.

---

[2] "Great books" - (500 + 17 individual works) - https://en.wikipedia.org/wiki/Great_books
Great Books of the Western World - https://en.wikipedia.org/wiki/Great_ Books_ of_the_ Western_World

Esensialist təhsil fəlsəfəsinə əsasən ***təhsil mühiti*** elə təşkil edilməlidir ki, təlim, real həyatda mövcud olan materiallar və ictimai münasibətlərlə qarşılıqlı əlaqədə qurulmuş olsun. Esensialist təhsil fəlsəfəsinə əsasən ***təlim mühiti***ndə məktəb, öyrənənlərin süurlu şəkildə nizam-intizam qaydalarına riayət etməsi üçün müvafiq mühiti təmin etməlidir. Baş verənlərə şagirdin münasibətini yoxlamaq, öyrənmək üçün mümkün innovativ texnikalardan istifadə edilməlidir.

**Eksistensializm** nümayəndələrinin dünya haqqında fikirləri subyektiv xarakter daşıyır. Düşünürlər ki, əsl həqiqət xeyirxahlıqdır və nəyin doğru olduğunu yalnız insan özü müəyyən edir. Eksistensialistlər hesab edilər ki, dünya həqiqətdir, həqiqət isə insanın məsələyə subyektiv yanaşmasından asılıdır. Yəni hər insanın öz həqiqəti ola bilər, xeyirxahlıq isə azadlıqdan irəli gəlir. Eksistensialistər hesab edirlər ki, məktəb şagirdlərə onların özlərini tanımağa və cəmiyyətdə öz yerlərini müəyyən etmələrinə yol göstərən bir yerdir. Məktəbdə tədris olunan fənlər incəsənətin, etikanın, fəlsəfənin şərhlərini təmin etməlidir. Təlim mühitində qarşılıqlı münasibət, əsasən müəllimin şagirdə fərdi təlim yolu ilə göstərəcəyi köməkdən ibarət olmalıdır. Məktəb mühitində baş verən dəyişiklik həm təbii, həm də mühüm hadisə kimi qəbul edilməlidir. Məktəbdənkənar və fərdi şəkildə müəyyən edilmiş kurikulumun istifadə edilməsi də mümkündür.

Eksistensialist təhsil fəlsəfəsinə əsasən ***təhsil mühiti*** – öyrənəni azad inkişaf etməyə, yaradıcı fərd kimi çıxış etməyə təşviq etməlidir. Öyrənənlərə çoxluğun, əksəriyyətin fikirlərindən çıxış etməyi, əcdadların (keçmişin) müəyyən etdiyi normaları rəhbər tutmamağı öyrətməlidir. Eksistensialist təhsil fəlsəfəsinə əsasən ***təlim mühiti***ndə məktəb, öyrənənləri elə gerçək reallıqla təmin edir ki, onlar bu şəraitdə öz həyat həqiqətlərini özləri müəyyənləşdirə və müstəqil şəkildə seçimlərini edə bilsinlər.

Müqayisə əsasında təhlil onu deməyə əsas verir ki, təlimdə öyrədici, inkişafetdirici, dəstəkləyici mühitin təşkili, müəllimin məqsədi, onun idarəetmə, mənəvi və siyasi dəyərlər aşılamaq imkanları, ayrı-ayrı təhsil konsepsiyalarının xüsusiyyəti, təhsilin idarə edilməsinin qanunauyğunluqları və s. amillər təhsilin fəlsəfəsinin müəyyən edilməsi, təlimin səmərəliliyinin təmin edilməsi baxımından əhəmiyyətlidir.

## 2.2. Öyrədici mühit, onun təşkilinə verilən tələblər

Təlim prosesinin ümumi keyfiyyətinə, gedişinə və nəticəsinə bir sıra amillər istiqamət verir. Bu istiqamətverici amillər kompleks şəkildə nəzərə alındıqda təlimin gözlənilən nəticəsinə nail olmaq mümkün olur.

"Didaktik amilin vacibliyini müəyyənləşdirmək, onu müqayisə etmək üçün ümumi əsas (bazis) olmalıdır. Həmin əsası təlimin məqsədi, nəticə və müvəffəqiyyətində axtarmaq lazımdır. Təlim prosesinin səmərəliliyi öz ifadəsini təlim prosesinin məhsulunda tapır. Məhsuldarlıq şagirdlərin öyrənmə səviyyəsində baş verən dəyişikliklərlə xarakterizə edilir. Təlim prosesində əldə olunan məhsulun mürəkkəb strukturu vardır. Bu strukturu biliklər, bacarıqlar, vərdişlər, dünyagörüşü, erudisiya, əqli keyfiyyətlər, peşə istiqaməti və s. kimi ümumiləşdirilmiş keyfiyyətlər təşkil edir. Təlim prosesində istehsal olunan məhsulun dəyəri və keyfiyyəti, onun məhsuldarlığı ilə tamamilə konkret şəraitdən, yəni kompleks səbəblərdən asılıdır. Bu səbəblər didaktik prosesin gedişində dəyişə, müxtəlif məna kəsb edə bilir"[3]

Təlim mühiti üçün amillər əhəmiyyətli səbəbdir və bir neçə səbəbin fonunda yaranır. Sinif şəraitində dərsin səmərəli təşkilinə, ümumi mühitə bir neçə səbəb eyni anda təsir göstərir. Məsələn, şagirdlərin tam heyətlə dərsdə iştirakı, vaxtında öz yerlərini alması, qarşılıqlı informasiya mübadiləsi üçün intizama tabe olması, onların eyni templə dərsin sonuna qədər motivlərinin saxlanılması və s. səbəblərdən asılı olaraq təlimin gözlənilən nəticəsi təlimdən tamamilə əldə edilə bilər yaxud əksinə.

Ümumiləşdirsək görürük ki, bir qrupdan olan ayrı-ayrı səbəblər hər hansı bir amili yaratdığı kimi ayrı-ayrı amillər də birləşərək kompleks amilləri, öz növbəsində onların da birləşməsi baş amilləri təşkil edir. Təlim prosesində öyrədici mühitin məhsuldarlığına ümumi şəkildə bütün səbəblər kompleks təsir göstərir. Təlim prosesində öyrənənləri fəal öyrənməyə stimullaşdıran baş amillər düzgün əlaqələndirilməlidir:

– tədris materialı;

– təşkilati-pedaqoji təsir;

---

[3] Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. Pedaqoji universitetlərin və ali pedaqoji məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı: Nurlan, 2007. 464 səh.

– şagirdlərin (təlim) ehtiyac və imkanları;

– vaxt.

***Tədris materialı*** baş amili koqnitiv informasiya (bilik verən informasiya) və idarəedən informasiya (koqnitiv informasiyanı necə mənimsəmək haqqında siqnallar) olaraq ikiyə ayrılır. Tədris prosesi üçün informasiyanın yararlılığı, onun gücə müvafiqliyi, təlim nailiyyətləri məhz həmin informasiyanın pedaqoji cəhətdən işlənilmə səviyyəsindən, keyfiyyətindən asılıdır.

Tədris materialının məzmunu, kəmiyyəti, keyfiyyəti, forması, strukturu kimi ümumi amillər obyektiv informasiya kompleksini təşkil edir. Tədris materiallarının öyrənilmə ardıcıllığı, nəzərdə tutulan vaxt və s. isə pedaqoji cəhətdən işlənilmiş informasiya kompleksinə aid edilir.

Materialın pedaqoji cəhətdən işlənilməsi prosesində əldə edilən, şagirdə ötürülən informasiyanın xarakteristikalarına informasiyanın şərh olunma qaydası, strukturu, müvafiqliyi aiddir. Müvafiqlik xaraktersitikası dedikdə müəllimin nitqi, informasiyanın şagirdin hazırlıq səviyyəsinə uyğunluğu, informasiyanın yükü və s. nəzərdə tutulur. Bununla da "Tədris materialı"nın iki kompleks, altı ümumi amili və onlarla ümumi xarakterli ayrı-ayrı səbəbləri vardır.

***Təşkilati-pedaqoji təsir*** baş amili isə müəllimin fəaliyyətini, tədris prosesinin təşkilinin keyfiyyət səviyyəsini, tədris və pedaqoji əməyin şəraitini xarakterizə edən bir sıra səbəbləri və hər biri bir neçə ümumi amili xarakterizə edən iki kompleks amili özündə birləşdirir:

– dərsdə təşkilati-pedaqoji təsir;

– tədris və öyrənmə metodları;

– təlimin təşkili formaları (əsas və köməkçi);

– tədris situasiyaları (tədris materiallarının şagirdlərə hazır çatdırılması, şagirdlərin idarə olunan fəal idraki fəaliyyəti, müstəqil iş və s.);

– müəllimin iş qabiliyyəti (işləmə müddəti, tədris yükü, iş növbəsi, iş rejimi, həftənin günü, əməyin və istirahətin növbələşməsi, yaşı və tədris rübü);

– şagirdin iş qabiliyyəti (oxuma müddəti, oxuma növbəsi, həftənin günü, cədvəl üzrə dərs, yaşı, iş və istirahət rejimi, ümumi və təlim yükünün həcmi, tədris rübü);

– prosesə nəzarət və işin nəticələrini yoxlamaq (bir dərsdə nəzarətin tezliyi – vaxtaşırı nəzarət, nəzarətin ümumi və orta tezliyi, tədris məşğələsinin tipi və

strukturu, mənimsənilən bilik və bacarıqların praktik tətbiqi, təlim vasitələrinin tətbiqi, tədris avadanlığı və təlim şəraiti, o cümlədən, pedaqoji və şagird kollektivlərində sanitar-gigiyenik, psixoloji-fizioloji, təşkilati, əxlaqi mühit, müəllim-şagird əməkdaşlığı, pedaqoji heyət ilə valideynlər arasında münasibətlər və s.).

– sinifdənxaric və məktəbdənkənar məşğələlərdə təşkilati-pedaqoji təsir.

– valideynlərin, dostların, həmyaşıdların şagirdlərə göstərdiyi köməyin həcmi və xarakteri;

– təlim əməyinin rejimi;

– böyüklərin nəzarəti (nəzarətin həcmi, tezliyi, sistemi);

– tədris məqsədləri üçün kütləvi informasiya vasitələrindən istifadə;

– mütaliə (məktəb proqramına və əlavə marağına görə);

– müstəqil təlim əməyinin təşkili;

– yaşayış yerinin məktəbdən uzaqlığı;

– nəqliyyat vasitələrindən istifadə (imkanlar və problemlər);

– dərnəklərdə iştirak etmək;

– xüsusi hazırlıq keçmək – repetitorlarla məşğul olmaq;

– idraki məqsədlər üçün böyüklərlə ünsiyyətdə olmaq və s.

Beləliklə, iki kompleks, iyirmi ümumi amil və yüzlərlə fayda gətirən səbəbdən ibarət bu baş amil, konkret təlim şəraitində maksimum səmərəliliyə nail olmaq, prosesə nəzarət və təhlil edəndə onun bir sıra konkret səbəblərdən asılı olduğu aydın olur.

***Şagirdlərin (təlim) ehtiyac və imkanları*** baş amili şagirdlərin oxumağa qabilliyi, yararlılığı, təlim ehtiyacları və müəyyən edilmiş müddət üçün layihələndirilmiş nəticələrə nail olmaq imkanlarıdır:

– dərs prosesində oxumağa qabillik, təlim ehtiyacları və imkanlar;

– oxuyanların ümumi hazırlıq səviyyəsi (erudisiyası);

– müəyyən tədris materialına yiyələnmə;

– bilik, bacarıq və vərdişləri mənimsəmə qabiliyyəti;

– öyrənmə-idrak fəaliyyəti üçün ümumi qabiliyyətlər;

– diqqətin ümumi xarakteristikası (sinir sisteminin, temperamentin, yaşın xüsusiyyətləri);

– konkret tədris fənnini öyrənən zaman şagirdin təfəkkür xüsusiyyətləri;

– təfəkkürün ümumi xarakteristikası;

– tədris materialını şüurlu və dərindən mənimsəmək üçün psixoloji durum (xarici və daxili);

– təlimin motivasiyası (məqsədləri başa düşmək, dərk etmək, təlimə, öyrənilən fənnə maraq, stimulların təsirliliyi, şagirdin öz vəzifələrinə münasibəti və s.);

– bilik və bacarıqların formalaşma, mənimsənilmə tempi;

– sagirdin səhhəti (yorulması, xəstələnməsi və s.);

– şagirdlərin sayı;

– şagirdlərin dəyərləndirmə (qiymətləndirmə) oriyentasiyası;

– həyat planları;

– intizam, məsuliyətlilik;

– gələcək peşəyə maraq:

– mövcud həyat şəraiti, tərzi.

– sinifdənxaric və məktəbdənkənar fəaliyyətdə oxumağa qabillik, ehtiyaclar və imkanlar.

Müstəqil öyrənmə prosesində isə bu, aşağıdakı səbəblərlə izah olunur:

– özünənəzarət (nəzarətin həcmi, tezliyi, keyfiyyəti, sistemi);

– iradə və qətiyyət;

– məqsədyönlülük;

– oxumaq bacarığı;

– işin rejimi və təşkili;

– iş qabiliyyəti;

– qiymətləndirmə oriyentasiyası;

– stimullaşdırma (subyekti hərəkətə keçməyə vadar etməklə prosesin sürətlənməsini təmin edən maddi, qeyri-maddi komponentlər);

– motivasiya (çalışqanlıq, daxili təşəbbüs və işləmək arzusunu təmin edən maddi, qeyri-maddi komponentlərdən ibarət bir sıra tədbirlər toplusu);

– səhhətin vəziyyəti;

– qavramanın xüsusiyyətləri;

– qabiliyyətlər;

– yaddasaxlamanın və mənimsəmənin sürəti;

– təfəkkürün səviyyəsi və xüsusiyyəti;

– yaş və fərdi xarakteristika və s.

"Şagirdlərin (təlim) ehtiyac və imkanları" baş amili şagirdlərin oxumağa qabilliyi, yararlılığı, təlim ehtiyacları və müəyyən edilmiş müddət üçün layihələndirilmiş nəticələrə nail olmaq naminə iki kompleks, altmışa yaxın ümumi amilin birgə təsiri ilə mümkün olur.

***Vaxt*** baş amili də iki kompleks amilə və ümumi amillərə əsaslanır:

– bilavasitə dərsdə sərf edilən vaxt;

– yeni biliyin, informasiyanın qavranılması və ilkin mənimsəməyə sərf edilən vaxt;

– öyrənilmiş biliyin möhkəmləndiriməsinə sərf edilən vaxt;

– nəzarətin, təkrarların və möhkəməndirmənin dövri olaraq aparılmasına sərf edilən vaxt;

– təlim bitdikdən sonra keçən vaxt (müddət);

– məqsədəuyğun olaraq informasiyanın hafizədə saxlanmasına sərf edilən vaxt;

– çalışmaların yerinə yetirilməsinə, bilik və bacarıqların tətbiqinə sərf edilən vaxt;

– biliklərin sistemləşdirilməsinə sərf edilən vaxt;

– cavab vermək və ona hazırlıq üçün sərf edilən vaxt və s.

– müstəqil olaraq oxumağa sərf edilən vaxt;

– sinifdənxaric və məktəbdənkənar şəraitdə ev tapşırıqlarının yerinə yetirilməsinə sərf edilən vaxt;

– əlavə ədəbiyyatların oxunmasına sərf edilən vaxt;

– fakultətivlərə və əlavə məşğələlərdə iştirak etmək üçün sərf edilən vaxt;

– dərnəklərdə iştirak etmək üçün sərf edilən vaxt;

– maraq üzrə məşğələlərdə iştirak etmək üçün sərf edilən vaxt.

Ümumiləşdirmə apararaq görürük ki, təlim prosesinin məhsuldarlığı bu dörd baş amilin təsiri ilə müəyyən edilir. Təlimin məhsuldarlığını bu amillərin qarşılıqlı münasibətində, onların son məhsulun formalaşdırılmasına qeyri bərabər təsir imkanları ilə töhfəsi fonunda təmin etmək mümkündür. Müxtəlif təlim şəraitlərində hər bir amilin əhəmiyyəti faiz göstəriciləri ilə və digər amillərlə nisbətdə xarakterizə edilir.

Öyrənənləri fəal öyrənməyə, tənqidi düşünməyə motivasiya edən və stimullaşdıran siniflərin ortaq xüsusiyyəti olaraq hər bir amilin səmərəliliyə

təsirinin kəmiyyətini bilmək vacibdir. Eyni zamanda həmin təsirin xarakterini də doğru müəyyən etmək lazımdır.

Öyrədici mühit elə təşkil edilməlidir ki, tədrisin real həyatla əlaqəsi başa düşülsün, şagird eyni zamanda həm tədris, həm də sosial xarakterli problemlərin müstəqil həllinə cəlb olunsun, müxtəlif informasiya mənbələrindən istifadə edə bilsin, sistematik olaraq müstəqil şəkildə bilik ehtiyatını, fərqli situasiyalarda ondan səmərəli imkanlarını artıra bilsin.

Təlimin məhsuldarlığının ciddi artımını isə xüsusi vaxt intervalı əsasında və mərhələli olaraq gözləmək mümkündür. İlk növbədə ətraf mühit şagirddə canlı maraq oyatmalı, onu aktiv əməyə, axtarışa və kəşfə sövq etməlidir. Bu zaman onun tədris fəaliyyəti fiziki və psixoloji cəhətdən yüngülləşir və səmərəli təşkil olunur.

Digər tərəfdən, öyrədici mühit çeviklik və interaktivlik keyfiyyətlərinə malik olduğunda, təlim prosesi bütün şagirdlərin əməkdaşlığına imkan yaradacaqdır. Şagird üçün əlverişli öyrədici mühitin yaradılması o deməkdir ki, mühit ona açıq sual verməyi, problemləri araşdırmağı, tədqiqat aparmağı, problemin həllində vacib sualları qoymağı, müzakirə etməyini təmin edir və dəstəkləyir.

## 2.3. Öyrədici mühitin növləri

Öyrədici mühit əşyavi mühit, informasiya mühiti və sosial-psixoloji mühit olaraq üç istiqamətdə qruplaşdırılır. Öyrədici mühitin növlərinin bölgüsü mütləq bölgü deyil, şərtidir, çünki ətrafdakı müəyyən obyektlər eyni zamanda ayrı-ayrı mühit növlərinin elementləri, eyni çoxluğun alt çoxluqları ola bilir.

**1. *Əşyavi mühit*** təlimin bütün maddi-texniki təminatını özündə birləşdirməklə aşağıdakılardan ibarətdir:

- *məktəb əşyavi mühiti:* dərsliklər və dərs vəsaitləri, lövhələr, plakatlar, stendlər, məktəbin texniki avadanlığı, laboratoriyalar, məktəb ləvazimatları, didaktik oyunlar və s.
- *təbii mühit:* canlı və cansız təbiət.
- *yaşayış mühiti:* maddi mədəniyyət əşyaları, ictimai və mədəni müəssisələr, məişət mühiti.

**2. *İnformasiya mühiti*** təlim prosesində, istər məktəbdə, istərsə də ondan kənarda istifadə edilən və şagirdin qavraya biləcəyi, onun təlim ehtiyaclarını təmin etməyə yönəldilmiş bütün məlumat mənbələri, sistemli proqram təminatı və məlumat ötürmə vasitələridir. Bu kompleksə daxildir:

– müəllim,
– dərslik,
– əyani və didaktik vəsaitlər,
– digər insanlarla ünsiyyət,
– ensiklopediyalar,
– elmi və elmi-kütləvi ədəbiyyat,
– bədii nəşrlər,
– kompüter, multimediya vasitələri,
– müsahibə, müşahidə və eksperimentlər,
– KİV, televiziya,
– kino, teatr,
– muzey, sərgi, ekskursiya, səyahətlər, hər kəsin şəxsi sosial əhatəsi və s.

Dərketmədə köməkçi amil olaraq psixoloji amilləri xüsusilə diqqətdə saxlamaq lazımdır. Bu zaman uşaqlara oyun prosesində təcrübədən keçirmək, toxunmaq, təmas qurmaq, eşitmək, görmək, hiss etmək imkanı yaradılır ki, o, daha geniş məlumatı, yaxud informasiyani daha fərqli istiqamətlərdən mənimsəyir.

**3. *Sosial-psixoloji mühit*** təlimə marağın formalaşmasına, motivasiyanın təmin edilməsinə təsir edən aşağıdakı tərkib hissələrdən ibarətdir:

– *şagirdin digər insanlar ilə qarşılıqlı əlaqəsi*: müəllimlər, valideynlər, digər şagirdlər və s.,

– *şagirdin öz daxili aləmi ilə qarşılıqlı əlaqələrinin bütün növləri*.

Öyrədici mühitin təşkilinə verilən tələblərdəki əsas yanaşma aşağıdakılardan ibarətdir:

– bilik prosesinə müsbət münasibət, yeni biliklərin aşkar edilməsi, mənimsənilməsi və tətbiqi üçün münasib şəraitin yaradılması;

– şagirdin bilik əldə etmək, ünsiyyətdə və qarşılıqlı əlaqədə olmaq, əməkdaşlıq etmək imkanlarını genişləndirmək;

– şəxsiyyətin inkişafı üçün imkanları artırmaq.

### 2.3.1.Əşyavi mühit.

Əşyavi mühit təlimin bütün maddi-texniki təminatını özündə birləşdirməklə məktəb mühiti, təbii mühit və yaşayış mühitindən təşkil edilmişdir. Hər biri mahiyyəti etibarı ilə öyrədici mühit, onun təşkilinə verilən tələblərin ödənilməsinə xidmət edir.

***Məktəb əşyavi mühiti*** aşağıdakılardan ibarət olmaqla təşkil edilmişdir:

– dərsliklər və dərs vəsaitləri,

– lövhələr, plakatlar, stendlər,

– məktəbin texniki avadanlığı,

– interaktiv lövhələr, mültimedia imkanı təmin edən kompüterin bütün əsas və periferiya qurğuları,

– ayrı-ayrı laboratoriyalar,

– məktəb ləvazimatları, didaktik oyunlar və s.

***Təbii mühit*** aşağıdakılardan ibarət olmaqla təşkil edilmişdir:

– canlı təbiət (bitkilər (tez böyüyən və suya az tələbkar dekorativ bitkilər, əkilməklə üzərində müxtəlif təcrübələr aparılması üçün tərəvəz, bostan, dərman, taxıl bitki nümunələri) və heyvanlar (akvariumda, terrariumda, volyer və qəfəslərdə balıqlar, sürünənlər, quşlar, dovşan, pişik və s.)),

– cansız təbiət (bitki və heyvan müqəvvaları, herbarilər, kolleksiyaların müxtəlif meyvə toxumu, çiçək nümunələri, onların mulyajları modelləri, sxemləri və digər məhsullar).

***Yaşayış mühiti*** aşağıdakılardan ibarət olmaqla təşkil edilmişdir:

– maddi mədəniyyət əşyaları (məktəbin tarix-diyarşünaslıq güşəsindəki bütün maddi-mədəni nümunələr, inventar-lar),

– ictimai və mədəni müəssisələr (mədəniyyət təsisatları, kitabxana, muzey, klub, kinoteatr, teatr, sərgi və konsert salonları, musiqi və incəsənət məktəbləri),

– məişət mühiti (evin, gündəlik yaşayış yerini maddi olaraq əhatə edən hər şey).

### 2.3.2.İnformasiya mühiti

İnformasiya mühiti təlim prosesində, məktəbdə, məktəbdən kənarda istifadə edilən və şagirdlərin yaş və inkişaf səviyyələrinə, onların təlim

ehtiyaclarını təmin etməyə yönəldilmiş bütün məlumat mənbələri, sistemli proqram təminatı və məlumat ötürmə vasitələridir.

Bu kompleksə müəllim, dərslik, əyani və didaktik vəsaitlər, digər insanlarla ünsiyyət, ensiklopediyalar, elmi və elmi-kütləvi ədəbiyyat, bədii nəşrlər, kompüter, müsahibə, müşahidə və eksperimentlər, KİV, televiziya, kino, teatr, muzey, sərgi, ekskursiya, səyahətlər, şəxsi sosial çevrə və s. daxildir.

İnformasiya mühitinin bütün komponentləri analoji olaraq onlayn dərs və distant təhsilin prinsipləri ilə elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunan dərslərdə də mövcuddur. Görünən odur ki, dəyişən mahiyyət deyil, əsasən formadır.

Elektron dərs resursları[4] təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün imkan yaradan elektron cihazların köməyi ilə istifadə olunması mümkün dərs materialları üzrə seçim imkan verən vahid platformadır (Şəkil. 3.2.1.):

- Elektron dərsliklər,
- E-test,
- Video dərslər,
- Elektron tapşırıqlar,
- Xarici elektron resurslar,
- İntellektual oyunlar,
- E-təlim,
- E-sinif,
- E-olimp.




Şəkil. 3.2.1.

Dərs proqramlarına aid əlavə elektron dərs vəsaitləri, resurslar əsasən

[4] Elektron dərs resursları (https://www.e-resurs.edu.az/site/index.php)

xarici dillərdə olsa da, dünyada bu sahədə gücləri birləşdirməklə bir sıra ölkələrdə açıq resurslardan istifadə imkanı və hər kəs üçün əlyetənlik təmin edilmişdir. Bu resursların Azərbaycan dilində tərcümə edilmiş elektron forması hər ötən gün daha da təkmilləşdirilir.

Microsoft şirkətinin təqdim etdiyi education.microsoft.com saytı [5]– 10 milyondan çox öyrədən, öyrənən və valideyndən ibarət auditoriyanı birləşdirən beynəlxalq onlayn təhsil şəbəkəsidir. Microsoft - Müəllim Mərkəzində (Educator center) müəllim əməyi, məktəbəqədər, ümumtəhsil və ali təhsil səviyyəsi üzrə milyonlarla öyrənənlərin hibrid siniflərdə və səmərəliliyi artırılmış audiotriyalarda təlim nəticələrinin yaxşılaşdırılmasına xidmət etməyə hesablanmışdır (Şəkil. 3.2.2).

Tətbiqi Başlatma (App launcher) – “9 düymə” işarəsi (Şəkil. 3.2.3) istifadəçilərə müvafiq alətlərlə iş imkanı, keçidi təmin edir. Geniş mültimedia imkanları təqdim edən proqramlar xüsusilə ümumtəhsilin icbari hissəsinin yerli şərait, iqlim, maddi-fiziki təminat nəzərə alınmaqla səmərəli şəkildə təşkil edilməsində ən doğru alət hesab edilir.




Şəkil 3.2.2.




Şəkil 3.2.3.

Təhsildə inklüzivliyi dəstəkləməklə gücləndirməyə xidmət məqsədi ilə ayrı-ayrı təhsil müəssisələrindən və fərqli statuslarla Microsoft Office 365 platformasına giriş imkanı vardır. Microsoft Office 365 platformasının OneDrive, Word, Excel, PowerPoint, OneNote, Outlook, Publisher, Access, Skype for Business, Planner, İnfoPath, Office Online apps, Teams, Class Notebook, Exchange Server, Skype for Business Server, Yammer Enterprise, SharePoint, Active Directory integration, Office mobile apps və s. kimi tətbiqi

---

[5] Microsoft - Müəllim Mərkəzi - https://education.microsoft.com/en-us

proqram və alətləri auditoriyanın istifadəsinə təqdim edilən və hər dəfə daha da təkmilləşdirilən çoxsaylı alətdən biridir (Şəkil. 3.2.4).




Şəkil 3.2.4.

Öyrənmə şəxsi fəaliyyətdir, daxildən, şəxsi təşəbbüs əsasında idarə edilir. Təhsilin bütün pillələri və səviyyələrində inkluzivlyin təminatı tezisinə əsasən təhsil - məqsəd, bütün plan və variantlar isə vasitədir. Məqsədə nail olmaq üçün istifadəsi və tətbiqi nəzərdə tutulan bütün vasitə və alətlərlə iş prosesi avtomatlaşdırılmalıdır. Müəllimin şəxsi nümunəsində, özünün öyrənmək təşəbbüsünü şagirdlərinə ötürməsilə, təşviq etməsilə təlim əməyinin sadələşdirilməsinə, eyni zamanda təhsil resurslarının əlçatanlığı sayəsində bərabər imkanların yaradılmasına, qaçılmaz olan qlobal dəyişikliklər naminə sürətli keçidə nail olmaq mümkündür.

Bu alətlərin hər biri ənənəvi təlimdə öyrənmə mühitinin bütün əyani və fiziki (təhsil) alətləri kimi sadəcə vasitə və ümumi təhsil mühitini təşkil edən elementlərdir, məqsəd deyil.

Öyrənənlərin informasiyanı daha fərqli istiqamətlərdən mənimsəməsi məqsədi ilə hazırda onlayn dərs və distant təhsil şəraitində hibrid siniflərdə və səmərəliliyi artırılmış audiotriyalarda teledərs, Virtual Məktəb, Microsoft Educator Center-in ümumi imkanları çərçivəsində təlimin informasiya mühitinin komponentləri ilə təmin edilir.

**2.3.3.Sosial-psixoloji mühit**

Sosial-psixoloji mühit təlimə marağın formalaşmasına, motivasiyanın təmin edilməsinə təsir edən aşağıdakı tərkib hissələrdən ibarətdir:

- şagirdin digər insanlar ilə qarşılıqlı əlaqəsi: müəllimlər, valideynlər, digər şagirdlər və s.,

- şagirdin öz daxili aləmi ilə qarşılıqlı əlaqələrinin bütün növləri.

Öyrədici mühitin təşkilinə verilən tələblərdəki əsas yanaşma aşağıdakılardan ibarətdir:

- bilik prosesinə müsbət münasibət, yeni biliklərin aşkar edilməsi, mənimsənilməsi və tətbiqi üçün münasib şəraitin yaradılması;
- şagirdin bilik əldə etmək, ünsiyyətdə, qarşılıqlı əlaqədə olmaq və əməkdaşlıq etmək imkanlarını genişləndirmək;
- şəxsiyyətin inkişafı üçün imkanları artırmaq.

Öyrədici mühitdə sosial-psixoloji təsir baxımından pedaqoji prosesin məhsuldarlığına birbaşa təsir göstərən səbəb kimi stimullaşdırmanın tələbatlar və motivlərə bağlı olduğu məlumdur. Eyni zamanda müxtəlif tələbat və motivin təsiri altında, stimulların yönləndirməsi nəticəsində konkret addımlarla hərəkət edən şagird öz məqsədinə nail olur. Qarışıq vəziyyətlər, situasiyalar zamanı stimullara üstünlük verilməsilə daha faydalı, doğru qərarlar qəbul edilir. Stimullar insanı seçim etməyə, dəyərli, mənəvi motivləri ilə nisbətən az dəyərli, lakin emosional baxımdan daha cəlbedici tələbatlar arasında düzgün seçim etməyə, qərar verməyə təşviq edir. İstənilən yaş mərhələsində stimulun seçimində düzgün qərarın verilməsi, onun qəbul edilməsi çətin prosesdir.

Nəinki pedaqoq, eləcə də obyekti insan və insan münasibətləri olan hər bir mütəxxəssis A. Maslounun tələbatlar piramıdasının verilənlərini diqqətdə saxlamalıdır. Məs., orta səviyyə üçün insan öz tələbatlarının müəyyən faizini aşağıdakı kimi təmin edə bilir:

- fizioloji tələbatlarının – 85%,
- ünsiyyətə olan tələbatını – 50%,
- təhlükəsizlik tələbatlarını – 75 %,
- hörmət və ehtirama olan tələbatını – 40%,
- özünütəqdimetmə və yaradıclığa olan tələbatının – 10%.

Şagirdin stimulunu da onun tələbatlarının üstünlük təşkil etdiyi istiqamətdə axtarmaq, yaş və inkişaf səviyyəsinə istinad etmək lazımdır. Xüsusilə fiziolji tələbatların ödənilməsi cəhdlərini nəzərə alsaq, hər birinin özündən əvvəlkinə daha yaxşı alternativ olan yeni stimulları da bu sahədə axtarmaq və intellektual, emosional inkişafa nail olmaq mümkündür.

Hər bir yaşda olduğu kimi məktəb yaşında da fəaliyyət və davranış motivasiyasının öz xüsusiyyətləri vardır. Şagirdləri öyrənmək, istənilən təsadüfi davranışlarının sadəcə zahiri deyil, daxili xüsusiyyətlərinə bələd olmaq üçün stimullardan düzgün istifadə etmək zəruridir.

Klassik Biheyvorist təlim[6]in ideyasına əsasən düzgün seçilən, xüsusilə müsbət stimullar insanın davranışını, hadisələrə münasibətini, reaksiyasını şərtləndirir və zərurət yarandıqda öz fərdi, şəxsi xüsusiyyətlərini dəyişmək imkanı verir.

İstənilən yaşda olduğu kimi şagirdlər üçün də inam, etimad və rəğbətləndirmə müvəffəqiyyətin rəhni, hərəkətverici qüvvəsi hesab edilir. Yalnız təlim mühitində deyil, pedaqoji heyət və rəhbərlik arasında da münasibətlər doğru stimulların seçimi əsasında sağlamlaşdırılır, nəticədə idarəetmədə keyfiyyətin təmin edilməsinə istiqamət verir.

Öyrədici mühitin səmərəliliyini artırmaq üçün güclü və tək stimul yerinə sagirdə təsir göstərə biləcək müxtəlif, çox sayda kiçik stimulları tətbiq etməklə müəllim daha faydalı qərar vermiş olur:

– ***şagirdin heysiyyətinə müraciət etməklə*** (bütün şagirdlər təlimdə müvəffəqiyyət, uğur qazanmaq istəsə də müxtəlif səbəblərdən geri qalma, uğursuzluqlar baş verir. Onların daxili səylərinə təkanı məhz pedaqoq verməlidir. Pedaqoji ədəbiyyatda mövcud olan çoxsaylı priyomlar siyahısına mənlik hissinin daxil edilməsini, şagirdin özünə "Mən başqalarından əksik deyiləm ki!", "Məcbur deyil ki, mən də nə isə ixtira edim, sabah özüm özümdən utanmamaq üçün ən azından ardıcıl bir neçə cəhd etməliyəm!" deməsini təmin etmək lazımdır. Bu, yalnız öyrədən-öyrənən arasındakı qayğıkeşlik, hörmət, inam mühitində baş tutması ilə mümkündür);

– ***şagirdə öz imkanlarının, nailiyyətinin fərqində olmasını təmin etməklə*** (şagird özünün fərdi inkişaf elementləri haqqında müəllimi tərəfindən obyektiv məlumatlandırıldığı zaman təlim prosesində digər iştirakçılarla müqayisədə aydın mənzərə yaranır. Müqayisə işi eyni şagirdin əvvəlki

[6] Biheviorizm (ing. "behavior" - davranış) elmə yeni faktorların – davranış faktorlarının gətirilməsi ilə xarakterizə olunur. Davranış sözü altında insanın psixi fəaliyyətinin xarici ifadəsi nəzərdə tutulur, o, yalnız xarici stimullarla (S) şərtlənən sekretor və əzələ reaksiyalarından (R) təşkil olunur.

imkanları ilə hazırkı nailiyyətləri arasında da aparıla bilər. Əks-əlaqə gecikmədən, öz əhəmiyyətini itirmədən, vaxtında aparılmalıdır, imtahan, test və müsabiqənin nəticələri mümkün qədər ən tez zamanda elan edilməlidir);

– ***inkişafı təmin edəcək rəqabəti himayə etməklə*** (şagirdlər, cəmiyyətdə daha böyük rəqabətlə qarşılaşdıqda sağlam, inkişafı gətirəcək rəqabətin qaydalarını, necə "vuruşmağın" yollarını məhz məktəbdə, təlim mühitində, müəllimin himayəsində öyrənməlidir. Bu zaman daha fəal əməyə təhrik edən rəqabət, baş verən uğursuzluqları ləyaqətlə qarşılamağı, hətta başqalarının haqlı qələbəsinə sevinməyi də öyrədir.

Müəllimin himayəsində baş tutan rəqabət prosesində daha zəif nəticə göstərənlərin, yarışda uduzanların məyusluğuna, nüfuzunun aşağı düşməsinə, özünə inamsızlıq hisslərinin artmasına, emosional, stress vəziyyətlərin yaranmasına imkan vermir. Müəllim bunu onların həyat davam etdikcə hər zaman idman yarışlarında olduğu kimi daim bir-birini əvəzləyən məğlubiyyət və qələbələr içərisində olacaqlarına inandırmaqla tənzimləyə bilir. Məqsəd uğursuzluqla barışıq olmaq deyil, davamlı olaraq rəqabətə hazır olmaqdır. Təlim prosesində rəqabət aparan hər bir şagirdin, hər bir qrupun eyni imkanlarının olması üçün şərtlərin işlənib hazırlanmasına, tapşırıqların tərtibinə, seçiminə, qiymətləndirmənin aparılmasına şagirdlərin özlərini cəlb etmək lazımdır);

– ***stimullaşdırmaqla*** (stimullaşdırmanın ən "rahat" yolu olan tərifləməklə başlamaq mümkündür. Əvvəlcədən planlaşdırmaya və emosiyaların həddini yüksəltməyə ehtiyac yoxdur, qeyri-səmimi alınacaq. Konkret işə görə ünvanlanan tərif inandırıcı, xoş və faydalı olacaq);

– ***tənqid edərkən şagirdlə eyni hissləri paylaşdığınızı hiss etdirməklə*** (tənqid işi doğru üsullarla aparılarsa, növbəti dəfə uğura da ruhlandıra bilər. Tənqidi hətta şəxsi həyatından nümunə gətirərək analogiya aparmaqla, daha sonrakı fəaliyyətlərində uğurlu olacağına ümidləndirməklə, bəzən şəxssiz tənqid etməklə, onu təndiq etdiyinə baxmayaraq halından narahat olduğunu bildirməklə, konstruktivlik üçün növbəti addımlarda birlikdə irəliləməklə tənqid edən müəllim şagirdinin hisslərini paylaşır);

– ***şagird, nüfuzunu özü qoruyub saxlamağa məsul olduğunu aşılamaqla*** (Nöqsanını anlamayanlarla müqayisədə haqsızlığının fərqində olsa

belə özlərini qınamayan şagirdlərə hərdən şans vermək lazımdır, qoy elə düşünsünlər ki, bu dəfə aldığı pis qiymət onun yetərsizliyi, acizliyi deyil, bir dəfə üçün şəaitin əlverişsizliyi, hətta müəllimin günahıdır. Onlara öz nüfuzunu qorumağa, öz qarşısında özünə bəraət qazandırmaqla kompleks üstünlüklərini saxlamaqla uğurlu və çalışqan olmağa davam etməyə imkan vermək lazımdır. Öz qüvvəsinə inanan şagird müəllimin təyin etdiyi tapşırığın öhdəsindən gəlmək üçün bütün gücünü səfərbər edəcəkdir).

## 2.4.İnkişafetdirici və dəstəkləyici mühit, onun təşkilinə verilən tələblər

Təlim zamanı dəstəkləyici mühitin düzgün qurulması, səmərəli təşkili üçün maddi-texniki baza, sinifdəki əşyavi mühit ilə psixoloji dəstəkyici mühitin birlikdə təmin edilməsi nəzərdə tutulur. Psixoloji mühitdə müəllimin maddi-texniki baza, yəni əşyavi mühitlə münasibətdə şagirdin özünə inamının yüksəldilməsi, digər şagirdlərə düzgün sosial-psixoloji məsafədə, fikir azadlğının təmin edilməsi və s. nəzərdə tutulur.

Sinif otağında əşyaların yerləşdirilməsi, mebellərin şagird istifadəsinə uyğun təşkili, şagirdlərin eyni zamanda müxtəlif öyrənmə üsullarından istifadə etmələri üçün əlavə resurslardan, tədris vəsaitlərindən istifadəsinin təmin edilməsi ilə dəstəkləyici mühit təmin edilir. Belə mühitdə keyfiyyətin və səmərəliliyin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraiti yaranır.

Təhsil sisteminin mühüm tərkib hissəsi olan ümumtəhsil məktəbləri cəmiyyətin daha planlı təşkil və idarə edilən qurumu kimi davamlı və daimi olaraq fiziki təmas, birbaşa ünsiyyət əsasında təşkil edildiyindən təlim prosesinin ani olaraq fərqli formata keçdi. Aparılan ümumiləşdirmələr (əsasən sosial şəbəkələrdə, telefonla, elektron məktublaşma vasitəsilə aparılan anket, sorğu, müşahidə) qarşıya müəyyən məsələlər, yeni tələblər qoydu:

1. Karantin dövründə pedaqoji heyət arasında ünsiyyət şəbəkəsi formalaşdırmaq lazımdır,

2. Karantin dövründə müəllimlərin motivasiya mexanizmini işə salmaq lazımdır,

3. Karantin dövründə şagirdlərin motivasiya mexanizmini işə salmaq lazımdır,

4. Sosial media hesabları, sinif üçün yaradılmış qruplardan, "Virtual Məktəb"də qeydiyyatdan keçid, sinif və dərslərin yaradılmalıdır. Təhsil TV-də yayımlanan dərs cədvəllərini təqdim etməklə, xüsusilə bu prosesin tətil deyil, məcburi, eyni zamanda zəruri, lakin müvəqqəti bir proses olduğunu xatırlatmaq lazımdır,

5. Karantin dövründə valideynlərin məlumatlandırılması, bu dövrdə həmişəkindən daha çox səfərbər olmalarını təmin etmək üçün məktəb səviyyəsində tədbirlərin görülməsi, təşkilatlanma lazımdır.

Pandemiyanın təhsil prosesinə təsirləri, başlanğıcda karantin səbəbi ilə mövcud təcrübənin əksinə fiziki ünsiyyətin əksikliyi ilə başlasa da az bir zamanda müəllim və şagird heyətinin texniki baxımdan təminatının aşağı səviyyədə olması, hətta texniki təminatın qənaətbəxş olduğu şəraitdə belə ilkin kompüter, informasiya və multimedia savadlılığı, WEB 2.0 alətləri ilə işləmək imkanlarının zəifliyi və müəllimlərdə motivasiya əksikliyi olaraq müşahidə edilirdi:

1. Ünsiyyyətin yaradılması və təlim prosesinin qaldığı yerdən davam etdirilməsi fərqli texniki qurğular və imkanlar vasitəsilə həyata keçirildiyindən çətinliklər oldu. Yaşadıqları şəhər, rayonlardan asılı olaraq pedaqoji heyətin valideyn və şagirdlərlə ünsiyyəti zamanı şəbəkədəki problemlər, bəzən ümumiyyətlə internetə çıxışın olmaması və s.;

2. Virtual Məktəb sistemində yüklənmə olduğu halda müəllim və şagirdlərin eyni anda dərsə qoşulmaqda, davam etməsində çətinliklər;

3. Məsafədən təhsilin məzmunu baxımından yetərli bazanın olmaması, texniki təminatındakı çatışmazlıqlar, informasiya, multimedia savadlılığının olmaması, internetdə yüklənmə yaxud müəllimin internetə qoşula bilməmək problemindən yaranan yönləndirmə ilə bağlı çətinliklər;

4. Müəllimlərin WEB 2.0 alətləri ilə işləmək imkanlarının məhdudluğu və məsafədən təhsil proqramları ilə bağlı məlumatsızlıqları səbəbindən idarəedici, pedaqoji və şagird heyəti arasında kordinasiya zamanı yaranan çətinliklər;

5. Şagirdlərin kompüter texnologiyasından istifadə, Virtual Məktəb sisteminə bələdləşmə sahəsində kifayət qədər biliyə sahib olmaması çətinliklər yaratdı. Virtual Məktəb sisteminin tətbiqinə yeni-yeni, məhz pandemiya dövründə başlanıldığından nəinki öyrənənlər, həmçinin öyrədənlər baxımından da prosesə adaptasiya dövrü nəzərdə tutulandan daha uzun zaman aldı;

6. İlkin mərhələdə ən maraqlı məqam o idi ki, şagirdlərlə yanaşı bir qrup müəllimlər də bu prosesi bir tətil olaraq qiymətləndirdiklərindən məsafədən təhsilə fokuslana bilmirdilər.

Öyrədici (əşyavi mühit, informasiya mühiti, sosial-psixoloji mühit), inkişafetdirici və dəstəkləyici mühit, onun təşkilinə verilən tələblərin təyin edilməsi, mahiyyətinə uyğun olaraq sistemləşdirilməsilə təşkil edilir:

***– şagirdlər doğru sualı verə bilməlidirlər.*** Sual verən şagird biliyin əldə olunması, öyrənmə prosesinin idarə edilməsinə təsir etməklə ona istiqamət, yön verir. Şagird hər hansı bir öyrənmə fəaliyyətinə az da olsa təbii öyrənmə ehtiyacları, maraqları ilə qoşulmazsa, bilik, bacarıq formalaşdıran mətn, multimediya, xüsusi tapşırıq, çalışmalar və s. vasitəsilə təşkil edilən təlim fəaliyyəti mahiyyət etibarilə nəticəsiz qalır. Müəllimlər şagirdləri sual verməyə məcbur etdikləri halda isə təlimin məzmun və mahiyyətini az ifadə edən, ümumi - şablon suallar meydana çıxır və belə olduğu təqdirdə də müəllim şagirdlərə artıq sual verməmələri üçün məhdudiyyətlər qoymalı olur. Reallıq odur ki, kiçikməktəbli yaş dövründən başlayaraq öz öyrənmə ehtiyaclarını təxmin edə, nəticədə sual verə bilməyən şagirdin öyrənmə maraqları, inkişafı arasında əlaqə qırılır.

***– qoyulan sualın dəyəri ona axtarılan cavabdan daha yüksəkdir***. Doğru sual, öyrənmə prosesinə istiqamət verir. Bu səbəbdən sualın "dəyəri" qiymətləndirilməlidir, "dəyərli sualların" müəllim tərəfindən şifahi təqdir edilməsinin, meyar və bal olaraq qiymətləndirilməsinin şagirdlərin təlim nəticələrinə müsbət təsir göstərəcəyi mütləqdir.

***– informasiya, fikir və ideyalar fərqli mənbələrdən, resurslardan alınmaqla formalaş(dırıl)malıdır***. Mövzular, dərslər, testlər, tapşırıqlar, layihələr üçün ideya və fikirlər fərqli qaynaqlardan gəlmədiyi halda məhdud, dar – eyni istiqamət üzrə qaynaqlar öyrənmə zamanı müqayisə, təhlil imkanlarını da məhdudlaşdırır. Müxtəlif qaynaqlardan olan, hətta bir-birini təkzib edən

fərqli fikirlər və onların müqayisəsi əsasında təlim mühitində analitik təfəkkürü inkişaf etdirmə, problem həlletmə bacarıqlarını möhkəmləndirmək mümkündür.

***– fərqli öyrənmə modelləri tətbiq edilməlidir***. Tədqiqat yönümlü öyrənmə, layihə əsaslı öyrənmə, müəllimyönümlü ənənəvi təlim, həmyaşıdla (peer-to-peer) öyrənmə, elektron öyrənmə (eLearning), mobil qurğular vasitəsilə öyrənmə (M-learning), çevrilmiş sinif[7] (the flipped classroom) modellərinin kombinə edilməsi təlim mühitinə müxtəlif, zəngin imkanlar təqdim edir. Əlbəttə, bu təlim modellərindən heç biri ayrılıqda sinifdəki mövcud tədris resursları, məzmun, şagirdlərin potensiallarının müxtəlifliyi baxımından tamamilə ən uyğun olanı deyildir. Yüksək effektli öyrənmə mühitinin əsas xüsusiyyəti buradakı müxtəliflik və eyni zamanda müəllimin özünün də uzunmüddətli dövr üçün inkişaf imkanlarını artıra bilməsi ilə səciyyələnir.

***– sinif dərs mühitində öyrənmə, yerini tədricən "əlaqələndirilmiş qruplarda" təlimə verir***. Yüksək effektli öyrənmə mühitində öyrənmənin real həyatla əlaqələndirilməsi üçün tamamilə yeni "qablaşdırmaya" ehtiyac yoxdur. Təlim həyata hazırlıq prosesi deyil, həyatın birbaşa özüdür, orada başlayır, orada bitir. Öyrənmə, təlim prosesi sinif otağının xaricinə çıxmaq zərurəti qarşısında qalır.

***– öyrənmə, fərqli kriteriyalara görə və fərdi təlim ehtiyacları, tələbləri əsasında fərdiləşdirilməlidir***. Fərdi öyrənmə formasına tam keçidin zamanı gələnə qədər (yaxın gələcəkdə) şagirdləri yönləndirmək, fasilitasiya etmək sinifdə müəllimin məsuliyyətindədir. Fərdi öyrənmə, planlaşdırılan ölçüdə fərqli kriteriyalara - təlim nəticələrərinə, oxu səviyyəsinə görə deyil, şagirdin maraq və təlim ehtiyaclarına, yeni məzmuna hazırlıq səviyyəsinə və s. görə fərdiləşdirmə deməkdir. Növbəti etapda isə fəaliyyətin tempini, başlanğıc nöqtələrini, intizamı nizamlamaqla şagirdlərin həqiqi ehtiyaclarını müəyyənləşdirmək mümkün olacaq.

---

[7] Çevrilmiş siniflərdə dərs, mövzular evdə öyrənilir, müəllim məktəbdə eyni dərsi müzakirə etmir, şagirdlər yalnız yaranan sualları soruşurlar, məs., Virtual dərsdə verilən izahı dinləməklə sonra özü dərsi oxuya bilər. Məktəbdə isə aydın olmayan, qaranlıq qalan məsələlər müzakirə edilə bilər.

***– qiymətləndirmə, proses olaraq da nəticə olaraq da davamlı, aydın, həqiqi və şəfaffdır, əsla cəza deyildir***. Daha sadə dillə desək, qiymətləndirmə prosesi sagirdin məzmundan nə əxz etdiyini, nə anladığını anlamaq cəhdidir. Qiymətləndirmə mücərrəd, az intensiv, bulanıq təəssüratlı, klinik, cəza xarakteri daşıyarsa, "yaxşı şagirdləri", "mütəfəkkirlərdən" daha tez ayırd edə, yüksək təlim nəticəsinə malik şagirdlərlə aşağı nəticəli şagirdlər arasında ciddi "uçurumu", fərqi hiss edə biləcəksiniz. Qiymətləndirmədə kliniklik ifadəsinin testin formatı ilə az əlaqəsi var, bu, sinifdəki ümumi ahəng, təəssuratla bağlıdır. Şagirdlər nə üçün testdən, sınaqdan keçirilir və bu, sonrakı mərhələdə nailiyyətlərin yaxşılaşdırılmasına nə dərəcədə xidmət edir.

Rəy, qiymətləndirmə zamanı "bal" verilməsə belə ondan daha sürətlə formalaşır.

***– uğurun kriteriyaları balanslaşdırılmış və şəffafdır***. Yüksək effektli öyrənmə mühitində şagirdlər uğurun sirrinin nədə olduğunu təxmin yaxud güman etməli deyillər. Bu, balın, qiymətin nəticəsi ilə, digər fərdi faktorlarla da bağlı olmamalıdır. Bütövlükdə müəllimin, həmkarlarının, ekspertlərin nöqteyi-nəzərinə istinadən deyil, şagird üçün əhəmiyyət kəsb edən vahid struktura, ümumiləşdirici çərçivəyə inteqrasiya etməlidir.

***– öyrənmə vərdişləri koqnitiv, metakoqnitiv, biheyvorist olaraq daim modelləşdirilir***. Prosesə maraq, əzmkarlıq, yeniliklərə çevik uyğunlaşma, prioritet, yaradıcılıq, əməkdaşlıq, təftiş və digər zehni vərdişlərdən başlamaq lazımdır. Cox vaxt şagirdin ətrafdakılardan öyrəndikləri birbaşa didaktik xarakter daşımasa da bilvasitə müşahidə və təqlid əsaslıdır.

### 2.5. Fiziki məkanın təşkili. Sinif otağının təşkilinin təlimə təsiri

Sinif idarəçiliyi təhsilin idarəolunmasının ilk və əsas mərhələsidir. Buna görə təhsil idarəçiliyinin keyfiyyəti sinif idarəçiliyinin keyfiyyətindən çox asılıdır. Bununla bağlı müxtəlif təriflərə rast gəlmək mümkündür. Onlardan bəziləri aşağıda verilmişdir:

– Sinif idarəçiliyi, təlim prosesini səmərəli təmin etmək üçün şagirdlərlə birlikdə sinfin fəaliyyətlərini idarə etməkdir. Başqa sözlə, sinif idarəçiliyi effektiv tədris və təlim strategiyalarını hazırlamaq və həyata keçirmək üçün

şagirdlərin öyrənməsini dəstəkləyən müntəzəm və təhlükəsiz sinif mühiti yaratmaq deməkdir.

– Sinif idarəçiliyi, plan, proqram, vaxt, tədris metodu kontekstində müəllim və şagird arasında ünsiyyət təmin etməklə öyrənmə üçün əlverişli bir mühit yaratmaqdır. Əsas məqsəd sinifdə şagird həvəsini artıracaq bir mühit yaratmaq, şagird məsuliyyətini inkişaf etdirmək və davranışlarını tənzimləməyi öyrətməkdir.

Təriflər birlikdə qiymətləndirildikdə, sinif idarəçiliyi, əvvəlcədən təyin olunmuş təlim və tərbiyə məqsədlərinə çatmaq üçün sinf mənbələrini səmərəli əlaqələndirilməsi kimi müəyyən edilə bilər. Sinifin idarəolunmasına yanaşmalar, ənənəvi və müasir yanaşmalar kimi iki kateqoriyada qiymətləndirilə bilər:

– ənənəvi yanaşmalarda müəllim sinfin "usta"sıdır və sinifdəki fəaliyyətlər müəllimin müəyyən etdiyi qaydalar çərçivəsində həyata keçirilir. Bu müəllimyönümlü yanaşmada qaydalar müəllim tərəfindən müəyyən edilir və şagirdlərin bu qaydalara riayət etmələri gözlənilir. Şagirdlərin əsasən passiv olduğu bu siniflərdə nizam-intizam, avtoritar metodların tətbiqinə əsaslanır.

– müasir yanaşmalarda, ənənəvi yanaşmalardan fərqli olaraq, müəllimlər deyil, şagirdlər sinif idarəçiliyinin mərkəzindədirlər. Ənənəvi yanaşmada mövcud olan müəllim hakimiyyəti, müasir yanaşmada qarşılıqlı əlaqə ilə əvəz edilmişdir. Müasir yanaşmada şagirdlər qərar qəbuletmə mexanizmində, o cümlədən sinif qaydalarının tənzimlənməsində fəal rol oynayırlar.

Sinfin idarəolunmasına təsir edən digər amillər də mövcuddur. Müəllimin peşə biliyi və səriştəsi, şagirdlər arasındakı fərdi fərqlər, sinifdə tətbiq olunan təhsil proqramı və sinfin fiziki vəziyyəti sinifdaxili amillər hesab olunur. Ailə, məktəb, yaxın və uzaq çevrə sinif idarəçiliyinə təsir göstərən xarici amillər hesab olunur. Sinif idarəçiliyinə təsir edən sinif və sinifdənkənar amillər aşağıda qeyd edilmişdir:

***1. Sinifdaxili amillər.*** Bütün uşaqların, xüsusən azyaşlı şagirdlərin (ibtidai sinif) böyüklər yanında olduqda özlərini təhlükəsiz hiss etmələri çox vacibdir. Buna görə də müəllimlər lazımi tədbirlər görməlidirlər. Şagirdlərin özlərini təhlükəsiz hiss etmələri və təhsildə arzuolunan səmərəliliyi əldə etmələri üçün müsbət sinif mühiti yaradılmalıdır. Müsbət sinif mühiti yaratmaq bəzi

sinif faktorlarından asılıdır. Bunlar *müəllim, şagird, proqram* və *sinfin fiziki vəziyyəti*dir.

– *müəllim.* Effektiv sinif idarəçiliyinin ən vacib elementlərindən biri şübhəsiz ki, müəllimdir. Müəllimin öz peşəkarlığını daim inkişaf etdirməsi sinif idarəçiliyi üçün çox vacibdir. Bununla yanaşı, müəllimin peşəsini və uşaqları sevməsi, səbirli davranması şagirdlərlə ünsiyyətinə müsbət təsir göstərir. O, məktəb və sinif mühitini canlandıran və tədris mühitini maraqlı edən bir insandır. Müəllim sinfin idarəolunmasında uğur əldə etməsi üçün əvvəlcə öz şagirdləri ilə düzgün ünsiyyət qurmağı bacarmalıdır. Şagirdlərlə düzgün ünsiyyət qura bilməyən müəllim, hədəflədiyi davranışları şagirdlərdə formalaşdırmaqda çətinlik çəkə bilər.

– *şagird.* Bir sinifdə oxuyan şagirdlərin fərdi xüsusiyyətləri məsələn, öyrənmə tərzləri, vərdişləri və dəyər mühakimələri sinifdəki qarşılıqlı münasibətlərə və sinif mühitinə əhəmiyyətli dərəcədə təsir göstərir. Müəllim, şagirdin fərdi xüsusiyyətləri ilə yanaşı onun ailəsini də tanımalıdır. Uşağın necə bir ailədən gəldiyi, valideynlərinin sağ olub-olmaması, doğma və ya ögey olması, onların təhsili, ailənin sosial-iqtisadi vəziyyəti də sinifdə öz əksini tapır. Müəllimlər uşaqların inkişaf xüsusiyyətlərini mütləq bilməli və buna uyğun olaraq şagirdlərə necə yanaşmalarına diqqət yetirməlidirlər. Əks halda, şagirdlərin səhv etməyə meyli artar.

– *proqram.* Təhsil proqramı təhsilin konstitusiyası hesab olunur. Sinifdə həyata keçirilən tədris fəaliyyətlərinin təhsil proqramına uyğun olması məcburidir. Bu baxımdan təhsil proqramı müəllimlər və şagirdlərə istiqamət verən bir kompas kimidir. Təhsilin məqsədlərində, şagirdlərin öyrənmələri, müxtəlif amillərin öyrənməyə təsir göstərməsi, hansı vəziyyətlərdə, hansı tədris strategiyasının daha uyğun olacağı və tədris prosesi ilə əlaqəli bütün planlaşdırma, tətbiqetmə və qiymətləndirmə fəaliyyətləri proqramda dəqiq göstərilməlidir.

– *Sinfin fiziki vəziyyəti.* Sinfin ölçüsü və sinifdəki şagirdlərin sayı, temperatur, işıq, divarların və mebellərin rəngi, əşyaların düzülüşü və sinfin təmizliyi sinfin fiziki mühitidir. Sinifdə oxuyanların sayının normadan artıq olması və sinfin temperaturu, işığı, rütubəti və s. şagirdlərin dərsə olan diqqətinə təsiri böyükdür. Sinifdəki əşyaların ahəngdar və məqsədyönlü

şəkildə yerləşdirilməsi tədrisə müsbət təsir göstərir, sinifdə rəng harmoniyası göz estetikası və zehni fəaliyyət baxımından stimullaşdırıcı effektlər yarada bilər.

***2. Sinifdənkənar amillər.*** Sinifdənkənar amillərə ailə, məktəb, yaxın və uzaq çevrə daxildir.

– *Ailə.* Ailə cəmiyyətin ən kiçik bir vahididir. Bütün cəmiyyətlərdə demək olar ki, hər bir şəxs ailə mühitində doğulur və məktəbə başlayana qədər demək olar ki, bütün zamanını ailə şəraitində keçirir. Buna görə, ailəni tanımaq, uşaqla tanış olmaq üçün bir vasitədir. Ailə, fərdin yaşadığı ilk mühit, şəxsiyyətin formalaşmasında ən vacib ekoloji amildir. Uşaqların şəxsiyyətinin əhəmiyyətli dərəcədə formalaşdığı məktəbəqədər dövrdə olduğu qədər, məktəb dövründə də, həyatda da ailənin yeri və əhəmiyyəti inkar edilə bilməz.

– *Məktəb.* Məktəb, yarandığı vaxtdan bəri insanı, yaşadığı cəmiyyətə uyğunlaşdırmağı hədəfləyir. Bu mənada məktəbin cəmiyyətin ən vacib müəssisələrindən biri olduğunu söyləmək olar. Məktəb sinfin ən yaxın xarici dairəsi və yuxarı sistemidir və cəmiyyətdə fərdlərin tərbiyəsini həyata keçirən qurumların ümumi adıdır. Siniflər məktəbin bir hissəsidir və məktəbin fiziki və psixoloji quruluşu sinif idarəçiliyinə təsir göstərir. Bu səbəblə məktəb və sinfi ayrıca düşünmək mümkün deyil. Buna görə də məktəbləri strukturlaşdırarkən, sinif quruluşuna və idarəetməyə müsbət təsir göstərəcək qaydalara üstünlük verilməlidir.

– *Yaxın və uzaq çevrə.* Ailə, dost, yaşadığı yer, təhsil aldığı məktəb şagirdin yaxın ətrafını təşkil edir. Daimi yaşadığı mühit, uzaq çevrəyə nisbətən şagirdə daha çox təsir edir. Müəllim bu təsirlərin müsbət tərəflərindən bəhrələnərək mənfi tərəflərindən çəkinməyə çalışmalıdır.

Zaman dünyanın ən dəyərli mənbələrindən biridir. Buna görə vaxtdan səmərəli istifadə etmək çox vacibdir. Sinifdə müxtəlif fəaliyyətlər üçün vaxtı bölüşdürmək, həyata keçirilən tədbirlər üçün kifayət qədər vaxt ayırmaq, şagirdlərin zamanının çox hissəsinin məktəb və sinifdə keçirmələrini təmin etmək, davamiyyətin aşağı düşməsinin qarşısını almaq, vaxtın səmərəli idarəedilməsi vasitəsilə əldə oluna bilər. Bir sözlə, zamanı idarəetmə, fəaliyyətləri prioritetlərinə görə sıralamaq qoymaq bacarığını və şagirdlərin

sinifdə keçirdikləri vaxtın tənzimlənməsini özündə cəmləşdirir. Zaman, öyrənmək üçün vacib bir amildir buna görə də yalnız müəllimlərin deyil, həm də şagirdlərin vaxtdan səmərəli istifadə etmələri vacibdir. Şagirdin uğuru bilavasitə sinifdə öyrənməyə sərf olunan vaxtla əlaqəlidir.

Dərs zamanı fəaliyyətlər arasındakı keçid müəllimlərin ən çox çətinlik çəkdiyi mövzular arasındadır. Sinfə nəzarətin itirilməsi, artan davranış problemləri, şagirdlərin maraq və diqqətini yayındırmaq problemli məsələlərdən hesab edilə bilər. Buna görə xüsusilə məktəbəqədər təhsil müəssisələrində fəaliyyətlər arasında keçid müəllim tərəfindən yaxşı planlaşdırılmalı və vaxt səmərəli şəkildə idarə olunmalıdır.

Müəllimin dərs vaxtından səmərəli istifadə etməsi və vaxt itkisinin qarşısını almaq üçün zamana mənfi təsir göstərən hallar minimuma endirilməlidir. Bu, müəllimin tədrisə sərf etdiyi vaxtın miqdarını artıracaqdır. Ümumiyyətlə, tədris vaxtının düzgün istifadəsinə mənfi təsir göstərən bəzi səbəblər vardır:

– məqsədlərin qeyri-müəyyənliyi;

– planın məqsədə uyğun olmaması;

– məqsəddənkənar fəaliyyətlərə və ya mövzunun təfərrüatlarına çox yer vermək;

– zamanla məqsəd arasında tarazlığın olmaması;

– şagirdlərin mövzudan xəbərsiz olması;

– müəllimin kifayət qədər bilik və bacarığının olmaması;

– sinifdə qayda pozuntuları;

– müvafiq avadanlıq və vəsaitlərin olmaması;

– şagirdlərin fərdi xüsusiyyətlərinə və mövzulara uyğun tədris fəaliyyətlərinin seçilməməsi;

– qərarsızlıq, tələskənlik, əsəbilik və s. arzuolunmaz cəhətlərə sahib olmaq;

– məktəbin fiziki vəziyyətinin lazımi səviyyədə olmaması.

Müəllim dərs prosesində vaxtdan düzgün istifadə etməyi və bəzi prinsiplərə əməl etməyi də bilməlidir. Bu prinsiplər aşağıdakılardır:

– müəllim vaxtdan səmərəli istifadə etmək üçün plan qurmalı və bu planı lazımı səviyyədə həyata keçirməyə səy göstərməlidir.

– müəllim dərsin məqsədinə uyğun düzgün tədris metodları seçməlidir.

– vaxtı, hansı tədris fəaliyyətləri üçün sərf etməli olduğunu bilməlidir.

– məqsəd və həyata keçiriləcək fəaliyyətlər arasındakı əlaqə dəyərləndirilməlidir.

– plan və tədris fəaliyyətinin sonunda, yaranan davranışlar müqayisə edilməlidir.

Müəllim tədrisi daha effektiv qurmaq üçün bəzi məsələləri nəzərə almalıdır. Effektiv tədrisin təmin edilməsində müəllimin diqqət yetirəcəyi məqamlar aşağıdakılardır:

– sinfi idarəetmə üsulları ilə müəllimlik bacarıqları arasında əlaqə yaratmaq.

– müəllim əvvəlcədən dərsin məqsədlərini və məzmununu müəyyənləşdirməli və dərsin təqdimatı üçün lazımi hazırlıq və planlaşdırma aparmalıdır.

– şagirdlərin tədris prosesində fəal iştirakını təmin edərək diqqəti dərsə cəlb etməlidir.

– müəllimin dərs ilə bağlı izahları başa düşülən, qısa, maraqlı və aydın olmalıdır.

– müəllim dərsə uyğun suallar verməli və səs tonu uyğun olmalıdır.

– şagirdlər arasındakı fərqlər, motivasiya səviyyələri, uğursuzluqları və təhsil ilə bağlı xüsusi tələbləri nəzərə alınmalıdır.

– sinfin tərtibatına diqqət yetirilməli və sinifdə qrup şəklində öyrənməni asanlaşdırmaq üçün şərait yaradılmalıdır.

– sinifdəki şagird sayının tədris prosesinə olan təsiri nəzərə alınmalıdır.

– müvafiq fərdi tədris proqramlarından istifadə edilməlidir.

**2.5.1.Şagird davranışının idarə olunması**

Hər bir fərd yaşamaq, sosial vəzifələrini yerinə yetirmək və cəmiyyətdə yer qazanmaq üçün vacib olan davranış qaydalarını öyrənməlidir. Bütün davranış qaydalarını yalnız ailə mühitində əldə etmək mümkün deyil. Bu funksiyanı təlim və tərbiyə fəaliyyətlərinin birlikdə həyata keçirildiyi məktəblər yerinə yetirirlər.

Təhsil, insan həyatının doğum və ölüm arasındakı hər anına təsir edən əhəmiyyətli bir anlayışdır. Təhsilin məqsədi ailə, cəmiyyət və insanlıq üçün faydalı fərdlər yetişdirməkdir. Başqa sözlə desək, insanları düzgün və arzu olunan davranışlara yönəltməkdir.

Davranışın düzgün və ya Yanlış olub olmamasının meyarı, davranışın xüsusiyyətlərinə, baş verdiyi mühitə görə dəyişən cəmiyyətin yazılmamış qaydaları ilə yaradılan fərdi mühakimələrdir. Məktəbdə tərbiyə işinə mane olan hər hansı bir davranış arzuolunmazdır. Yanlış davranışın təsirlərini "zərərsiz" dən "çox zərərli" yə qədər sadalamaq olar. Təhsil davranışın dəyişdirilməsi prosesidir. Təhsilin mətbəxi olaraq təyin edə biləcəyimiz yer məktəb mühiti və xüsusilə, sinif mühitidir. Şagirdlərin davranışlarının istədiyi istiqamətdə dəyişdirildiyi mühitlərdən ən vacibi məktəbdir. Məktəbdaxili həyatın böyük bir hissəsi də sinifdə keçir. Təlim və tədris mühitində müvəffəqiyyətə təsir edən ən vacib amillər sinifdəki davranışlar və sinif idarəçiliyinin səmərəli olmasıdır.

Sinif idarəçiliyinin iki əsas məqsədi var. Birincisi, şagirdlərin təlim fəaliyyətlərində iştirak etmələrini təmin etməklə effektiv və təhlükəsiz təhsil mühiti yaratmaq, ikincisi, şagirdlərin öz davranışlarına nəzarət edə bilmələri üçün təhsil prosesində öz vəzifələrini həyata keçirmələrinə imkan yaratmaqdır. Sinif idarəçiliyində məqsəd, müəllimin tədris vaxtını ən yaxşı şəkildə planlaşdırmasını, vaxtın şagirdlər üçün səmərəli olmasını, tədris proseslərinin nizamlı və əlaqələndirilmiş şəkildə aparılmasını təmin etmək, şagirdlərin dərsə davamiyyətini yüksəltmək, ev tapşırıqlarını yoxlamaq, çətinlik çəkdikləri məsələləri onlara öyrətmək, məsuliyyət almaq deməkdir.

Təhsilin əsas məqsədlərindən biri arzu olunan davranışlara nail olmaqdır. Buna baxmayaraq, təhsil prosesində arzuolunmaz hallarla qarşılaşmaq da qaçılmazdır. Başqa sözlə, bu qaçılmaz vəziyyət təcrübə və fürsət kimi də qəbul edilə bilər. Məktəbdə təhsilə mane olan hər hansı bir davranış arzuolunmazdır. Məktəb və ya sinif mühiti unikal bir sosial mühiti ifadə edir. Bu sosial mühitdə fərqli şəxsiyyət xüsusiyyətləri, akademik bacarıqları, ailə və ətraf mühiti olan bir çox insan bir araya gələrək birlikdə mükəmməl bir prosesi paylaşırlar. Sinifdəki şagirdlərin fərqli xüsusiyyətlərini və onların birlikdə keçirdikləri vaxtı nəzərə alsaq, yanlış davranışların görülməsi təbiidir. Fərqli xüsusiyyətlər təhsil mühitində fərqli davranışlar kimi özünü göstərə bilər. Bu, bəzən sinif atmosferinə müsbət təsir göstərsə də, bəzən təhsil mühitinin psixoloji, sosial və emosional atmosferinə ziyan vura bilər ki, bu da yanlış davranış kimi xarakterizə olunur.

Sinifdə və ya məktəbdə şagirdin yanlış davranışının səbəbləri, sinif və ya məktəbin fiziki quruluşundakı çatışmazlıq, şagirdlərin məsuliyyət hissi, sinif idarəçiliyində müəllimlərin adekvatlığı, təlim və tədris fəaliyyətlərinin şagirdlərin tələbatına, gözləntilərə və hazırlıq səviyyələrinə uyğun olmaması, şagirdlərin bir-birinə olan münasibəti, şagirdlərin inkişaf xüsusiyyətlərindən asılı olaraq dəyişmələri, təhsil fəaliyyətinin planlaşdırılması və həyata keçirilməsi ola bilər. Şagird necə davranacağını bilmədiyi üçün yanlış davranışları ortaya çıxır. Bu vəziyyətdə o, səhv etdiyini dərk etmədiyi üçün ona düzgün yolu göstərmək lazımdır. Buna görə də, ona özünü idarə etməyi öyrətsək, mənfi cəhətlərə səbəb olacaq ehtimallar yox ola bilər.

Uşağın bütün istəklərinin qeyd-şərtsiz yerinə yetirilməsi, istədiyi hər şeyi əldə edə biləcəyi düşüncəsinin formalaşdırılması ya da istədiyi şeylərin məhdudlaşdırılması və ya ümumiyyətlə qarşılanmaması uşağın daxili dünyasına mənfi təsir göstərir və bu da onun davranışlarında öz əksini tapır. Bugünkü həyat şərtlərini nəzərə alsaq bəlkə də uşaqlarımız üçün ən böyük təhlükələrdən biri hər şeyə sahib olabilmə istəyi ya da çox şeyə heç bir zəhmət çəkmədən sahib olmağıdır. Belə hallar qarşımıza məmnun olmayan, qiymət bilməyən uşaqlar çıxarmaqla və davranışlara da mənfi təsir etməklə nəticələnir.

Bu tədqiqatın əsas məqsədi sinifdə şagird davranışlarını araşdırmaq, şagirdlərin düzgün və yanlış davranışlarını, onların mənbələrini və idarə olunmasını müəyyən etmək və müəllimlərin fikirlərinə görə həll yollarını təklif etməkdir.

Araşdırmaya əsasən aşağıdakılar şagirdin düzgün davranışları hesab olunur:

– hörmətcil, tolerant olmaq və qaydalara əməl etməsi;
– məsuliyyətli olması;
– çalışqan, uğur qazanan və qətiyyətli olması;
– tədqiqat aparan, problemə həll yolları axtaran, tənqidi düşünən olması;
– dürüst və əxlaqlı olması;
– xeyirxah olması;
– özgüvənli və heysiyyətli olması;
– empatiya duyğusunun olması;
– milli dəyərlərə hörmət etməsi;

– vətəninə və millətinə sevgi;
– sərbəst düşüncəyə malik olması;
– ədalətli və bitərəf olması;
– ünsiyyətcil olması və s.

Şagirdin yanlış davranışlarına isə aşağıdakılar aid edilə bilər:
– hörmətsizlik göstərməsi və nizam-intizam qaydalarına riayət etməməsi; eqoist olması;
– texnoloji asılılığının (tv, internet, sosial media) olması;
– şiddətə meyillilik;
– etik davranışlara əməl etməməsi;
– həmyaşıdları ilə pis davranması;
– yalan danışması;
– dərsə gecikməsi, dərslə maraqlanmaması, hazırlıqsız gəlməsi;
– sinifdə başqalarının əşyalarını icazəsiz götürməsi;
– yazı masalarının üzərini yazması və ya rəsm çəkməsi;
– təbiətə, ətraf mühitə zərər verməsi və s.

Müəllimlər tez-tez sinifdə şagirdlərin bir-birindən şikayət etməsi, yoldaşları ilə kənar söhbətlər etməsi, dərsdənkənar fəaliyyətlərlə məşğul olması və sinifdə icazəsiz gəzişməsi kimi davranışlarla qarşılaşırlar və onlar bu davranışlara qarşı şifahi xəbərdarlıq metodundan istifadə edirlər. Yanlış davranışa qarşı şifahi xəbərdarlıqla yanaşı, müəllimlər tez-tez şagirdlə dərsdən sonra söhbət etmək və ona qaydaları xatırlatmaq kimi metodlardan istifadə edirlər ki, bu da sinif idarəçiliyi baxımından ənənəvi üsul kimi görünə bilər. Ənənəvi sinif idarəetməsində sinif qaydaları çox sərtdir. Müəllim sinif qaydalarını təyin və tətbiq edəndir.

Yalan danışmaq, yoldaşlarına qarşı şiddət göstərmək, onlarla kobud, təhqiramiz danışmaq, narahatedici zarafatlar etmək, dostlarının əşyalarını icazəsiz götürmək və ya oğurlamaq kimi davranışlara rast gəldikdə müəllimlər dərsdən sonra şagirdlə söhbət metodundan istifadə edirlər. Şagirdlə davranışının səbəbləri haqqında danışmaq, onun arzuolunmaz davranışını azaltmaq üçün təsirli üsullardan biri hesab olunur.

Aparılan araşdırmalara əsasən, məişət problemləri, televiziya, digər kütləvi informasiya vasitələri, ailələrin təhsilə laqeydliyi, sosial medianın əlçatanlığının artması yanlış davranışın səbəblərindən hesab edilir.
Ailə, cəmiyyətin əsasını təşkil etdiyi üçün bir çox müsbət və ya mənfi davranışa səbəb olur. İnsan sosial varlıqdır və ətraf mühitlə qarşılıqlı əlaqəsi qaçılmazdır. Bu qarşılıqlı təsir həm müsbət, həm də mənfi ola bilər. Texnologiya şagirdlərə mənfi təsir göstərdiyi üçün yerində istifadə edilməlidir. Televiziya seriallarında, filmlərdə, sosial mediada məşhur olan bəzi insanlar şagirdlərə pis nümunə ola bilər.

Müəllimlər ailələrin dəstəyini təmin etmək üçün valideyn iclasları, ev görüşləri, təkbətək görüşlər, telefon danışıqları və müxtəlif vaxt çərçivəsində valideynlərlə birlikdə gəzinti təşkil etməlidirlər. Müəllimlərin valideynləri ilə davamlı dialoq qurmağa, fərqli mühitdə onlarla vaxt keçirməyə, valideynləri təhsil mühitinə cəlb etməyə və bu mühitin tərəfdaşı etməyə çalışmalıdırlar.

Məktəb-valideyn-şagird arasında güclü bir əməkdaşlığın və şagird davranışının düzəldilməsində ailədən kömək almağın əsas şərti valideynlərə bu məsələlər barədə məlumat verməkdir. Xüsusən kənd yerlərində sosial-iqtisadi səviyyəsi aşağı olan ailələrə dəstək olmaq üçün məktəb müəllimləri və rəhbərləri məktəblərdə şagirdlərin valideynləri üçün seminarları təşkil etməli və arzuolunmaz şagird davranışına səbəb olan amillər barədə ailələrin məlumatlandırılmasını genişləndirməlidirlər.

Müəllimlər yanlış davranışların idarə olunmasında "Məktəb-ailə əməkdaşlığı", "Texnologiyadan istifadəyə nəzarət", "Təlim və seminarların təşkili", "Sağlam ünsiyyət", "Problemin mənbəyini müəyyənləşdirmək", "İncəsənətə və ya idmana istiqamətləndirmə"nin müsbət təsirinin olduğunu vurğulayırlar.

### 2.5.2. Davranışın monitorinqi və şagirdin yanlış davranışına verilən reaksiyalar vasitəsilə intizamsızlığın aradan qaldırılması.

Müəllimlik peşəsinin ən çətin tərəflərindən biri, şübhəsiz ki, sinfin idarə olunmasıdır. Müəllimyönümlü ənənəvi təhsildə, sinifdə nizam-intizamın təmin edilməsi "sinif idarəçiliyi" kimi qəbul edilirdi. Əgər bir müəllim sinifdə danışır və şagirdlər isə səssizcə dinləyirdilərsə müəllim sinif idarəçiliyində uğur əldə etmiş hesab olunurdu. Sinifin idarəolunması haqqında yazılmış bir

çox kitabda yaxşı sinif rəhbərliyinin təlim-tədris prosesindən arzuolunan səmərəliliyi əldə etmək üçün sinifdə intizam yaratması və qeyri-akademik fəaliyyətlərin minimuma endirilməsi fikri yer alır.

İntizam, ən sadə formada "təhsil" deməkdir. Başqa sözlə, "tərbiyə, müntəzəm davranış və səriştəli təlim" deməkdir. İntizam sözü ümumiyyətlə şagirdlərin yanlış davranışlarına nəzarət kimi şərh olunur. İntizamın məqsədi, özünəqapalı, aqressiv, özünə inanmayan, uğursuz, məsuliyyətdən qaçan, qaydalara əməl etməyən, ev tapşırığını etməyən, yalan danışan, məktəbə uyğunlaşmayan, müxtəlif davranış pozuntu olan şagirdlərə rəhbərlik etməkdir. Sinif idarəçiliyi bilik və səbr tələb edən bir işdir. Bir çox valideyn və müəllimlər sinifdəki yanlış davranış probleminin yalnız zərərli davranışdan ibarət olduğunu düşünürlər. Bununla yanaşı, çox utanmaq, qapalı olmaq, yoldaşları ilə ünsiyyət qurmamaq da arzuolunmaz davranış sayılır.

Şagirdlərə seçim etmək imkanının verilməsi, uşaqlara problem həlletmə bacarıqlarının öyrədilməsi müsbət intizamın elementlərindəndir. Uşaqlara seçim hüququnun verilməsi məsuliyyət və azadlıq hisslərini artıracaqdır. Şagirdlərə problem yarandıqda sakit olmağı və problemə diqqət yetirməyi öyrətmək lazımdır. Problem həllietmə üsulları ilə uşaqlar öz duyğularını və başqalarının duyğularını qiymətləndirməyi və münaqişələri zorakılıq olmadan həll etməyi öyrənəcəklər.

Məktəbdə və sinifdə təhsilə mane olan bütün davranışlar arzuolunmaz davranış hesab olunur. Dərsin gedişatını pozan, hədəflənən məqsədlərə nail olmağa mane olan hər hansı bir davranış yanlış davranışdır. Başqa bir tərifə görə, yanlış davranış, şagirdlərin və müəllimlərin ümumi hüquqlarını istismar edən, təhsil məqsədlərinə, sinifdəki fəaliyyətlərə mənfi təsir göstərən davranışlardır.

Yanlış davranış sinif, dərs, vaxt və vəziyyətə görə dəyişə bilər. Bununla belə, sinifdəki şagird davranışlarını yanlış adlandırmaq üçün dörd əsas meyar var:

1. Yanlış davranış, şagirdin özünü və ya sinif yoldaşlarının öyrənməsinə mane olur.

2. Yanlış davranış, şagirdin özünün və ya dostlarının təhlükəsizliyini sual altına alır.

3. Yanlış davranış məktəbin və ya şagirdlərin əşyalarına zərər verir.

4. Yanlış davranış, şagirdin digərləri ilə ünsiyyət qurmasına mane olur.

Dərslərə gəlməmək və ya gec gəlmək, hazırlıqsız gəlmək, özünə, dostlarına və ya əşyalarına zərər vermək, dərsdənkənar fəaliyyətlə məşğul olmaq tez-tez görülən yanlış şagird davranışları hesab olunur.

Hər hansı bir məktəbdə və ya sinifdə nizam-intizam problemi yaranırsa, bunun mütləq bir səbəbi vardır. Sinif mühitindəki yanlış davranışların mənbələri müəllimə, şagirdin xüsusiyyətlərinə, sinfin fiziki quruluşuna, məktəbə, ətrafa (uzaq və yaxın) görə dəyişir. Sinifdə arzuolunmaz şagird davranışının qarşısını almaq, bu davranışların yaranmasına təsir göstərən səbəbləri bilməkdən asılıdır.

***Sinifdənkənar faktorlar:*** Sinifdəki arzuolunmaz davranışların əksəriyyəti sinif xaricində baş verən hadisələrdən qaynaqlanır. Şagirdin yaşadığı mühit, ailə və məktəb davranışların əsas mənbəyidir. Bu mühitdə yaşayan insanların təhsil səviyyəsi şagirdlərin davranışlarına əhəmiyyətli dərəcədə təsir göstərir. Sinifdən kənar amillər 3 başlıq altında araşdırıla bilər: məktəb, ətraf mühit və ailə.

– ***məktəb***: Məktəbin fiziki xüsusiyyətləri, vəziyyəti, şagird sayı, qaydaları və idarəetmə quruluşu şagirdlərin münasibət və davranışlarına təsir göstərir. Təhsil üçün tələb olunan avadanlıq və vasitələrin olmaması və ya çatışmazlığı şagirdi yanlış davranışa aparan başqa bir səbəbdir.

– ***ətraf mühit***: Şagirdləri problemli davranışa istiqamətləndirən ən vacib amillərdən biri sosial mühitidir. Məktəbin yerləşdiyi fiziki, mədəni və sosial mühit şagird davranışına müəyyən təsir göstərir. Müəllim, ətraf mühitdə rast gəlinən bəzi mənfi davranışların sinfə daxil olmasının qarşısını almaq üçün ətraf mühiti və onun iqtisadi, sosial, mədəni mənşəyini və ehtiyatlarını çox yaxşı bilməlidir. Şagirdlərin yaşadığı mühit davranışa böyük təsir göstərir. Bəzən mühiti dəyişmədən davranışı dəyişə bilməzsən.

– ***ailə:*** Ailə nümunə olaraq şagird davranışının formalaşmağa başladığı və bəzi əsas davranışların yarandığı yerdir. Şagirdlər vaxtlarının çoxunu ailədə keçirdikləri üçün Yanlış davranışların ilk təməli də ailədə atılır. Ailədəki şəxslərin sayı, ailənin gəlir və təhsil səviyyəsi şagird davranışına təsir

göstərən əsas amillərdir. Sinif mühitində müşahidə olunan şagird davranışlarının digər bir səbəbi valideyn münasibətidir. Müəllimin ailəni tanıması, ailə ilə münasibət qurması yarana biləcək bəzi mənfi davranışların qarşısını almaqda təsirli ola bilər.

Sinifdaxili faktorlar Yanlış davranışın ortaya çıxmasında sinifdənkənar amillər qədər vacibdir. Şagirdi istənməyən davranışa aparan sinifdaxili faktorları müəllim, şagird və fiziki mühit kimi qruplaşdırmaq olar:

– ***fiziki mühit:*** Sinfin fiziki şəraiti, səs-küylü və izdihamlı olması, istilik və işıqlandırma şəraiti şagirdlərin fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Fiziki cəhətdən zəif qurulmuş bir mühitdə şagirdləri tərbiyə məqsədi daşıyan davranışlara sövq etmək, yəni davranış dəyişikliyini təmin etmək asan deyil.

– ***şagird:*** Emosional problemləri olan bəzi şagirdlər məktəb həyatı üçün tələb olunan vəzifələri yerinə yetirə bilmədikdə sinif və məktəbə uyğunlaşmaqda çətinlik çəkirlər. Bəzi şagirdlər, təhsil həyatlarında rast gəldikləri uğursuzluqlara görə sinifdəki dərsləri izləmirlər və daim sinif mühitini pozmağa çalışırlar. Şagirdin, müəllim və sinif yoldaşları ilə münasibətinin zəif olması, sosial bacarıqlarının aşağı səviyyədə olması, dostlarının olmaması, məktəbi sevməməsi onu sinifdə görmək istəmədiyimiz davranışlara sövq edir.

– ***müəllim:*** Müəllim keyfiyyətləri sinif idarəçiliyinə əhəmiyyətli dərəcədə təsir göstərir. Effektiv sinif idarəçiliyində müəllimin ilk işi şagirdləri tanımaqdır. Müəllim şagirdlərə harada və necə davranmağı izah etməlidir. Yanlış davranışın formalaşmasında müəllimlərin səriştəsizliyi böyük rol oynayır. Müəllimin sinifdə daim fəal, şagirdlərin passiv olması onların diqqətini yayındırır. Müəllimin şagirdlərə lağ etməsi, kobud davranması, şagirdlər arasında fərq qoyması, lazımi ünsiyyət qura bilməməsi, sosial bacarıqlarının olmaması kimi səbəblər yanlış davranışların yaranmasına təminat yaradır. Bundan əlavə, müəllimin fərdi xüsusiyyətləri, özünə inam, uğursuzluq qorxusu və s. vəziyyətlər, uşaqlar tərəfindən bəyənilməməsi və xüsusi problemlər (ailə və s.) sinifdəki intizam problemlərinin mənbəyi ola bilər.

**Cədvəl 2.5.2.1.**

| Müəllim davranışları və onların səbəb olduğu yanlış şagird davranışları | |
|---|---|
| ***Müəllim davranışları*** | ***Yanlış şagird davranışları*** |
| 1. Aşağı qiymət yazmaqla hədələmək | 1. Qorxu, ancaq qiymət üçün oxumaq |
| 2. Cəza olaraq çoxlu tapşırıq vermək | 2. Dərsə marağın itməsi |
| 3.Ev tapşırıqlarını yoxlamamaq | 3. Ev tapşırıqlarını natamam və ya ümumiyyətlə yerinə yetirməmək |
| 5. Yanlış davranışları düzəltməmək | 5. Yanlış davranışlara davam etmək |
| 6. Yanlış davranışa və ya sözə həddən artıq tənqidi yanaşmaq | 6. Söz haqqı istəməmə, məktəbə gəlməmək |
| 7. Keçmədiyi mövzulardan imtahan götürmək | 7. Köçürməyə yönəlmək |
| 8. Dərsi düzgün planlaşdırmamaq, şagirdləri boş buraxmaq | 8. Dərsdənkənar fəaliyyətlərlə məşğul olmaq |
| 9. Zorla intizam yaratmaq | 9. Məktəbin əşyalarına zərər vermək, passiv və ya aqressiv olmaq |
| 10. Sinifdə hər kəsin görə biləcəyi yerdə dayanmamaq | 10. Gözdən və ünsiyyətdən uzaq qalan şagirdlərin dərsdənkənar fəaliyyətlərə yönəlməsi |
| 11. Şagirdlərin psixoloji, sosial akademik xüsusiyyətlərini bilməmək | 11. Aqressiv və ya passiv olmaq |
| 12. Şagirdlərin iqtisadi vəziyyətini nəzərə almadan alət və avadanlıq istəmək | 12.Özünəqapanma, oğurluq, məktəbə gəlməmək |
| 13.Düzgün davranış haqqında məlumat verməmək | 13.Düzgün və yanlış davranışları fərqləndirməmək |
| 14. Şagirdin davranışının yerinə şəxsiyyətini tənqid etmək | 14. Utancaq olmaq, özünə qapanmaq, ünsiyyət qurmamaq |
| 15. Haqlı və haqsız şagird arasında fərq qoymamaq | 15. Müəllimə və dərsə qarşı laqeydlik |
| 16. Sosial və iqtisadi xüsusiyyətlərinə görə ayrı-seçkilik edərək sosial sahələrdə daim eyni şagirdlərə üstünlük vermək | 16. Müəllimə və dərsə qarşı nifrət hissi, qısqanclıq |
| 17. Şagirdin yanlış davranışlarını gözardı edib ancaq Yanlış davranışlarına diqqət ayırmaq | 17. Müqavimət göstərmək, öz hisslərini gizlətmək, başqalarını günahlandırmaq, diqqətin dağılması |
| 18. Mükafat və cəzadan ədalətli istifadə etməmək | 18. Qısqanclıq, müəllimə və yoldaşlarına qarşı mənfi münasibət |
| 19. Şagirdləri kor-koranə şəkildə itaətkarlığa alışdırmaq üçün intizam cəzası vermək | 19.Güvən duyğusunun itirilməsi, hüquqlarını müdafiə edə bilməmək, haqsızlığa etiraz etməmək |
| 20. Ana dilindən yaxşı istifadə etməmək, elmi dildə danışmamaq (məs: jarqon) | 20. Jarqon ifadələrdən istifadə |
| 21. Uğurlu və uğursuz şagirdləri akademik olaraq ayırd edə bilməmək (məs: hər ikisinə eyni qiymət vermək) | 21.Dərsə laqeyd yanaşmaq, müəllimi sevməmək |
| 22. Fiziki cəza vermək | 22. Yoldaşları ilə problemlərini dalaşaraq həll etmək, yalan danışmaq |

Bəzən müəllimlər şagirdə "sən yenə dərsini oxumamısan?!" deyir ki, müəllimin "yenə" kəlməsini işlətməsi şagirdi buna alışdırır. "Sinfimin daha fəal şagirdləri” ifadəsi də kökündən yanlışdır və digər şagirdlərin həvəsdən düşməsinə səbəb olur. "Sən bunu bacarmayacaqsan” dedikdə şagird bacardığı işdə də bacarıqsızlıq görünməyə başlayır. "Sən çox nadinc, tərbiyəsiz uşaqsan”, "Niyə dərsi dinləmirsən?” kimi ifadələr işlətmək düzgün deyil. Şagirdin diqqətini yayındıran səbəbi araşdırmaq lazımdır. Bu ifadələrdən əlavə, məktəblinin "tərbiyəsiz”, "pinti”, "natəmiz” adlandırılması yanlışdır. Bəzən müəllimin şagirdə "sənin ailən hara baxır?” deməsi, onda həm ailəsinə, həm də özünə qarşı aqressiya yaradır. O, özgüvənini itirir. Bəzilərinin özgüvəni olmadığına görə bildiklərini də düzgün şəkildə tətbiq edə, onu düzgün şəkildə göstərə bilmirlər.

Yanlış davranışlar nümayiş etdirən şagirdlərin bir sıra fərdi xüsusiyyətləri mövcuddur. Bunlardan özünə hörmət hissinin aşağı olması, özünə inamın itirilməsi, başqalarına və hadisələrə nəzarət etmək istəyi, başqalarının uğurlarını qısqanmaq, məğlubiyyəti qəbul edə bilməmək, valideynləri tərəfindən fiziki və psixoloji zorakılığa məruz qalmaq, səhlənkarlıq, dost olmağı bacarmamaq, ailə dəstəyinin olmaması, ailə intizamsızlığı, akademik bacarıqların zəifliyi, aqressivlik və ya utancaqlıq, asosiallıq kimi xüsusiyyətləri sadalamaq olar.

Yanlış davranışın qarşısını almaq üçün istifadə edilə bilən strategiyalar:

***– şagirdlərin mütəmadi olaraq izlənilməsi:*** Müəllim dərs zamanı bütün sinfə nəzarət etməli və bütün şagirdləri görə biləcəyi yerdə durmalıdır.

***– şagirləri həvəsləndirmək və motivasiyanı dərsin sonuna qədər saxlamaq:*** Şagirdləri həvəsləndirmək üçün onlara aktiv olmağa imkan verilməli, müəllimyönümlü tədris metodlarından imtina edilməli və bir çox şagirdə danışmaq hüququ verilməlidir.

***– şagirdlərin maraqlarını nəzərə almaq və dərsə diqqəti artırmaq:*** Müəllim müşahidə vasitəsilə şagirdlərin maraqlarını aşkar etməli, diqqətin yayınması əlamətləri olduqda gündəmdəki məsələlərdən hər hansı birini müzakirə etməli, məntiq və zəka oyunlarından istifadə etməli, şagirdlərə bir neçə dəqiqə sərbəst fəaliyyət göstərməyə imkan verməlidir. Müəllim bu kimi

vasitələrdən istifadə edərək şagirdlərdə dərsə marağı bərpa etməyə çalışmalıdır.

***– sinif qaydalarını müəyyən etmək:*** Müəllim, şagirdləri ilə görüşdüyü ilk andan etibarən onlardan gözlədiyi davranışlar barəsində məlumat verməli, qaydalar təyin etməli və bu qaydaların nə üçün zəruri olduğunu bildirməlidir.

***– problemi müəyyən etmək:*** Şagirdin yanlış davranışı qarşısında müəllimin etməli olduğu ilk şey problemin nə olduğunu anlamaqdır. Problemi düzgün müəyyən etmək düzgün yanaşmanın vacib şərtidir. Davranışı anlamaq, mövcud problemlərin səbəblərini müəyyən etməkdən başqa, gələcəkdə yarana biləcək yanlış davranışları təxmin etməkdir.

***– görməzdən gəlmək:*** Əgər yanlış davranış ani baş veribsə və davamlılıq göstərməyibsə, bunu görməzdən gəlmək olar. Lakin müəllim, görməzdən gəldiyi davranışın inkişafından çəkinməlidir. Çünki yanlış davranışa sahib olan şagird bu davranışın müəllim tərəfindən qəbul olunan bir davranış olduğunu düşünərək eyni davranışı təkrarlaya bilər. Müəllim bu təkrarlanan davranışa məhəl qoymasa, yanlış davranışın artmasına səbəb olar. Əhəmiyyətli davranış problemlərini görməzdən gəlmək, onu aradan qaldırmaq mümkün olmaması qədər problemin daha da dərinləşməsinə səbəb olur.

***– xəbərdarlıq:*** Yanlış davranış nümayiş etdirən şagirdə, bu davranışının yolverilməz olduğunu müxtəlif xəbərdarlıqlarla hiss etdirilə bilər. Müəllim bədən dilindən istifadə etməklə, toxunmaqla, sual verməklə, söz haqqı verməklə və ya sözü birbaşa yanlış davranışa gətirməklə xəbərdarlıq edə bilər.

***– dərsdə yenilik etmək:*** Müəllimin sinifdə daima eyni metodlardan istifadə etməsi, özünün aktiv şagirdlərin isə passiv olması dərsin yeknəsək olmasına və şagirdlərin dərsdən yayınmasına səbəb olur. Diqqətsiz şagirdlərin yanlış davranışlara meyl etmələri də qaçılmaz olur. Bu davranışlar dərsdə, tədris metodlarında, alət və avadanlıqlarda dəyişiklik etməklə aradan qaldırıla bilər.

***– məsuliyyət hissi:*** Məşğul ola biləcəyi işi olmadığını düşünən və ya gördüyü iş ona maraqlı gəlməyən şagirdin yanlış davranışa yönəlməsi təbiidir. Bu vəziyyətdə ona maraqlı gələn, öhdəsindən gələ biləcəyi bir işi tapşırmaq yanlış davranışın qarşısını almaq üçün faydalı bir üsuldur. Şagirdlərini

tanıyan müəllim, onları məsuliyyət sahibi edir. Dərsi idarə etmək, dərsə uyğun materiallar tapıb gətirmək, sinfə nümayəndəlik etmək, ev tapşırıqlarını yoxlamaq kimi məsuliyyətləri üzərinə götürən şagird öz davranışına nəzarət edir və yanlış davranışa tərəf yönəlmir.

***– şagirdlə söhbət:*** Bütün xəbərdarlıqlara baxmayaraq şagirdin davranışında dəyişiklik olmursa, problemi şagird ilə müzakirə etmək faydalıdır. Yanlış bir davranış müşahidə edildikdə, şagirdlə istər sinifdə, istərsə də sinif xaricində davranışının səbəb və nəticələri haqqında danışıla bilər.

***– məktəb rəhbərliyi və ailə ilə əlaqə saxlamaq***: Bəzi problemli davranışlar müəllimə öhdəsindən gəlməkdə çətinlik yarada bilər. Belə hallarda müəllimin məktəbin rəhbərliyi ilə əməkdaşlıq etməsi vacibdir. Müəllimin tədrisə mane olan davranışların öhdəsindən gələ bilmədiyi hallarda, məktəb rəhbərliyi problemin həlli üçün ailədən və ya mütəxəssisdən kömək istəyə bilər.

***– cəza:*** Müəllim bütün metodlardan istifadə etdiyi halda, hələ də şagirdlərin arzuolunmaz davranışlarının öhdəsindən gələ bilmirsə, göstərməli olduğu son reaksiya cəzalandırmaqdır. Cəza, bu davranışın təkrarlanmasının qarşısını alacaq şəkildə tətbiq edilməlidir, buna görə də şagird nəyi, necə etdiyi üçün cəzalandırıldığını bilməlidir. Niyə cəzalandırıldığını bilməyən şagirdin davranışını düzəltməsi mümkün deyildir.

Effektiv sinif idarəçiliyində cəzanın yeri olmamalıdır. Çünki cəza, davranışı müəyyən müddətə zəiflədir və ya dayandırır. Təzyiq aradan qalxan kimi həmin davranış təkrarlana bilər. Cəza davranışın dəyişməsinə səbəb olmur. Başqa sözlə, yanlış davranışı istədiyiniz şəkildə dəyişdirmir. Müəllimlərin şagirdlərin yanlış davranışın qarşısını almaq üçün tez-tez istifadə etdikləri üsul olan cəzanın, şagirdlərə mənfi təsirləri ola bilər. Aldığı cəzanın təsiri ilə şagird ya aqressiv davranış nümayiş etdirir, ya da özünə qapanır. Cəza verməklə bir sıra problemlərin aradan qaldırıldığı düşünülsə də, cəzanın özü bir çox problemlərə səbəb ola bilər.

İntizam, şagirdlərin maraq və istəklərinə təzyiq etməyən, şagirdlərə xoşbəxt olacaqları fəaliyyətlərlə məşğul olmağa imkan verən, onları qorxudan, təzyiqdən, narahatlıqdan (xüsusilə qiymət) uzaq tutan, passiv səssizlikdənsə aktiv mühitə üstünlük verən, mənfi davranışları cəzalandırmaqdan daha çox

müsbət davranışları təqdir edən, laqeyd və ya zabitəli bir müəllim anlayışından daha çox şagirdlərlə ortaq qərarlar qəbul edən və şagirdlərin planlaşdırmanın hər bir mərhələsində iştirak etməsini təmin edən xüsusiyyətləri özündə əks etdirməlidir.

Sinif idarəçiliyində müəllimlərin özlərinə verdikləri əsas sual "Sinifdəki şagirdlərimi istədiyim kimi necə yönləndirə bilərəm?" idi. Ancaq müəllimlərin özlərinə verməli olduğu əsas sual "Sinfdəki hər bir şagirdin sağlam inkişafını təmin edən sinif mühitini necə yarada bilərəm?" olmalıdır.

İntizamın həyata keçirilməsində bəzi strategiyalar mövcuddur:

– *monitorinq (Şagirdin reaksiyalarını izləmək):* Müəllim mənfi davranış göstərən şagirdi davranışın göstərildiyi ilk andan başlayaraq müşahidə edir. Yaramazlığı dayandırıb və sonra yenidən təkrarlamaq, aqressivlik göstərmək, əməkdaşlıqdan imtina etmək kimi davranışlar şagirdlərin məqsədləri haqqında fikir yürütməyə imkan yaradacaqdır, məs: yaramazlığı dayandırıb və yenidən təkrarlamaq, diqqəti cəlb etmək kimi qəbul edilə bilər.

– *məlumat toplama:* Müəllim, məktəb qeydləri, şagirdin əvvəlki müəllimləri və zəruri olarsa evi ziyarət edərək ailədən məlumat toplamalıdır. Əldə etdiyi məlumatlar (məhdud olsa da) şagirdin məqsədinin, diqqəti cəlb etmək, güclü görünmək, qisas almaq və ya qeyri-adekvatlıq nümayiş etdirmək olduğunu təxmin etməyə kömək edir.

– *istiqamətverici ifadələr:* Müəllimin, şagirdin mənfi davranışının gizli məqsədi haqqında məlumatı olduqdan sonra şagirdi bu məqsəddən məhrum etmək üçün məntiqli şəkildə hərəkət etməlidir. Bu ifadələr sinifdəki fasiləsizliyin qorunmasında və şagirdin mümkün məqsədinin müəyyən edilməsində vacib rol oynayır. Məs, “Davranışın yoldaşlarınla işləməyə hazır olmadığını bildirir, yerində qal. Hazır olduğunu düşünəndə narahatlıq yaratmadan qrupa qoşula bilərsən” və s.

– *sinif yığıncaqları:* Sinif yığıncaqlarında şagirdlər dinləmə, növbə alaraq işlər görmək, fərqli fikirlər eşitmək, ünsiyyət qurmaq, müzakirələr aparmaq, başqalarına kömək etmək və öz davranışlarına görə məsuliyyət götürmək kimi sosial bacarıqları öyrənirlər. Bundan əlavə, şagirdlər, istəklərini dilə gətirmək, diqqəti yönəltmək, tənqidi düşüncə, qərar qəbul etmə, problem həll

etmə bacarıqları və demokratik prosedurlar kimi akademik performansı yüksəldən şeyləri sinif yığıncaqlarında öyrənirlər. Şagird sinif görüşləri vasitəsilə öyrənə biləcəyi bacarıqları qazandıqdan sonra oxumaq, yazmaq və hesablama onun həyatında daha mənalı olur. Müəllimlər hesab edirlər ki, sinif görüşləri vacib bacarıqları formalaşdırır və gənclərə həyatın bütün sahələrində - məktəbdə, işdə, ailədə, cəmiyyətdə uğur qazanmağa müsbət təsir göstərir.

Sinif görüşlərinin formatı:

1. Ümumi dəyərləndirmə.
2. Prioritet nəticələrin izlənilməsi.
3. Gündəlik istifadə olunan üsullar:

a) başqalarını dinlərkən hisslərinizi bölüşün.

b) eyni mövzunu təkrar müzakirə etməyin.

c) problemin həllində kömək istəyin.

4. Gələcək planlar (səyahətlər, layihələr).

– sosial mühəndislik: Müəllimin, sosial uyğunlaşma bacarığı aşağı olan şagirdlərə bu bacarıqların aşkar olunmasına kömək edə biləcək fəaliyyətlər təşkil etməsidir. Sosial mühəndislik fəaliyyəti, yanlış davranan şagirdi aktivləşdirər, onun müsbət təcrübə əldə etməsinə şərait yaradar.

Sinifdə şagirdlərin intizam problemlərinin qarşısını almaq üçün müəllimlər aşağıdakı üsullardan istifadə edə bilərlər:

– hiperaktiv şagirdlər: Onları özünüzə yaxın əyləşdirin. Dərs prosesində hərəkət edə biləcəkləri ərazilərin sərhədlərini çəkin.

– diqqəti tez dağılan şagirdlər: Divar tərəfdə əyləşdirin.

– passiv şagirdlər: tapşırıqların siyahısını vaxt limiti ilə birlikdə yazın və əyləşdiyi masanın üzərinə yapışdırın. Yerinə yetirdikləri tapşırığın yanında (+) qoyun.

– yaddaşı zəif olan şagirdlər: Tapşırığı kiçik hissələrə bölün. Təlimatları ən çox iki-iki verin.

– motivasiyası aşağı olan şagirdlər: Hər bir inkişafı qeyd etmək üçün bir cədvəl hazırlayın. Öyrəndikləri hər yeni şeyi cədvəldə qeyd edin.

Müəllimlər intizam problemlərinin həllində ailə-məktəb-müəllim əməkdaşlığının, şagirdlə təkbətək ünsiyyətin və effektiv cəza sisteminin zəruri olduğunu düşünürlər.

### 2.5.3.Fiziki məkanın təşkili. Sinif otağının təşkilinin təlimə təsiri.

Keyfiyyətli təlim üçün yaxşı təşkil olunmuş təhsil mühiti lazımdır. Təhsil mühiti sözü təkcə sinif sahəsinə deyil, bütövlükdə bütün məktəbə aiddir. Məlumdur ki, bir məktəbdə öyrənmənin təxminən 25% -i sinifdən kənarda baş verir. Şagirdlər hüquq və ədalət kimi bəzi dəyərləri, əməkdaşlıq, paylaşma, təşkilatlanma və qərar qəbuletmə kimi bəzi vacib bacarıqları sinifdən kənar öyrənirlər. Sinif və məktəb mühitinin yaxşı təşkil olunması şagirdlərin özünə inamını və mənlik hissini də inkişaf etdirir.

Fəal təlimdə fiziki mühitin əhəmiyyəti böyükdür və müəllim bunu diqqətdə saxlamalıdır. Sinfin effektiv idarə edilməsinin şərtlərindən biri də sinfin fiziki və intellektual quruluşları ilə bağlı tərtibatlardır. Bu məqsədlə tətbiq olunanların müvəffəqiyyəti, dərsə hazırlıq dövründəki zəruri emosional və fiziki şəraitin uyğunluğundan asılıdır. Şagirdlərin ehtiyaclarını nəzərə alaraq hazırlanmış bir təhsil mühitində onlar daha təbii və düzgün davranış nümayiş etdirirlər. Beləliklə, tənzimlənmiş mühit, sinif qaydalarının qorunmasına mühüm töhfə verir.

Sinif mühiti düşünülərək yaradılmalı, öyrənmə üçün bir motivasiya mərkəzi kimi qurulmalıdır. Belə bir mühit, şagird motivasiyasının yüksəlməsinə və müəllim-şagird münasibətlərinin keyfiyyətinə təsir göstərir. Sinif mühitini daha canlı tutmaq üçün fiziki görünüşünü mümkün qədər vaxtaşırı dəyişdirmək məqsədəuyğundur. Unutmamalıyıq ki, davranışın dəyişdirilməsinin təsirli yollarından biri ətraf mühiti dəyişdirməkdir. Bu məqsədlə texnoloji imkanlardan və xüsusilə müasir təhsil texnologiyalarından tez-tez istifadə etmək lazımdır.

Təlim və tədris mühiti şagirdlərin hər cəhətdən rahat və dinc hiss edəcəyi məkan olmalıdır. Şagirdlərin fiziki və psixoloji cəhətdən özlərini rahat hiss etmədikləri mühitdə səmərəli tədris aparmaq olmaz. Müvafiq fiziki nizama sahib olan tədris mühitinin üç əsas funksiyası vardır.

1. Şagirdlərin daha asan öyrənmələrini təmin etmək.
2. Şagirdləri fiziki cəhətdən rahat hiss etdirmək.
3. Şagirdləri dərslərinə həvəsləndirmək.

Bu üç ünsürün təmin edilməsinin əsas şərti sinfin fiziki vəziyyətinin münasib və əlverişli olmasıdır. Digəri, bu fiziki vəziyyətin pedaqoji cəhətdən uyğun

bir şəkildə qurulmasıdır. İndiki dövrdə, sinif otaqlarında, fərqli təhsil məqsədləri üçün istifadə olunacaq guşələr yaratmaq tövsiyə olunur. Bu guşələr, oxşar cəhətli şagirdlərdən ibarət olan siniflərdə, şagirdlər arasında fərdi xüsusiyyətlərin inkişafı üçün əlverişli imkanlar yaradır. Fərdi xüsusiyyətlər eyni sinifdə fərqli təhsil fəaliyyətlərinin vacib olduğunu göstərir. Şagirdlərdən bəziləri riyaziyyata, bəziləri ədəbiyyata, bəziləri musiqiyə və s. maraq göstərirlər. Şagirdin tələbatına uyğun olan sinif otağında oturacaq yerlərinə deyil, müxtəlif fəaliyyətlər üçün şərait yaradan geniş hərəkət sahələrinə ehtiyac duyulur.

Sinif otaqlarının tərtibatında ümumi tələblər:

– sinif otaqları təmirli olmalı, mebel və tədris avadanlıqları ilə təchiz olunmalıdır.

– sinif otaqlarında texniki təhlükəsizlik və sanitar-gigiyenik normalara riayət edilməlidir.

– sinif otaqlarının tərtibatı estetik tələblərə uyğun olmalıdır.

– sinif otaqlarında müəllimlər və şagirdlər üçün sərbəst iş sahəsi yaratmalıdır.

– sinif otaqlarında iş planı üzrə daimi və dəyişdirilən təlim, informasiya xarakterli stendlər, foto materiallar, dərsliklər, proqramlar olmalıdır.

Sinifdəki şagirdlərin sayı, şagirdlərin düzgün yerləşdirilməsi və masaların düzülüş forması, divar və mebelin rəngi, işıq, temperatur, təmizlik, tədris avadanlıqları, görünüş və s. sinifdəki fiziki mühitin əsas elementləri sayıla bilər.

***Şagirdlərin sayı.*** Sinifdə şagird sayı çox olmamalıdır. Bu zaman hər uşağa individual yanaşmaq olmur. Dərslər nə qədər qrup şəklində keçirilsə də, nəzərə almaq lazımdır ki, hər uşağın psixologiyası fərqlidir. Yanaşma fərqli olmalıdır. Müəllim ən azından şagirdləri tanımalıdır. Son zamanlar, sinif idarəçiliyi baxımından ideal hesab olunan siniflərdə mümkün şagird sayının 25-dən çox olmaması vacib sayılır. 15 nəfərdən az şagirdi olan sinifləri kiçik, 15-25 nəfər orta, 25 nəfərdən çox şagirdi olan sinifləri isə böyük sinif adlandırmaq olar. Şagird sayı tədrisin keyfiyyətinə müəyyən dərəcədə təsir göstərir.

Qırx və ya daha çox şagirdin iştirak etdiyi sinifdə şagirdlərin əldə etdiyi uğurların sayı az, on səkkiz və daha az şagirdi olan siniflərdə isə daha çox olması müəyyən edilib.

Xüsusilə ibtidai təhsilin ilk illərində şagirdlərin köməyə daha çox ehtiyacı olur. Bu səbəbdən ibtidai siniflərdə şagirdlərin sayının az olması məqsədəuyğun sayılır. Şagird sayı az olan siniflərdə daha çox təhsil metodundan istifadə etmək mümkün olur. Sıx olmayan siniflər, müəllimə, əlavə vaxtdan istifadə etmək, az resursla kifayətlənmək, hər bir şagirdə daha çox vaxt ayırmaq, şagird inkişafını asanlıqla izləmək, sinif otağını daha səmərəli idarə etməyə və öyrənməyə şərait yaratmaq imkanı verir.

***Şagirdlərin düzgün yeləşdirilməsi.*** Şagirdlərin sinifdə yerləşdirilmə qaydası, masaların mövqeyi, qarşılıqlı müəllim-şagird münasibətinə təsir göstərən ən vacib amildir. Sinifdəki şagirdlərin yerini müəyyənləşdirməkdə əsas şərtlərdən biri, hamının görmə və dinləmə rahatlığının olmasıdır. Lövhə, təlim vasitələri hər kəsə görünməlidir, müəllimin və digər tədris vasitələrinin səsi hamı tərəfindən eşidilməlidir. Görmə və ya eşitmə problemi olan şagirdlər, bu obyektlərə yaxın ğyləşməli, boyu hündür olanlar isə arxa tərəfdə əyləşməlidir.

Şagirdlərin əyləşməli olduğu yeri müəyyənləşdirərkən onlar arasındakı fərdi xüsusiyyətlər və vərdişlər də nəzərə alınmalıdır. Fərqli fərdi xüsusiyyətləri olan şagirdlər yan-yana oturmamalıdırlar. Maraq səviyyəsi aşağı olan və dərsdə fəal iştirak etməyən şagirdlər ön cərgəyə yerləşdirilməlidir. Bəzi arzuolunmaz vəziyyətlərdə bir şagirdin yerinin dəyişdirilməsi, sinifdəki abuhavanın dəyişməsinə səbəb ola bilər.

Sinifdəki mebel, müəllim masası da daxil olmaqla yerdəyişmə üçün münasib olmalıdır. Müəllimin masası bütün sinfi görə biləcəyi yerdə olmalıdır. Müəllim masasının yeri şagird masalarının düzülüş formasından asılı olaraq dəyişdirilə bilər. Sinif otağının təşkilinin mütləq bir forması yoxdur. Hər bir sinif tərtibatının müsbət və mənfi tərəfləri ola bilər. Sinifdəki şagirdlərin sayından, fiziki vəziyyətindən və məkandan asılı olaraq fərqli sinif otaqları yaradıla bilər. Bu təsnifatlarda dərs prosesinin formasına və növünə görə əyləşmə qaydası əsas götürülür.

Şagird masalarının müxtəlif cür düzülmə qaydaları vardır. Bunlar:

– klassik (ənənəvi)

– fərdi (tək-tək)

– vahid qrup

– multiqrup

– ***klassik (ənənəvi) forma*** *(şəkil 2.5.3.1)*.

Ən məşhur, geniş yayılmış, müəllimyönümlü bir sinif quruluşudur. Bu forma, dinləmə və qeydlər aparmaq üçün daha uyğundur. Biliyin müəllim tərəfindən ötürülməsiylə aparılan tədris üsulları üçün münasib forma hesab olunur. Diqqəti müəllimə çəkir, şagird iştirakını və ünsiyyətini məhdudlaşdırır. Tədris avadanlıqlarının istifadəsinə çox ehtiyac duyulmayan dərslər üçün məqsədəuyğun sayılır. Əsasən şagird sayı çox olan siniflərdə istifadə olunur.



Şəkil 2.5.3.1.



Şəkil 2.5.3.2.

– ***fərdi (tək-tək) forma*** (şəkil 2.5.3.2).

Şagirdlərin özlərinin istifadə edə bildikləri bir nəfərlik masalardan ibarət olan düzülüş formasıdır. Sıraların vəziyyəti onları hər şəkildə təşkil etmək üçün əlverişlidir. Bu düzülüş qaydasında üz-üzə ünsiyyət imkanı olur və şagirdlərin dərsdə iştirak səviyyəsi yüksək olur. Fərdi forma şagirdin dərsə olan diqqətini artırmaq və tədris materiallarından istifadə üçün uyğun hesab olunur. Bu düzülüş qaydasının O, U, V, T və ardıcıl kimi müxtəlif tənzimləmə formaları mövcuddur.

– ***vahid qrup forması*** (şəkil 2.5.3.3).

Şagirdlərin bir-birlərini asanlıqla görə bildikləri bir qrup şəklində oturma formasıdır. Tədris fəaliyyəti, bütün sinif tək bir qrup kimi həyata keçirilir.

Müəllim tədris fəaliyyətinin növündən asılı olaraq formanı istədiyi kimi təşkil edə bilər. Daha çox müzakirə və fikir mübadiləsi üçün ideal hesab olunur. Şagirdlər bir-birini tam görə bildikləri üçün danışmaq, müzakirə etmək, bədən dili ilə ünsiyyət qurmaq imkanı yaranır. Bu forma masalarsız, yalnız stullardan istifadə edilməklə tez və asan qurula bilər. Bir dərsdə bir neçə dəfə qısamüddətli müzakirə qrupları yaradıb sonra sinfi qısa müddət ərzində də əvvəlki vəziyyətinə qaytarmaq olar.

– ***multiqrup forması*** (*ş*əkil 2.5.3.4)**.**

Sinif mühitində birdən çox kiçik fəaliyyət qrupları şəklində toplanmağa imkan verən bir formadır. Qarşılıqlı şagird münasibətlərinin ən yüksək səviyyədə olduğu yerləşmə növüdür. Şagirdlər müəllimin verdiyi tapşırığı birlikdə yerinə yetirirlər. Şagirdlərdə qrup halında işləmək vərdişləri inkişaf edir. Tətbiq edərək öyrənmək və laboratoriya işləri üçün əlverişli hesab olunur. Şagirdlərin liderlik və əməkdaşlıq xüsusiyyətləri inkişaf edir. Şagird sayı az olan siniflərdə istifadə olunması daha məqsədəuyğundur.



Şəkil 2.5.3.3.



Şəkil 2.5.3.4.

***Sinfin temperaturu.*** Sinfin temperaturu normal otaq temperaturunda olmalıdır. Mühitə uyğun geyinən bir adam üçün lazım olan otaq istiliyinin 20 $^0$C olduğunu söyləmək olar. İsti və soyuq sinif mühiti şagirdlərə mənfi təsir göstərir. Sinfin temperaturu qızdırıcı və soyuducu avadanlıqlarla tənzimlənə bilər və şagirdlər temperaturun dəyişməsinə uyğun geyinməlidirlər. Temperatur, rütubətə və mövsümə görə dəyişə bilər. İdeal sinif temperaturu 19 ilə

22 $^0$C arasında hesab olunur. Həddindən artıq isti, fiziki narahatlığa, diqqətin yayılmasına səbəb olur. Həddindən artıq soyuq olanda isə, şagird bütün fikrini qızınmağa yönəldir və dərsə olan diqqəti azalır.

***Sinfin işıqlandırılması.*** Məktəb binasının quruluşu siniflərə təbii işıq mənbəyindən maksimum istifadə etməyə imkan verməlidir. Günəş şüalarından faydalana bilməyən siniflərdə isə günəş işığına oxşar olan işıqlandırma avadanlıqları istifadə olunmalıdır. İşıq səviyyəsi şagirdlərin gözlərini zədələməyəcək şəkildə tənzimlənməlidir. Sinifdə təlimin təsirli olması üçün işığın yetərliliyi, istiqaməti, rəng və əks olunma kimi xüsusiyyətləri nəzərə alınmalıdır. İşığın çox və ya az olması diqqəti yayındırdığı qədər işığın istiqaməti, əks olunması, rəngi də diqqəti dağıdır və gözün yorulmasına səbəb olur. Sinfin pəncərələri günəş işığından lazımi qədər yararlanmaq üçün uyğun olmalıdır. Şagirdlər lövhəni rahat bir şəkildə görməli və orada yazılanları oxuya bilməlidirlər ki, bunun üçün də sinifdəki işıqlandırma sistemi lazımi səviyyədə olmalıdır.

***Sinfin təmizliyi.*** Təmizlik, sinif mühitində sağlamlıq qaydalarının, fərdi və kollektiv yaşamağın ən vacib ehtiyaclarından biridir. Təmiz olmayan mühitdə epidemioloji xəstəliklərin yayılması asanlaşır. Buna görə sinifdəki döşəmələrin, divarların, pəncərələrin və mebellərin təmizliyi şagirdlərə həm sağlamlıq, həm də psixoloji baxımdan müsbət təsir göstərir. Şagirdlər sinif otağını təmiz saxlamağı öyrənməlidirlər. Təmiz bir mühitdə yaşamağa öyrəşən şagirdlər sinif otaqlarının, məktəbin təmizliyinə həssaslıqla yanaşırlar. Sinif otağının havasının təmizliyi təkcə sağlamlıq baxımından deyil, həm də şagirdlərin gümrah olmasına və dərsi fəal şəkildə izləmələrinə təsir göstərir. Müəllimin görünüşü, geyiminin nizamlı olması, saç, saqqal və dırnaq təmizliyinə riayət etməsi, bu xüsusiyyətləri şagirdlərə mənimsətmək və onlara yaxşı nümunə olmaq baxımından vacibdir.

***Tədris avadanlıqları.*** Sinif otaqları tədris üçün zəruri olan müasir təlim avadanlıqları ilə təchiz olunmalıdır. Təlim avadanlıqlarının, texniki vasitələrin, həmçinin inventar və avadanlıqların inventarlaşdırılması, müəllimlərin iştirakı ilə məktəbin rəhbərliyi tərəfindən həyata keçirilir, sinfin pasportu yaradılır, sinif otağının divarından asılır və məsul şəxs kimi bunların qorunması və

düzgün istifadəsinə nəzarət sinifdə dərs deyən müəllimlərə həvalə olunur. Sinif otaqlarında aşağıda göstərilən avadanlıq və əşyaların olması vacibdir:

– lövhə ( markerlər, silgi);

– cədvəllər, tablolar, plakatlar;

– əyani vəsaitlərin nümayişi üçün cihazlar;

– kitab rəfləri;

– müəllimin işləməsi üçün zəruri avadanlıqlar;

– TTV (kompüter, DVD, proyektor);

– pərdə, güzgü (şagirdlərdə mənlik şüurunu inkişaf etdirir), saat;

– aşağı sinif şagirdləri üçün ayaqaltı dayaq və s.

***Sinfin görünüşü və rəngi.*** Sinif otağı - əyani vəsait, tədris avadanlığı, mebel, texniki təlim vasitələri ilə təchiz edilmiş və təlim-tərbiyə prosesini təmin edən yerdir (otaqdır). Müəllimlərin zövqlərindən asılı olmayaraq otaqlar sadə tərtib olunmalı, fənnin səmərəli tədrisini təmin etməlidir. Mebel və divar rənglərinə, pəncərələrin geniş olmasına, pərdələrin işlək vəziyyətdə olmasına diqqət yetirmək lazımdır. Sinif otaqlarının tərtibatı zamanı şagirdlərin diqqətini yayındıra biləcək parlaq rənglərdən, kəskin formalardan, xırda detallı kompozisiyalardan istifadə edilməsi arzuolunmazdır. Rənglər şagird psixologiyasına və davranışına böyük təsir göstərir. Hər rəngin özünəməxsus xüsusiyyəti var:

– qara rəng - gücü ifadə edir amma həm də depresiyaya səbəb ola bilər.

– mavi rəng - sakitləşdirici və rahatlaşdırıcı təsir göstərir.

– yaşıl rəng - insan psixologiyasını dincəltmək, rahatlaşdırmaq və normallaşdırmaq xüsusiyyətinə malikdir.

– sarı rəng- insanın zehnini açır və yaddaşı gücləndirir. Günəşin rəngi olduğu üçün insana pozitiv enerji ötürmək xüsusiyyətinə malikdir.

– qırmızı rəng - stimullaşdırıcı rəngdir. Fəallaşdırır, həvəsləndirir və ruhlandırır. Bu rəngin, qan dövranını və təzyiqi yüksəltdiyi düşünülür.

– çəhrayı rəng - qırmızıya nisbətən daha mülayim rəngdir. Rahatlıq və xoşbəxtliklə assosiasiya olunur.

– ağ rəng - neytrallığı simvolizə edir. Böyük məkanlarda istifadə edildikdə sterillik təsiri bağışlayır.

Mütəxəsislər, aşağı siniflər üçün sinif otaqlarında sarı və çəhrayı, yuxarı siniflər üçün isə mavi və yaşıl rəngin çalarlarından istifadə etməyi məsləhət görürlər.

Səs-küy narahatlıq yaradan, dinləməni əngəlləyən, diqqəti dağıdan, fiziki və zehni sağlamlığı pozan bir faktordur. Sağlam ünsiyyət və sağlam təhsil üçün sakit bir mühit olmalıdır. Səs-küylü sinifdə şagird, deyilənləri ya səhv ya da natamam başa düşə bilər. Müəllimin dediklərini təkrarlaması isə vaxtın səmərəli istifadəsinə mənfi təsir göstərə bilər. Səs artdıqca müəllim də istər-istəməz səs tonunu qaldırmağa məcbur olur. Sinifdəki səs-küyü azaltmağın başlıca yolu sinif qaydalarına riayət etməkdir.

Sinifdənkənar səs-küyün qarşısını almaq daha çətindir. Buna görə də məktəbin tikintisi zamanı müvafiq tədbirlər görülməlidir. Sinif otaqlarının tərtibatı zamanı səs keçirməyən divarlar və qapılar nəzərdə tutulmalıdır.

Sinfin və təlimə ayrılan vaxtın səmərəli idarə olunması, şagird davranışının idarə olunması, davranışın monitorinqi və şagirdin yanlış davranışına verilən reaksiyalar vasitəsilə intizamsızlığın aradan qaldırılması, fiziki məkanın təşkili, sinif otağının təşkilinin təlimə təsiri məsələləri aşağıdakı kimi təsnif edilir:

– İntizam problemlərinin həllində ailə-məktəb-müəllim əməkdaşlığının yaradılması zəruridir.

– Məktəb rəhbərliyi müəyyən dövrlərdə şagirdlərə və onların valideynlərinə seminar və konfranslar vasitəsilə nizam-intizam və yeniyetmə psixologiyası barədə məlumat verməlidir.

– Məktəblərdə şagirdlərə və müəllimlərə kömək edə biləcək peşəkar məsləhətçilərin və ya psixoloqların olması həm müəllimlərin həm də şagirdlərin zehni sağlamlığı üçün faydalı ola bilər.

– Sinif idarəçiliyi və liderlik mövzusunda konfrans və seminarlarda iştirak etməklə müəllimlər, sinfin idarəolunması baxımından faydalı məlumatlar əldə edə bilərlər.

– Mobil telefonlar və sosial media asılılığı kimi dövrün gətirdiyi problemlərin həlli üçün şagirdlərin diqqətini fərqli fəaliyyət sahələrinə yönəltmək və onlarda kitab oxumaq vərdişini formalaşdırmaq üçün müxtəlif layihələr hazırlamaq məqsədəuyğun sayılar.

– Müəllimlərə şagirdləri tanıma, tədris avadanlıqlarından istifadə, şagirdlərlə ünsiyyət qurma, şagirdlərin Yanlış davranışına müvafiq reaksiya verə bilmə və bu davranışların qarşısını alma, sinifdə baş verən hər şeydən daim xəbərdar olma imkanı verilməlidir.

– Sinfin geniş və təmirli olması, rənglərin bir-birilə ahəng təşkil etməsi şagirdlərin motivasiyasının yüksəldilməsinə müsbət təsir göstərəcəkdir.

– Müəllimlər səmərəli tədris mühiti yaratmaq üçün sinifdəki səs-küyü aradan qaldırmalıdırlar.

**Ədəbiyyat**

1. “Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” // Xalq qəzeti, 25 oktyabr 2013-cü il.

2. Mehrabov A., Abbasov Ə., Zeynalov Z, Həsənov R. Pedaqoji texnologiyalar. Bakı: Mütərcim, 2006.

3. Mehrabov A.O. Müasir təhsilin metodoloji problemləri. Bakı: Mütərcim, 2012.

4. İsmixanov M.A. Pedaqogikanın əsasları. Bakı: ADPU, 2012

5. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. Pedaqoji universitetlərin və ali pedaqoji məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı: Nurlan, 2007. 464 səh.

6. İbrahimov F., Hüseynzadə R. Pedaqogika: 2 clilddə. I cild. – Bakı: Mütərcim, 2012, 706 s.

7. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı: Maarif, 1991, səh.291.

8. İsmixanov M.A. Dərsdə şagirdlərin idrak fəaliyyətinin və yaradıcı müstəqilliyinin artırılması yolları// Azərbaycan məktəbi. Bakı, 1983, №7, s.21-27

9. Əhmədova M., Əliyev M., Qasımlı M. və b. Müəllim hazırlığının və orta təhsilin yeni perspektivləri (Qərb təhsil sisteminin təcrübəsi əsasında) Bakı, Adiloğlu, 2006, səh.22-53.

10. Təhsil və insan inkişafı. Fəsil 5. BMT-nin İnkişaf proqramı (United Nations Development Programme) URL: https://www.undp.org/content /dam

/azerbaijan/docs/publications/sustainabledevelopment/HDtextbook /5.pdf (instinad tarixi 07.02.2020)

11. Дидактика средней школы. Под редакцией М.А. Данилова и М.Н.Скаткина М.: Педагогика, 1982. стр.102.

12. 1.3 billion learners are still affected by school or university closures, as educational institutions start reopening around the world, says UNESCO. https://en.unesco.org/news /13-billion-learners-are-still-affected-school-university-closures-educational-institutions

13. WDR 1998/99. Knowledge for Development. Chapter Overview. Oxford University Press: Washington DC, 1999

14. Creating Effective Teaching and Learning Environments: First Results from TALIS (Executive summary). OECD 2009.

15. Effect of Classroom Learning Environment on Students' Academic Achievement in Mathematics at Secondary Level. Bulletin of Education and Research. August 2018, Vol. 40, No. 2 pp. 207-218.

16. 50 Activities for Developing Critical Thinking Skills by Dr. Marlene Caroselli. Amherst, Massachusetts: HRD Press, 2009. 300 p.

17. 8 Active Learning Strategies and Examples. URL: https://www. prodigygame.com/ blog/active-learning-strategies-examples/

18. Examples of Active Learning Activities. URL:https://www. queensu. ca/teachingandlearning/modules/active/12_exmples_of_active_ learning_ activities.html

19. The Characteristics Of A Highly Effective Learning Environment. https://www.teachthought.com/learning/10-characteristics-of-a-highly-effective-learning-environment/

20. What Makes a Good Learning Environment. URL: https://raccoon gang.com/blog/what-makes-good-learning-environment/

21. The psycho-social school environment. URL: https://learningportal. iiep.unesco.org /en/issue-briefs/improve-learning/schools-and-classrooms /the-psycho-social-school-environment

22. School-to-School International (STS) is committed to improving the lives and learning of girls and boys worldwide through thoughtful research, practice, and partnership. URL: https://sts-international.org/

23. Arends, I.R. Learning to Teach, New York: McGrow-Hill Inc. 1991

24. Burden, P. E. Classroom Management and Discipline, Methods to facilitate Cooperation and Instraction, USA: Longman Publishers. 1995

25. Evertson, C. M., & Weinstein, C. S. Classroom management as a field of inquiry. (Ed: C. M. Evertson & C. S. Weinstein), Handbook of Classroom Management: Research, Practice, and Contemporary Issues. Mahwah, NJ: Lawrence Erlbaum Associates, Inc. 2006

26. Harris, A. Proactive Classroom Management: Several Ounces of Prevention, Contemporary Education, 1991, 62 (3), 56-160.

27. Hull, J. Classroom Skills, A Teacher Guide, London: David Fulton Publishing. 1990.

28. Giallo, R., & Little, E. Classroom Behavior Problems: The Relationship Between Preparedness, Classroom Expreriences, and Self-Efficacyin Graduate and Student Teachers. Australian Journal of Educational & Developmental Psychology, 3, 21-34. 2003.

29. McLeod, J.; Fisher, J. & Hoover, G. The key elements of classroom management: Managing time and space, student behavior, and instructional strategies. Virginia, USA: Association for Supervision and Curriculum Development. 2003 .

30. Ryan, A.L., Halsey, H.N., & Matthews, W.J. Using Functional Assessment to Promote Desirable Student Behavior in Schools. Teaching Exceptional Children. 2003, 35 (5), 8-15.

31. Watson, M. Approaches to behavior and classroom management: integrating discipline and care. Journal of Moral Education. 2010, 39 (4), 524-526.

32. Wragg, E. Parent's Guides to the National Curriculum, London. Addison Wesley Longman. 1996.

33. Woolfolk, A. Educational Psychology, Boston: Allyn and Bacon Publishing. 1995.

34. Воспитательная система класса: Методическое пособие/ Под ред. Е.Н. Степанова. – Псков, 1998. 122с.

35. Рожков М.И., Байбородова Л.В. Организация воспитательного процесса в школе: Учебное пособие для студентов высш. учеб. заведений. М.: Гуманит. изд. центр ВЛАДОС, 2001. 256с.

## 3. ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ÖYRƏNMƏ MÜHİTİNİN KOORDİNASİYALAŞDIRILMASI İŞİNİN TƏŞKİLİ

### Giriş

Təlim-tərbiyə cəmiyyətin inkişafına təkan verən əsas amillərdən biri olmaqla şəxsiyyətin formalaşmasının əsasını təşkil edən pedaqoji prosesdir. Bu prosesdə əldə olunan nəticələr onun necə təşkilindən və idarə olunmasından asılıdır. Başqa sözlə, qarşıya qoyulan məqsədlərin reallaşdırılması idərəedənlərin öz vəzifə borclarını necə yerinə yetirdiyinin və peşəkarlığının göstəricisidir.

Məktəb rəhbərliyi idarəetmədə məsuliyyətin bölüşdürülməsi prinsipinə uyğun fəaliyyət göstərir, pedaqoji idarəetmə prinsipləri çərçivəsində pedaqoji prosesi tənzimləyərək həyata keçirir. Ümumtəhsil məktəblərinin idarəolunmasında keyfiyyətin yüksəldilməsi üçün əsasən bir sıra məsələləri diqqət mərkəzinə çəkilir. Bura məktəbi idarə edənlərin:

- funksiya və vəzifə borclarını yerinə yetirmə məsuliyyəti;
- pedaqoji idarəetmədə peşəkarlığı və səriştəsi;
- şəxsi keyfiyyətləri; daxildir.

Təlimin keyfiyyəti, qarşıya qoyduğu vəzifələrin və prinsiplərin həyata keçirilməsi, təlim-tərbiyə prosesinə təsir edən amillərdən və şərtlərdən, məhz öyrədici mühitdən əhəmiyyətli dərəcədə asılıdır. Şagirdi əhatə edən şəraitin onun dərk etmək tələbatına, maraq və ehtiyaclarına istiqamətlənməsi və uyğunlaşdırılması öyrənməni asanlaşdırır, təlim-tərbiyənin səmərəliliyini artırır, məqsədlərin, fəaliyyət planının reallaşdırılmasına, tədris proqramlarının yerinə yetirilməsinə imkan yaradır.

J.J.Russonun fikrincə, təlimin səmərəli təşkil olunması məqsədilə şagirdlərin ehtiyac və potensial imkanlarını balanslaşdırmaya malik xüsusi təlim mühiti yaratmaq lazımdır. Şəxsiyyətin inkişafı üçün ətraf mühit amili

xüsusi əhəmiyyətə malikdir. Fikrimizcə, J.J.Russonun nəzərdə tutduğu mühit məhz öyrədici mühitdir.

**Öyrənmə mühitində tədris işlərinin koordinasiyalaşdırılması.** Öyrənmə mühiti dedikdə, necə bir mühit nəzərdə tutulur?

Öyrədici mühit təlimin dörd tərkib hissəsindən biridir. Təlim şagirdlərin bilik, bacarıq, vərdiş və dəyərlərə yiyələnməsinə xidmət edən pedaqoji prosesdir. Bu prosesin tərkibinə: məzmun, metodlar, öyrədici mühit və qiymətləndirmə komponentləri daxildir. Həmin komponentlərə ayrı-ayrılıqda deyil, kompleks yanaşmaqla keyfiyyətli təlim əldə olunur və iki başlıca məqsədə:

– idrak prosesləri ilə bağlı bilik, bacarıq və vərdişlərinin inkişafına;

– şagird şəxsiyyətinin sosial-psixoloji və emosional-iradi keyfiyyətlərinin inkişafına nail olunur (sxem 1).




Sxem 3.1.

Öyrənmə üçün ən əlverişli mühit məktəbdir, öyrənmə mühitinin təşkili məktəbi idarəedənlərdən, xüsusən direktor və onun müavinlərinin fəaliyyətindən asılıdır. Bu mənada öyrənmə mühitinin təşkil olunması və koordinasiyalaşdırılması təhsilin keyfiyyətini təmin edən başlıca amildir. Təhsil özü keyfiyyət prosesi olub öyrənənlərin neçə il oxuması ilə deyil, öyrəndiklərinin onun və ətrafındakılarının həyatı üçün faydalılığı ilə dəyərləndirilir. Öyrənmə mühitinin formalaşdırılmasında məktəbi idarə edənlərin rolu danılmazdır.

Ümumi təhsil müəssisələrində təlim-tərbiyə və tədris işlərinin planlaşdırılmasını, dərs yükünün bölüşdürülməsini, dərs cədvəlinin tərtib və təsdiq edilməsini, şagirdlərin bilik səviyyəsinin yüksəldilməsi ilə bağlı işləri, müəllimlərə təhsillə bağlı innovasiyaları, yeni təlim texnologiyalarını direktorun təlim-tərbiyə işləri üzrə müavini koordinasiya edir. Açıq və ya ustad dərslər, eksperimental işlərin təşkili də bilavasitə direktor müavinlərinin vəzifə borcu sırasına daxildir.

Direktor müavini öyrənmə mühitinin koordinasiyalaşdırma işinin təşkilindən bəhs edərkən bu məqamları diqqət mərkəzində saxlamalıdır.

– öyrənmə mühitinin plan üzrə təşkili;

– tədris proqramlarının yerinə yetirilməsi işinə nəzarət;

– metodik işlərin təşkili və koordinasiyası;

– dərsdənkənar məşğələlərin koordinasiyası;

– şagirdlərin meyl və maraqları nəzərə alınmaqla siniflərin komplektləşdirilməsi;

– şagird nailiyyətlərinə nəzarət, monitorinq və qiymətləndirmənin aparılması.

Təlim-tərbiyə işləri üzrə direktor müavini fəaliyyət planını yuxarıda göstərilən mərhələlərlə təşkil edərsə, öyrənmə mühitinin ugurlu koordinasiyalaşdırılması ilə yanaşı, məktəbdə təhsilin keyfiyyətinin yüksəldilməsini də təmin edər. Təhsilin uzunmüddətli inkişafa təsirinə dair məsələlər təhsil siyasətinin formalaşdırılması, idarə olunması və dəyişən şəraitə adaptasiyası zamanı daim nəzarətdə saxlanılmalıdır. Məktəb direktorunun müavini də təlim-tərbiyənin koordinasiyalaşdırmasını həyata keçirərkən bu dəyişməni dövrün və cəmiyyətin, təhsil sifarişçilərinin tələblərinə çevik uyğunlaşdırma qabiliyyətinə malik olmalıdır.

Öyrədici təlim mühiti, şagirdlərin təlim fəaliyyətlərini həyata keçirdikləri fərqli fiziki yerlər, mühitlər və mədəniyyətlərdir. Tədris mühiti məktəbdaxili və məktəbdən kənarda bilik, bacarıq və vərdişlər əldə etməyə nail olunan müxtəlif mühit kimi xarakterik olmaqla bərabər, məktəb və ya sinif mədəniyyətini, ortaq dəyər və inanc sistemini və ya "ruhu", insanların bir-birləri ilə davranışlarını, münasibətlərini, rəftarını formalaşdıran və öyrənməyi asanlaşdırmaq üçün təşkil olunur.

**Təlimin planlaşdırılması və təşkili, tədris proqramlarının yerinə yetirilməsi.** Təlim proqramlarının yerinə yetirilməsi vəziyyəti, müəssisədə təlim-tərbiyə işinin təşkili, ümumi təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarına uyğunluğunu qiymətləndirmək üçün akkreditasiya komissiyasının fəaliyyət istiqamətlərinə daxil olan məsələlərdəndir. Bu amillər təhsilin keyfiyyətinin yüksəldilməsi dinamikasını müəyyən edir.
Z.Veysovanın tədqiqatlarında təlim modeli belə bir sxemlə verilir (sxem 3.2.):




Sxem 3.2.

Sxemdə öyrənmə mühitinin təlimin təşkilində rolunun əhəmiyyəti aydın əks olunur. Öyrənmə mühitinin məzmun, metod, qiymətləndirmə ilə əlaqəsi, həmçinin şəxsiyyətin inkişafı ilə bağlılığı təsvir olunur. Təhsilin məzmunu təhsilalanın və cəmiyyətin tələbatına, dövlətin təhsil siyasətinə uyğunlaşdırmağı nəzərdə tutur. O cümlədən, nəticəyönümlülük, şəxsiyyətyönümlülük, şagirdyönümlülük, inteqrativlik prinsipləri əsasında müəyyənləşdirilir. Təhsilalanların təlim marağını, potensial imkanlarını, sağlamlığını, təhlükəsizliyini nəzərə almaqla onlara davamlı inkişaflarını təmin edən, mustəqil həyatda lazım olan zəruri biliklərin və əqli, informativ-kommunikativ, psixomotor bacarıqların aşılanmasını təmin etmək məqsədi daşıyır.

Müasir informasiya cəmiyyətində modernləşdirilmiş məktəb modelinin ən əsas formalarından biri məktəbdə yaradılan mühitdir. Məktəbin müasirləşdirilməsi birinci növbədə orada müasir, əlverişli mühitin yaradılmasından başlanır. Direktor, təlim-tərbiyə işləri üzrə direktor müavini, sinifdənxaric və məktəbdənkənar işlər üzrə təşkilatçı, təsərrüfat işləri üzrə direktor müavini, sinif rəhbəri, praktik psixoloq, sosioloq, valideyn, uşaq birliyinin rəhbəri, kitabxanaçı, müəllimlər birlikdə bu mühiti yaradır. Bu zaman şagirdin elmi

bilikləri, həyat bilgiləri, ictimai-sosial anlayışları, məntiqi təfəkkürü, tətbiqetmə bacarığı və təqdimetmə qabiliyyəti formalaşa bilər.

Təlim-tərbiyənin eyni mühitdə fərqli xarakterli, fərqli intellekt və potensiala malik şagirdlərin eyni mühitlərdə çox fərqli yollarla, metodlarla öyrənmə imkanları təmin olunur. Şagirdlər öyrənmə prosesini yerinə yetirdikləri üçün əsas məqsəd şagirdlərin öyrənmə qabiliyyətinin optimallaşdırılmasına yönəlir. Təlim-tərbiyə işləri üzrə direktor müavini məktəbdə və dərsdənkənar məşğələlər də daxil olmaqla öyrənmə mühitində fəaliyyət planında nəzərdə tutulan işi təşkil edir və koordinasiyalaşdırır. O cümlədən, tədris proqramlarının yerinə yetirilməsinə nəzarət edir.

Təlim-tərbiyə işləri üzrə direktor müavinin fəaliyyət planında tədris işinin koordinasiyalaşdırılması ən yaradıcı və səriştə tələb edən məsələlərdəndir. Planlaşdırılma zamanı nəticəyönlülük, inkişafyönlük, məqsədlərin dəqiqliyi, optimallıq, əhatəlilik, icraya nəzarət kimi prinsiplərə əməl olunması mütləqdir. Öyrənənlər üçün tam bir təhsil mühitinin yaradılması məktəbin mühüm vəzifələri sırasındadır. Sinif otaqları, laboratoriyalar və ya fərdi onlayn tədris mühitini yaratmaq üçün istifadə olunan texnologiyalar fiziki təlim mühitlərinə aiddir. Effektiv təlim mühitinin elementlərini yaradarkən təlim-tərbiyə işləri üzrə direktor müavini bunları nəzərə almalıdır:

– təlim və tədris məqsədlərini;

– tədris proqramlarının məzmunu;

– öyrənənlərin xüsusiyyətlərini;

– öyrənməyə ən yaxşı dəstək verən fəaliyyətləri;

– öyrənməyi ən yaxşı şəkildə ölçmək və istiqamətləndirmək üçün qiymətləndirmə strategiyalarını;

– öyrənmə mühitində təlim materialının mənimsənilməsini təmin edəcək mədəniyyəti.

Tədris mühitinin modelini yaratmaq məqsədilə etik davranış, institusional amillər və ya xarici akkreditasiya kimi tədris mühitinə təsir edəcək digər amillər də nəzərə alınmalıdır. Məktəb mühitininn zənginləşdirilməsi vacib amillərdəndir. Şagird öyrəndiyini tətbiq etmək üçün şərait axtarır. Bu mənada laboratoriya, fənn kabinetləri, təcrübə sahələri, biliklərini nümayiş etdi-

rən digər şəraitin yaradılması öyrənmə mühitinin zənginləşdirilməsinə xidmət edir. Məktəbdə öyrənmə mühiti yaratmaq və təhsil standartlarının tələblərinə uyğunluğun nəticə əldə etmək xüsusi nizam-intizamdan və qaydaların tətbiqindən asılıdır. Bu mənada məktəbdə təlim-tərbiyənin düzgün təşkili məktəbi idarəedənlərin vəzifə borcları sırasına daxil olan əsas məsələlərdəndir (sxem 3.3).




Sxem 3.3.

**Metodik işlərin və dərsdənkənar məşğələlərin öyrənmə mühitini koordinasiyalaşdırma**. Müasir məktəbə ayrı-ayrı sahələrdən ibarət vahid sosial pedaqoji sistem kimi baxılır. Bu sistem məktəbin daxilində təşkil olunur və xarici mühitlə də müəyyən əlaqədədir. Öyrədici mühit elə təşkil olunmalıdır ki, tədrisin real həyatla əlaqəsi başa düşülsün, uşaqlar həm tədris, həm də sosial xarakterli problemlərin müstəqil həllinə cəlb olunsun, müxtəlif informasiya mənbələrindən istifadə edə bilsin, sistematik olaraq müstəqil şəkildə bilik ehtiyatını artıra bilsin. Burada həm təhsilverənin, həm də təhsilalanın təhsil ehtiyaclarının ödənilməsinə xidmət edən mühit nəzərdə tutulur. Təhsilverənlər üçün metodik işin koordinasiyalaşdırılması onların fəaliyyətinin uğurlu olmasına təkan verir.

Metodik işin məzmunu “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunu, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”, normativ sənədlər, məktəbin inkişaf proqramı, “Ümumtəhsilin dövlət standartları”, bazis tədris planı kimi təhsil sənədlərinə əsaslanır. Pedaqoji-psixoloji tədqiqatların nəticələr, innovasiyalar, təlim-tərbiyə prosesinin mövcud vəziyyətinin diaqnostikası və proqnozlaşdırılması, təlimin səviyyəsi, uşaqların tərbiyəsi və inkişafı məsələləri də metodik işin məzmununa daxildir. Təlim-tərbiyə işləri üzrə direktor müavini metodik xidmətin koordinasiyalaşdırılması zamanı əsasən bir neçə məsələni diqqətdə saxlayır.

– pedaqoji və metodiki yanaşmaların qabaqcıl nəzəriyyələrə uyğunluğu;

– daxili öyrənmə mühiti ilə əlaqə;

– öyrənmə mühitində pedaqoji kollektivin peşəkarlığının yüksəldilməsi;

– müəllimlə fərdi və kollektiv işin təşkili.

Təlim-tərbiyə işləri üzrə direktor müavinin koordinasiyalaşdırma işinin planlaşdırılmasında bir sıra məsələlər öz əksini tapır:

– Metodik sənədlərin hazırlanması: a) tədris planı planlaşdırma, məktəb kurikulumu, təlim prosesinin idarəedilməsi və təşkilinə aid metodik tövsiyələr, b) elmi-metodik iş; eksperimental materialın işlənməsi, anket sorğusu, müxtəlif vəziyyətlərdə (sərgi, müsabiqə, baxış və s.) məktəblilərlə aparılan diaqnostik işin metodikası;

– Audio və videoyazının hazırlanması: audio və video dərsləri hazırlanması;

– Qabaqcıl təcrübənin öyrənilməsi və yayılması: a) beynəlxalq və qabaqcıl təcrübəni öyrənən yaradıcı qrupla iş; b) şəxsi təcrübənin yayılması; c) innovasiyalı fəaliyyətə aid təcrübə, nəticənin formalaşdırılması üzrə ustad-dərs (məruzə, broşura, məqalə, monoqrafiya, prezentasiya) pedaqoji şurada çıxış, pedaqoji lektoriya, yaradıcı müəllimlərlə görüş, innovasiyalı təcrübənin öyrənilməsi və yayılması.

– Müəllimin peşəkarlığının yüksəldilməsi: “açıq dərslər”, “dəyirmi masa”, seminar, layihələr üzrə təqdim olunmuş müsabiqələrdə dərslik və müəllim üçün vəsaitlərin yazılmasında iştirak və s.

– Müəllimlərin fərdi istəkləri nəzərə alınmaqla məktəbdə vahid metodik təminat modeli yaradıla bilər. Bura elektron resurslar da daxildir. Vahid metodik təminat üzrə məzmun nümunə xarakteri daşımaqla müxtəlif formada təşkil oluna bilər.

Təlim-tərbiyə işləri üzrə direktor müavininin koordinasiyalaşdırma işinin tərkibinə daxil olan məsələlər sırasında dərsdənkənar məşğələlərin cədvəlləşdirilməsi və təşkili də daxildir. Ümumtəhsil məktəbində təhsil prosesi Əsasnaməyə uyğun olaraq öyrədici, tərbiyəedici və inkişafetdirici xarakter daşıyır. Mülkiyyət formasından asılı olmayaraq, bütün ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesi dövlət standartlarına uyğun hazırlanmış müvafiq təhsil proqramları *(kurikulumları)* əsasında həyata keçirilir. Pedaqoji prosesin "müəllim-şagird" əməkdaşlığı üzərində qurulması, müasir təlim strategiyalarının və çevik qiymətləndirmə mexanizmlərinin məqsədyönlü tətbiqi, şagirdlərin informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmələri təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsində başlıca istiqamətlərdən hesab olunur. Ümumtəhsil məktəbində dərslər və dərsdənkənar məşğələlər direktor tərəfindən təsdiq olunmuş cədvəl üzrə aparılır.

Müasir pedaqoji idarəetmə metodları şagirdi dövrün tələblərinə uyğunlaşa biləcək bir şəxsiyyət kimi formalaşdırmaqdan əlavə, qarşımızda bir çox vəzifələr qoyur. Çünki məktəb şagirdin müxtəlif yaş dövrlərinə uyğun olaraq təlim-tərbiyə sistemini həyata keçirir. Məktəbdə fəaliyyət göstərən dərnəklər bu prosesin uğurla nəticələnməsinə zəmin yaradır. Şagird hər zaman fikirlərini tətbiq edəcəyi mühit axtarır və uğurlu nəticəni əldə edərək daha da motivasiya olur. Dərnəklər bir növ şagirdin asudə vaxtının səmərəli istifadəsində faydalı olur. Əlavə təhsil və ya məşğələlər məktəblilərin dünyagörüşünün artırılmasına, eyni zamanda yaradıcı qabiliyyətlərinin genişlənməsinə xidmət edir.

Tədris planında nəzərdə tutulmuş fənlərin məzmununda və dərsdənkənar məşğələlərdə əmək bazarında ehtiyac duyulan praktik bacarıqların inkişaf etdirilməsinə, seçilmiş peşə üzrə səriştələrin təkmilləşdirilməsinə yönəlmiş təlimlər, tam orta təhsil səviyyəsində peşə təmayüllü siniflərin təşkilinə, ümumi təhsil müəssisələri ilə peşə təhsili müəssisələri arasında əməkdaşlıq layihələrinin icrasına yönəldilmiş tədbirlər daxildir.

Beləliklə, öyrədici mühitin təşkilinə əsas yanaşma aşağıdakılardan ibarətdir:

– bilik prosesinə müsbət münasibət, yeni biliklərin aşkar edilməsi, mənimsənilməsi və tətbiqi üçün münasib şəraitin yaradılması;

– şagirdin bilik əldə etmək, ünsiyyətdə, qarşılıqlı əlaqədə olmaq və əməkdaşlıq etmək imkanlarını genişləndirmək;

– şəxsiyyətin inkişafı üçün imkanları artırmaq.

Ümumtəhsil məktəbində təlim-tərbiyə işləri planlaşdırılarkən, şagirdlərin meyl və marağına uyğun dərnək və məşğələlərin, elmi cəmiyyətlərin hazırlanması, təmin olunması ilə yanaşı, şagirdlərin təşkilatlanmasını, onlarda icraçılıq, təşkilatçılıq və ilkin idarəetmə bacarıqlarının formalaşmasını təmin etmək məqsədi ilə birliklər, eləcə də qanunvericilik əsasında fəaliyyət göstərən uşaq və gənclər təşkilatlarına da ehtiyac yaranır.

**Təlim-tərbiyə işləri üzrə direktor müavininin öyrənmə mühitini koordinasiyalaşdırma işinin təşkili.**

Təlim-tərbiyə işləri üzrə direktor müavini öyrənmə mühitinin koordinasiyalaşdırılması zamanı sxemdə göstərilən normativ-hüquqi sənədlərə əsaslanmalıdır (Sxem 3.4.).

Qabaqcıl dünya təcrübəsinə və aparılan pedaqoji tədqiqatlara istinadən ölkə təhsilində təlim-tərbiyə işləri üzrə direktor müavininin öyrənmə mühitində koordinasiyalaşdırma işinin təşkilinə yeni yanaşmalar nəticəsində müəyyən uğurlar əldə olunmuşdur. Bu nəticələrə əsasən demək olar ki, məktəbin idarə olunmasında təlim-tərbiyə işləri üzrə direktor müavininin koordihnasiyalaşdlrma işinin modern iş forması və metodları hazırlanır. Modernləşdirilmiş məktəb modeli müasir, əlverişli öyrənmə mühiti yaradılır.

Öyrənmə mühiti şagirdlərin bilik, bacarıq, vərdiş və dəyərlərə çevrilə bilən proses əldə edilir. Təlim prosesi pedaqoji prosesin tərkib hissələrindən biri olan öyrənmə mühitnə səriştəli şəkildə yanaşmaqla təlim əldə olunur. Burada idrak proseslərinin və vərdişlərin inkişafı əsas götürülür. Şagird şəxsiyyətinin sosial-psixoloji və emosional-iradi keyfiyyətlərinin inkişafına nail olunur.




**Sxem 3.4.**

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. 24 oktyabr 2013-cü il tarixli 13 nömrəli Sərəncamla təsdiq edilmişdir // "Azərbaycan müəllimi"qəz., – 2013. 25 oktyabr, – s. 2

2. Azərbaycan Respublikasının Təhsil müəssisələrinin fəaliyyətinin Dövlət Standartlarının tələblərinə uyğunluğunu müəyyənləşdirən meyarlar. 26 aprel 2011–ci ildəqəbul edilmişdir.https://edu.gov.az/upload/file/emre-elave/26_04_11 -elave656.pdf

3. Azərbaycan Respublikasının ümumtəhsil məktəblərinin Nümunəvi Nizamnaməsi.13 yanvar 2011 ci ildə qəbul edilmişdir.// – Bakı: Təhsil xəbərləri, 2011. № 1, – s. 15-35

4. "Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartları və proqramları". 26 aprel 1999- cu ildətəsdiq edilmişdir// "Azərbaycan müəllimi" qəz., 1999. 13 may, s. 2

5. Azərbaycan Respublikasının Təhsil Nazirinin Təhsilin təmayüllər üzrə təşkil olunacağına əmr 4 iyul 2011-ci il tarixli, 1199 nömrəli əmri https://aztehsil.com/hn/716-tmayllr-zr-tkil-olunduu-pilot-mktblrin-tdrs-planlar.htm

6. “Ümumi təhsil müəssisələrində peşəyönümlü xidmətin həyata keçirilməsi Qaydası” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 may tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmişdir

7. “Təhsil haqqında”Azərbaycan Respublikasının Qanunu. 10 iyun 2009-cu ildə qəbul edilmişdir // Təhsil xəbərləri, – 2009.№ 6, – s. 15-35

8. Bayramov Ə.Ə. Gənclik və özünütərbiyə haqqında söhbət. – Bakı,1969.

9. Cavadov İ. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə Azərbaycan müəllimi.- 2014.- 30 may.- S.8.

10. Qaralov Z.İ. Tərbiyə 3 cilddə, 2-ci cild. – Bakı, 2003, 12-31; s.197-203

11. Həmzəyev M.Ə. Pedaqogika. – Bakı, Nurlan, 2006.

12. Mərdanov M., Ağamalıyev R., Mustafayev İ. ABŞ təhsil sistemi idarəetmə kontekstində. Bakı, 2001

13. Mərdanov M., Ağamalıyev R., Mehrabov A., Qardaşov T. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı, Çaşıoğlu, 2000

14. Əmiraslanova S.F. “Çətin” uşanlar və onlarla aparılan işin psixoloji xüsusiyyətləri. – Bakı, 2000.

15. Əhmədov İ. Təhsilin informatlaşması pedaqoji elmin yeni sahəsidir. Azərbaycan müəllimi.- 2013.- 15 mart.- S.9.

16. Həsənova S. Beynəlxalq təcrübədə məktəb fəaliyyətinin dəyərləndirilməsi Azərbaycan müəllimi.- 2011.- 4 mart.- S.10-11.

17. Veysova Z. Məcidova Diaqnostik qiymətləndirmənin məlum və naməlum aspektləri. Kurikuluym 2009 №4, s. 30-36.

18. Veysova Z. Fəal (interaktiv) təlim. Müəllimlər üçün vəsait. Bakı, 2007

19. Богословский В.В. Психология и воспитания школьника. https://streetmarket.ru/item/219397603

20. Столренко Л.Д. Психология и педагогика– Москва: Издательство Юрайт, 2019.- 574 с.

21. Кан-Калик В.А. Учителю о педагогическом общении. М., Просвещение, 1987, 207 с.

22. https://www.buqelemun.com/az/2018/yuksek-effektli-oyrenme-muhitinin-xususiyyetleri/

23. https://az.eferrit.com/effektiv-oeyr%C9%99nm%C9%99-muehiti-v%C9%99-m%C9%99kt%C9%99b-secimi/

24. http://azteachers.az/az/node/38

## 4. ÖYRƏNMƏ MÜHİTİNDƏ ŞAGİRDLƏRİN MARAQLARININ VƏ MİLLİ ƏNƏNƏLƏRİN NƏZƏRƏ ALINMASI

### Giriş

Qloballaşma döründə Azərbaycan xalqının adət-ənələrinin, milli-mənəvi dəyərlərin qorunması və təbliği böyük əhəmiyyət kəsb edir. "Bu gün bizim qarşımızda yeni çağırışlar dayanır. Bu gün əsas prioritetlərdən biri Azərbaycanın milli adət-ənənələrinin təmin olunması şərti ilə dünyada gedən proseslərə qoşulması, dünya birliyinə inteqrasiya etməsidir. Biz müxtəlif dövrlərdə başqa-başqa dövlətlərin tərkibində yaşamışıq. Amma öz milli xüsusiyyətlərimizi itirməmişik. Nəyin hesabına? Onun hesabına ki, biz öz ana dilimizi, mədəniyyətimizi saxlaya bilmişik, ədəbiyyatımız inkişaf edib, milli ənənələrimiz qorunub saxlanılıbdır. Budur, hər bir xalqın milli identifikasiyasını şərtləndirən əsas məsələlər" – prezident İlham Əliyevin 2008-ci il iyunun 19-da Azərbaycan Parlamentinin 90 illik yubileyinə həsr olunmuş yığıncaqda söylədiyi bu fikirlər ölkəmizin inkişaf modelini, qlobal dünyaya inteqrasiya yolunu bariz şəkildə ifadə edir.

Dövlət başçısının bu fikirləri məhz Xalq Cümhuriyyətinin yubiley tədbirində vurğulaması təsadüf deyildi. Azərbaycan xalqı müsəlman dünyasında tarixə ilk cümhuriyyəti, demokratik respublikanı vermiş bir xalqdır. Bunca böyük tarixi irsin, milli "mən" və milli şüur təntənəsinin müəllifi olan xalq üçün hazırkı dünyada öz layiqli yerini tapmaq, dünyaya milli-mənəvi dəyərləri, ənənələri ilə inteqrasiya etmək müstəsna əhəmiyyət daşıyır.

Bu gün bütün dünyada qloballaşma prosesi gedir, qlobal inteqrasiya nəhəng coğrafiyaları bir-birinə bağlayır. Bu proseslər fonunda dünyada qabaqcıl yer tutmaq istəyən dövlət özünün iqtisadi, siyasi gücü ilə yanaşı, həm də tarixi, mədəniyyəti, milli irsi ilə tanınmağı bacarmalıdır. Dünya birliyinə inteqrasiya ikitərəfli prosesdir: biz, bir tərəfdən, tarixi irsimizi dünyaya təbliğ ediriksə, digər tərəfdən, dünyadakı dəyərləri əxz edirik. Təəssüf ki, bu zaman qloballaşmanın fəsadlarından yayınmaq mümkün olmur. Xüsusilə informasiya-kommunikasiya texnologiyalarının təsiri altında həyatımıza daxil olan stereotiplər mənəvi dəyərlərin aşınması kimi təhlükələr doğurur.

Azərbaycanın qarşısında duran mühüm məqsədlərdən biri xalqımızın milli "mən"ini dünyaya layiqincə təqdim etmək, mənəvi dəyərlərimizin mütərəqqi dünya dəyərlərilə bitkin sintezinə nail olmaqdır. Bu məqsədə çatmaq üçün başlıca şərtlərdən biri Azərbaycan xalqının tarixi ruhundan, irsindən keçib gələn və bugünkü cəmiyyəti, daha geniş miqyasda isə, dünya azərbaycanlılarını bir arada tuta biləcək mənəvi dəyərlər toplusunun, güclü milli ideyanın mövcud olmasıdır.

Azərbaycançılıq xalqımızın tarixinin dərin qatlarından süzülüb gələn, onun ənənələrini, dəyərlərini, doğma dilini, milli mədəniyyətini özündə əks etdirən məfkurədir. Bu məfkurəni təbliğ etmək mahiyyət etibarilə Azərbaycan xalqının milli-mənəvi irsini, mədəni zənginliyini dünyaya təqdim etmək deməkdir. Lakin onu da nəzərə almaq lazımdır ki, milli-mənəvi dəyərlərin qorunması və təbliği təkcə dövlət institutlarının üzərinə düşən məsuliyyət deyil. Bu məsuliyyətin mühüm hissəsi cəmiyyətin, vətəndaşların, ictimai qurumların, kütləvi informasiya vasitələrinin üzərindədir. Azərbaycan Konstitusiyasında (maddə 40) hər bir vətəndaşın ölkənin mədəni sərvətlərindən istifadə etmək hüququ qeyd olunmaqla yanaşı, bundan irəli gələn məsuliyyəti də əksini tapıb: "Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməlidir".

2001-ci ilin noyabrında Dünya azərbaycanlılarının 1-ci qurultayında Heydər Əliyevin söylədiyi nitq isə Azərbaycan təəssübkeşliyinin proqram tezisləri idi: "Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini itirməsinlər. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq

ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini yaşatmalıyıq".

Çağdaş dövrdə dünyanı tanımaq, dünyada layiqli yer qazanmaq üçün özünü tanıtmağı bacarmaq lazımdır. Bu gün Azərbaycanın milli-mədəni dəyərlərinin beynəlxalq aləmdə təbliği dövlətin diqqət mərkəzindədir.

Təqdirəlayiq haldır ki, bu istiqamətdə qeyri-dövlət xəttilə də mühüm işlər görülür. Azərbaycanın birinci xanımının rəhbərliyi ilə Heydər Əliyev Fondunun gördüyü işlər bu sahədə örnək sayılacaq fəaliyyətlərdir. Azərbaycan muğamının UNESCO-nun dünya mədəni irs xəzinəsinə daxil edilməsi, tarixi abidələrimizin, ədəbiyyatımızın dünyaya tanıdılması hamımızda məmnunluq doğurur.

Milli-mənəvi irsin dünyaya tanıdılması ilə bərabər, onun yad təsirlərdən, aşınmalardan qorunması da bir o qədər əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, bu mühüm prinsip 2007-ci il 23 may tarixdə təsdiq olunmuş "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası"nda da əksini tapıb. Konsepsiyada ölkənin milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri sırasında mədəniyyət və mənəviyyatın qorunması ayrıca bənd olaraq (maddə 4.3.3.) göstərilib. "Mədəniyyət və mənəviyyatın qorunması siyasəti Azərbaycan xalqının mədəni irsinin, maddi və mənəvi dəyərlərinin mühafizəsinə, onun daxili və xarici təhdidlərdən qorunmasına, mütərəqqi beynəlxalq inkişafdan bəhrələnməsinə yönəlmişdir", – deyə sənəddə vurğulanır.

## Öyrənmə mühitində şagirdlərdə maraq və milli-mənəvi dəyərlərin qorunmasında məktəb psixoloqunun rolu

Azərbaycan xalqının milli-mənəvi irsini öyrənmək və təbliğ etməklə yanaşı, onun mühafizəsini də ölkəmizin milli təhlükəsizliyinin mühüm istiqaməti kimi diqqətdə saxlamaq gərəkdir.

Təhsil prosesində, öyrənmə mühitində yuxarıda qeyd edilən məsələlərin təməli qoyulur. Sağlam təməl üzərinə inşa edilən dəyərlər sarsılmaz olacaqdır. Məktəblini əhatə edən mühit bu standartları psixoloji akpektdən

dəstəkləməlidir – məktəbli forması, məktəbin və sinif otaqlarının dizaynı, kitab və digər dərs ləvazimatları, tənəffüs zamanı səslənən zəng səsi, dinlənilən musiqilər və s.

Gənclərimizi düzgün istiqamətə yönəltmək, mənəvi tərbiyə aşılamaq, ailələrin, təhsil müəssisələrinin qarşısında duran əsas vəzifələrdəndir. Bu baxımdan xüsusilə ziyalıların bu sahədə dəstəyi danılmazdır. Kütləvi informasiya vasitələrinin, televiziya-radionun təsir dairəsi, tərbiyəvi rolu böyükdür və dəstəkləyici mövqe daşımalıdır (ailələrdə və təhsil müəssisələrində verilən dəyər tərbiyəsinin əksini nümayiş etdirməməlidir).

***Öyrənmə mühitində şagirdlərdə maraq və milli-mənəvi dəyərlərin qorunmasında məktəb psixoloqunun rolu" sorğusunun nəticələri və təhlili.*** Nəzərə almalıyıq ki, bütün uşaqların ortaq cəhəti məsləhətlərə qulaqlarını yumarkən nümunələrə gözlərini açmaqdır. Dəyərlərin təbliği və tədrisi zamanı: "nümunə"  olmaq vəzifəsi daşınmalı; məsuliyyətli tapşırıqlar verməklə nizam-intizama nəzarət edilməli; dərs proqramlarının tədrisi vasitəsilə dəyərlərin tədrisi və təbliği həyata keçirilməli; şagirdlər əxlaqi dəyərlərini nümayiş etdirmələri üçün dəstəklənməlidir. Sinifdən xaric fəaliyyətlərdən istifadə edilməli; valideynlər ilə məqsədə uyğun münasibət qurulmalı; məktəbdə nümunəvi cəmiyyət modeli yaradılmalı; demokratik sinif, məktəb atmosferi yaradılmalı; əməkdaşlıq metoduna üstünlük verilməlidir. Münaqişələrin həlli yolları öyrədilməli; məktəbdə müsbət əxlaq, mədəniyyət qorunmalı; şagirdlərə dəyərləri təhlil etmək və ünsiyyət qurma qabiliyyətini aşılayarkən dəyərlərin müəyyən quruluş olduğunu göstərilməli, müəyyən dəyərləri seçə bilmə haqqı verilməli və dəyərlərin tədrisi zamanı bitərəf mövqeyi qorunmalıdır.

Öyrənmə prosesində psixoloq və müəllim hər bir şagirdin maraq dairəsini müəyyən etməlidir. Tədris prosesi, mövzuların izahı şagirdlərin maraq dairəsi ilə uyğunlaşdırılarsa öyrənmə prosesi daha səmərəli alına bilər.

Psixoloqun əsas vəzifələrindən biri də şagirdlərdə motivasiyanı düzgün müəyyən etməkdir: daxili motivasiya, xarici motivasiya. Daha sonra müəllim və valideyn bu istiqamətdə maarifləndirilməlidir. Eyni zamanda şagirdi motivasiya edənin "-" və ya "+" olduğuna da diqqət etmək lazımdır. Bunun üçün,

“Sən bacaracaqsan!”, “Sən buna qadirsən!”, “Mən sənə inanıram!”- kimi sözlərlə yanaşı müxtəlif metodikalarla da  işləmək olar, məsələn, “Avtoportret”, “Venn diaqramı”, "Pilləkən" “Bacarıqlı əllər”, “Yüksək keyfiyyətlərim”.

Məktəb psixoloqu eyni zamanda milli-mənəvi dəyərlərə hörmət və onların qorunmasına yönələn sağlam psixoloji mühit formalaşdırmalıdır. İstər tarixi şəxsiyyətlər, istərsə də unudulmaqda olan mənəvi dəyərləri mümkün qədər aktuallaşdırmağa çalışmalıdır. Milli-mənəvi dəyərlər əsasən rəbliğat tipli seminarlarlar, dəyirmi masalar keçirilir – “Vətənimizi qoruyaq”, “Mən və mənim hüquqlarım”, “Mənim seçimim” və s. Müsabiqələr və yaxud yarışlar keçirilir ki, bu uşaqların kollektivdə düzgün qərar vermək tolerantlıq və s. hisslərin formalaşmasına şərait yaradır. Bundan başqa musiqi, rəsm, rəqs müsabiqələri, muzeylərə və digər tarixi abidələrimizə ekskursiyalar və s.

Milli-mənəvi dəyərlər çox şaxəli olduğuna görə müxtəlif  istiqamətlərdə işlər görmək olar: özünütərbiyə, emosianal hisslər, ailə dəyərləri və s. istiqamətləri qeyd etmək olar. Müasir dövrümüzdə sürətlə yenilənən informasiya çoxluğu, eyni zamanda uyğun olmayan informasiyalar formalaşmaqda olan gəncləri yanlış istiqamətlərə yönəldir. Ailə, məktəb və cəmiyyət paralel hərəkət edərsə biz hərtərəfli inkişaf edən gələcəyimiz üçün güclü nəsil yetişdirmiş olarıq.

Məktəbin idarəçiliyində nəzərə alınmalı psixoloji aspektləri düzgün təyin etmək; Müəllimlər münasibətlər, təlimin təşkili və s. istiqamətində çətinlik yaşadıqları mövzularda psixoloqa müraciət edilməlidir. Bu prosesdə psixoloqun peşəkarlıq səviyyəsindən çox şey asılıdır. Bunun üçün məktəb psixoloqlarının şəxsi keyfiyyətlərinin uyğunluğuna və müəyyən zamanlarda superviziya görmələri üçün tədbirlərin görülməyi məqsədə uyğundur.

## Öyrənmə mühitində şagirdlərin maraqlarının nəzərə alınmasının əhəmiyyəti

Sağlam təhsil – hər səhər həvəslə məktəbə gedən, hər fənni ayrı bir maraqla gözləyən, elmi məcburiyyətsiz qəbul edən, xəyalları olan, təhsili ilə uğurlarına inanan şagirdlər deməkdir. Şagirdi xoşbəxt olan təhsilin müəllim və valideynləri iki qat xoşbəxtdir.

Beynimiz, arasında hissi əlaqə qurmadığı heç bir şeyi mükəmməl qəbul edə bilmir. Yəni öyrənmə prosesində emosional sferanın əhəmiyyəti böyükdür. Öyrənmənin və xarici aləmlə ünsiyyətin əsasında hisslər dayanır – reallığını qəbul edərək bu məsələyə münasibət bildirsək, deməliyik ki, hər şeydən əvvəl şagirdlərin təhsilə sevgisini və marağını yaratmalıyıq. Bu yarışlar, müsabiqələr, mükafatlar vasitəsilə deyil, hər şagirdin beynindən əvvəl ürəyinə yol tapacaq metodlar vasitəsi ilə olmalıdır.

Unudulmayan hislərdir, təəssüratlardır. Müasir təhsilin məzmun və yanaşmaları hər bir şagirdə müsbət təsir etməlidir. Müasir təhsil metodları şagirdlərin xəyallarını, təhsilə dair istək və gözləntilərini öyrənməyə əsaslanmalıdır. Təhsili şagirdlərə onların sevdiyi vasitələr ilə sevdirməliyik.

Azərbaycan məktəblərində 178 (7-8-9 cu sinif) şagirdlə aparılan sorğu nəticəsində *“Dərsləriniz necə keçsəydi sizin üçün daha xoş olardı?”* sorğusunda cəmi 11 nəfəri hazırki dərs prosesindən razı qaldıqlarını bildirmişlər (Cədvəl 4.1.).

***Cədvəl 4.1.***

| Şagird sayı | Cavab |
|---|---|
| 11 | Hazırki dərs prosesindən razıyam |
| 11 | Əyləncəli olsun |
| 16 | Qruplarla keçsin |
| 50 | Maraqlı olsun |
| 20 | Bəzi dərsləri başa düşmək üçün oyun halına salına bilər |
| 20 | Asan olsun |
| 50 | -Praktik keçsə, öz fikirlərimizi deyə bilsək; -Musiqi ilə, mahnı ilə;<br>-Bilməyəndə qışqırılmasın; -Nümunələrlə; -Eksperimentlərlə;<br>-Araşdırmalı; -Müzakirə xarakterli; - Fərqli metodlarla; -3D səyahət eynəyi; -Müəllimlər zarafatcıl olsaydılar; -Həyətdə, açıq havada keçməsi; -Ev tapşırığı olmasa; -Daha intellektual müəllimlər; -Uşaqlar güləndə müəllimlər qışqırmasaydı; -Həm dərs keçib, həm də gülməli şeylər danışsaq; -Başqa siniflərlə birlikdə keçsəydi; -Ədalətli;<br>-Açıq havada və ya aralıqlarla; -Sərbəst; -Psixologiya, astronomiya, məntiq dərsləri; - Müəllimin düşüncəsində müsbət rəylərin olması;<br>-Dərslərdə müəllimlər gülərüzlü olsaydı; -Yeni texnologiyalarla gərginliyi aradan qaldırmaq, dərslərdə müəllim və şagird münasibətləri səmimi olsa. |

Kifayət qədər inkişaf etmiş oxu bacarıqları olmadan təlimi təsəvvür etmək çətindir. Şagirdləri ecazkar kitab dünyasına cəlb etmək müasir dövrün ən aktual problemlərindən biridir. Bəs şagirdlərimizin mütaliə maraqlarını, oxu vərdişlərini necə yüksəltmək olar? Misal üçün, biz Azərbaycan dili dərslərində hekayə və şerlərin öyrədilməsində məzmunun emosional vəziyyətinə uyğun musiqi dinlətməklə daha yaxşı mənimsəməyə nail olmuşuq.

Tarix dərslərində imperiya və ölkələrin tarixi keçirilən zaman şagirdlərə o dövrün musiqisi dinlədilərsə, şagird o dövrü hiss edərək öyrənəcək, hissi yaddaşına yazacaq və unutmayacaqdır. Bu üsul digər fənlərin tədrisində də istifadə oluna bilər. Bu üsulla, biz eyni zamanda, şagirdlərimizin musiqi zövqlərini bayağı musiqilərin təsirindən təmizləyə və inkişaf etdirə bilərik. Qədim dövrlərin fəlsəfi-pedaqoji baxışlarına əsasən sağlam musiqi zövqü formalaşdırmaqla geniş dünyagörüşlü, mədəni, mədəniyyətlərə hörmətlə yanaşan, öz mədəniyyətini və milli-mənəvi dəyərlərini qoruyan, sağlam psixologiyaya malik şəxsiyyət formalaşdırmaq olar (Cədvəl 4.2.).




***Cədvəl 4.2.*** *Azərbaycan məktəblərində 430 şagirdlə (7-8-9 cu sinif) aparılan "Hansı fənn üzrə tapşırıqları yerinə yetirərkən musiqi dinləyirsiniz?"sorğu nəticəsi.*

Müasir təhsilin məzmunu və tədris proqramları tərtib edilərkən nevropatoloqlar, fizioloqlar, psixoloqlar və digər əlaqədar şəxslərin dəyərləndirmələri nəzərə alınmalı, onların birgə qarşılıqlı əməkdaşlıqları təmin edilməlidir; şagirdlərin

potensial imkanlarına uyğunlaşdırılmalıdır. Ən vacib amillərdən biri də odur ki, şagirdləri düşünərək onların gələcək inkişafları üçün tərtib olunan proqramlarda onların iştirakları hər hansı bir şəkildə və səviyyədə təmin edilməli, onların istək və arzuları nəzərə alınmalıdır. Bütün bu amillər şagirdlərin təlim motivlərinin yüksəlməsinə, onların təlim maraqlarının artmasına ciddi zəmin yaratmaqla təlim prosesinin səmərəliliyinin və keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəlməsini təmin edəcəkdir.

Müasir təhsilin məzmununun böyük bir hissəsi şagirdlərdə texniki bilik və bacarıqların formalaşdırılmasına istiqamətlənmişdir. Təxəyyülün və yaradıcılığın inkişafını təmin edən dərslərə isə, bir qayda olaraq "ikinci dərəcəli" dərslər kimi baxılır. Əsasən məktəbəqədər, ibtidai və orta təhsil pillələrində şagirdlərin bədən hərəkətlərini, sənət və yaradıcılıq motivlərini formalaşdıraraq özlərini və xarici aləmi daha yaxından tanımaq üçün musiqi, rəsm, əl işləri, dizayn, teatr, rəqs, idman kimi dərslərin tədris proqramında ilk sıralarda olması təmin edilməlidir. ABŞ, Yaponiya, Koreya kimi bir çox ölkələrin təcrübəsi də bu faktı təsdiqləyir.

**Öyrənmə mühitində milli-mənəvi dəyərlərin qorunmasının əhəmiyyəti.** Məktəb hər bir uşağın ikinci ailəsi, ikinci evidi. Ailəsindən sonra ən böyük təsiri məktəbdə görür. Məktəblər dəyərlərimizi sevdirmək üçün ən gözəl mühitdir. Bakı İstanbul liseyinin psixoloqu Sevda Zəhra Aydının liseydə həftədə bir dəfə olan "Dəyərlər" saatında tətbiq etdiyi metodikaları diqqətinizə çatdırırıq:

"Öncəliklə musiqi və sosial media ilə inteqrasiya olan gənclərə ən gözəl təsir edə biləcəyimiz sahə elə incəsənətin özüdü. Bunu necə edə bilərik?

"Hər həftə sinif - sinif debatlar keçirərək şagirdləri sinif auditoriyasından kənarda (yaxşı havada məktəbin həyətində, soyuq havada məktəbin akt zalında) toplayaraq, hər həftə üçün yeni mövzu və yeni ssenari tərtib etmək. Məsələn, hər həftə yeni bir mövzu seçirik. Bu mövzu haqqında öncə "paslaşma" metodu ilə sual-cavab halında şagirdlərin fikri öyrənilir və onlara fikirlərinin səhnələşdirilməsi tapşırığı verilir. Səhnələri canlandırarkən seçilən mövzular ilə bağlı öncədən mənəvi dəyərlərin önəmini vurğulayan, şagirdlərin öz dəyərlərinin fərqində olmaqları üçün filmlər izlədərək uşaqlara fikir vermək mümkündür". Yaş psixologiyasını və yaş dövrünə uyğun maraqları nəzərə alsaq qeyd edilən metodikalar mükəmməldir. Rollu oyunlar və dinlənilən musiqilərə diqqət metodikasını ARTN-nin həyata keçirdiyi Təhsildə inkişaf və innovasiyalar üzrə ikinci qrant

layihəsi çərçivəsində qalib olmuş “Təhsil müəssisələrində uşaqların cinsi tərbiyəsi”, “Təhsil müəssisələrində psixoloji mühitin müəllim-valideyn-şagird kontekstində sistemləşdirilməsi” layihələrinin icrası prosesində şagirdlərin, müəllimlərin və valideynlərin birgə iştirakı ilə rollu oyunlar və birgə xor ifası olmuşdur.

**Öyrənmə mühitində şagirdlərin maraqlarının nəzərə alınması.** Məktəblər insan həyatında əvəzolunmaz əhəmiyyətə malik olan və insanların mərkəzi mövqedə olduğu yaşayış sahələridir [Ada & Akan, 2007; Aktan & Turan, 2003]. Dr. Jozef Şuqermana görə, məktəblər ev mühiti ilə daha geniş sosial mühit arasında bir körpü funksiyasına sahib olan və uşaqların fərd olaraq məskunlaşdığı təşkilatlardır [Çileli, 1986]. Məktəb, məktəbəqədər təhsil dövründən gənclik dövrünün sonuna qədər təhsil fəaliyyətlərinin sistematik şəkildə tətbiq edildiyi yeganə qurumdur (Köylü, 2016). Məktəblərin, fərdin və cəmiyyətin ehtiyaclarını ödəmək kimi vacib funksiyaları var. Şagirdlərə bilik verməkdən əlavə; sosial, psixoloji və mənəvi inkişafını dəstəkləyən, cəmiyyətə yararlı sağlam fərd olmağa xidmət edən və cəmiyyət tərəfindən qəbul edilmiş dəyərləri şagirdlərə ötürərək şəxsiyyət yetişdirməyə kömək edən bir ictimai qurumdur. Bu funksiyaları reallaşdırmaq üçün tədris planlarına dəyərlərin tədrisinin daxil edilməsi qaçılmazdır.

Məktəblər gələcək nəsillərin davranışlarına, dəyərlərinə və vərdişlərinə təsir edəcək gücə sahib olmalıdır. Dövrümüz pozitiv hallar ilə bərabər gətirdiyi neqativ hallar qarşısında məktəblər şagirdlərinə düzgün seçim etmək üçün seçimlər təqdim etməli və şagirdlərin öz seçimlərini etmələrinin yollarını və metodlarını göstərə bilməlidir. Bilinən həqiqətdir ki, cəmiyyətin gələcəyi xarakterli və savadlı nəsillərdən asılıdır. Məktəbli yaş dövründə olan uşağın özlüyündən yaxşı xarakterə sahib olması qismən mümkündür. Bu səbəbdən məktəbəqədər dövrdən universitet illərinə qədər hər fərdin sağlam dəyərlərə söykənən qərarlar verməsi və uyğun əxlaqi davranışlar nümayiş etdirəbilməsi üçün lazımi bacarıq və dəyərlərə yiyələnməsi məktəblərin əsas hədəfləri sırasındadır [Ryan & Bohlin, 1999 istinad: Ekşi, 2003]. Bu səbəblə cəmiyyətin müəllimlər və məktəblərdən gözləntiləri var. Məktəblər və müəllimlər bu gözləntiləri qarşılamaqla yanaşı, məktəb həyatında və təhsildə müzakirə olunan ziddiyyətli dəyərləri şagirdlərin, ailələrin, cəmiyyətin maraq və ehtiyaclarını, peşəkar praktika ilə tədqiq etməlidir [Halstead & Taylor, 2000]. Gələcək nəsilləri "ağıllı" və "yaxşı" insan kimi formalaşdır-

maq bütün cəmiyyətlərin təhsil sistemlərinin əsas hədəfidir: bilikli, ağıllı, dəyərlər sisteminə malik. Yaxşı insan olmaq ağıllı və intellektual olmaq mənasını daşımadığı üçün; cəmiyyətlər həm ağıllı həm də yaxşı insanlar sayəsində zəkalarını insanların rifahı və daha gözəl dünyaya xidmət edəcək vətəndaşlar yetişdirmək üçün istifadəyə hədəfləyir. Bu səbəbdən də, çağımızda məktəblərdə təhsilin ən vacib məsələlərindən biri əxlaq və ya dəyər təhsilidir [Lickona, 1993]. Dilmaç [1999] isə təhsilin əsas məqsədinin tam insan olmaq, sahib olduğu bacarığı ən yüksək səviyyədə reallaşdırmaq və məmnuniyyət əldə etmək olduğunu vurğuladı. Maslova [1996] görə təhsil, yaxşı həyat, yaxşı insan və yaxşı cəmiyyət yaratmaq üçün səy kimi qəbul edilməlidir. Bu həqiqəti nəzərə almamaq gerçəkliyi, əxlaqı və əxlaq sistemlərinin həyatımızdakı əhəmiyyətinə laqeydlik etmək deməkdir. Bundan əlavə, "Sevginin düşüncə sahəsi ilə əlaqəsinin qopmuş olduğu təhsil, insan həyatının mənası haqqında söyləyəcək dəyərli bir sözü olmayan təhsildir". Girginin [2012]: “İnsan da bir dəyərdir. Təhsil insanın istedadını, maraqlarını inkişaf etdirməsinə kömək etməklə bərabər sevgi və hörmət kimi insani, bəşəri dəyərlər vasitəsilə barış mühitində fərdi inkişafına faydalı olmalı və demokratiya ilə nəticələnməlidir”.

Dəyərlərin tədrisi, məktəbdə şagirdlərin pozitiv və mənəvi cəhətdən inkişafını təmin edən, müsbət sosial münasibətlərin inkişafını dəstəkləyən, akademik nailiyyətlərinin inkişafını da əhatə edən hərtərəfli prosesdir. Dəyərlərin tədrisi təhsili əxlaq tərbiyəsi, xarakter təhsili kimi ifadə edilir [Berkowitz, 2011]. Dəyərlərin tədrisinin iki təməl məqsədi var. Bunlar, insanların həyatlarından məmnun olmasını və daha yaxşı xarakterə sahib bir fərd olaraq hayatını yönləndirmələrini təmin etməkdir. Dəyərlərin tədrisi bu istiqamətdə gənclərin dəyər inkişafına xidmət edir [Akbaş, 2008]. Dəyərlərin tədrisi çox vacib təhsil sahəsidir və bu səbəbdən sadəcə məktəblərdə tədrisi ilə kifayətlənməməli, ailənin rolu da nəzərdə saxlanılmalıdır [Çelikkaya, Başarmak, Filoğlu, & Şahin, 2014]. Məktəblər, ailədə qazanılan dəyərlərin daha da qüvvətləndiriləcəyi və üzərinə yeni dəyərlərin inşa ediləcəyi mühitlərdir [Keskin, 2008].

Hər bir ölkənin təhsil fəlsəfəsinə uyğun olaraq hədəfləri var və bu hədəflər "ümumi hədəflər" olaraq təhsil sistemində öz yerlərini tuturlar. Ümumi hədəflərin məqsədi ideal insan yetişdirməkdir. Bu hədəflər formalaşdırılarkən ölkənin

bütün məktəbləri nəzərə alınır və tədris prosesi istiqamətləndirir. Formalaşan hədəflər cəmiyyətin dəyərlərini və ideallarını əks etdirir [Tezcan, 1985].

Milli Türk Təhsilinin ümumi məqsədlərinə nəzər saldığımızda; "Bütün insanları: Türk Millətinin milli, əxlaqi, insani, mənəvi və mədəni dəyərlərini mənimsəyən, qoruyan və inkişaf etdirən bir vətəndaş olaraq yetişdirmək" və "bədən, şüur, əxlaq, ruh və duyğu baxımından balanslı və sağlam şəkildə formalaşmış şəxsiyyətə və xarakterə, azad və ziyalı düşüncə gücünə, geniş dünya görüşünə sahib, insan haqlarına hörmətlə yanaşan, şəxsiyyətə və təşəbbüsə dəyər verən, cəmiyyətə qarşı məsuliyyətli; konstruktiv, yaradıcı və faydalı şəxsiyyətlər olaraq formalaşdırmaq” ifadələri diqqət çəkir [M.E.B, 1973].

Göründüyü kimi, əsas dəyərlərin qazandırılması, Milli Türk Təhsili Əsas Qanununun ümumi hədəflərinə daxildir. Bundan əlavə, bir çox dərs proqramının məqsədləri arasında əsas dəyərlərin qazandırılması var.

Ülkenə [1968] görə, təhsildə qazandırılmalı olan dəyərlər üç növə bölünür: üstün (din, əxlaqi) dəyərlər, özünəməxsus (texniki-sənət, fikir) dəyərlər və normativ (hüquq, dil, iqtisadiyyat) dəyərlər. Bu üç dəyər sahəsindəki daxili dəyərlər - hisslərə; üstün dəyərlər - hisslərə, emosiyalara; normativ dəyərlər - emosiya və hisslər vasitəsilə konsepsiyalara əsaslanır. Likona [1992] görə məktəblərdə qazandırılmalı olan dəyərlər ilk olaraq hörmət və məsuliyyət; dürüstlük, ədalət, dözümlülük, sağlam düşüncə, intizam, xeyirxahlıq, mərhəmət, əməkdaşlıq, cəsarət və demokratik dəyərlərə.

**Məktəbdə dəyərlərin tədrisinin zəruriliyi.** Dəyərlər öyrənilə bilən və öyrədilə bilən anlayışlardır [Köylü, 2016]. Uşaqlar həyatlarının ilk illərində dəyərləri ailələrindən, yaşıdlarından, oyun qruplarından, yaşadıqları mühitdən, KİV və digər qurumlardan öyrənməyə başlayırlar [Buzelli, 1992]. Dəyərlərin tədrisinin başladığı və ən təsirli olduğu yer ailədir. Valideynlərin və digər ailə böyüklərinin qaydaları sayəsində uşağın vicdanı formalaşmağa başlayır. Bu səbəblə ailə yaxşının, gözəlin, həqiqətin, müqəddəsin fərqinə varılıb öyrənilməsində və mənimsənməsində ən effektiv qaynaqlardan biridir. Uşaqlar sahib olduqları mənbələri müstəqil şəkildə idarə etmək bacarığı qazanana qədər ailəsinin dəyərlərinə bağlı həyat yaşayırlar. Bundan əlavə, uşağın ailəsindən öyrəndiyi bir çox davranış nümunəsi və qaydaları həyatı boyunca ona işıq tutur. Ancaq dövrümüzdə sürətlə

baş verən dəyişikliklər ailənin bu funksiyasına xələl gətirdi. Uşaqda güclü xarakter formalaşdırılması üçün ailənin və cəmiyyətin dəyərlərinin bir-birinə uyğun və tamamlayıcı olmalıdır. Günümüzdə isə əksinə bir çox ziddiyyət, və boşluq var [Hökelekli, 2013]. Bundan əlavə, ailə məsuliyyətinin ana və ata arasında ədalətli bölünməməsi, ana və ataların iş həyatlarında rəhbərliklər tərəfindən onların valideynlik vəzifələrinin göz ardı edilməsi, ailə üzvləri arasında paylaşma və ünsiyyət problemlərinin artması, boşanma hallarının artması kimi bir çox səbəbə görə ailədə uşaqlara yetərincə dəyər aşılanmır. Bu aspektdən nəzər saldığımızda, ailənin aşılamadığı dəyərlərin məsuliyyəti də məktəbin payına düşür. Bu gün fərdlər vaxtlarının çox hissəsini məktəblərdə keçirirlər. Nəzərə alsaq ki, biz ailələrin psixoloji durumlarını, necə həyata sahib olduqlarını və bütün bunların qarşılığında hansı dəyərlərə malik şəxsiyyət yetişdirdiklərinə nəzarət edə bilmədiyimizdən məktəb mühitində bunlara diqqət etməliyik. Məktəb kollektivinin pedaqoq-psixoloqlardan formalaşdığını nəzərə alsaq "sağlam məktəb" mühitlərində "xəstə ailələr"in itirdiklərini geri qazana bilərik. Xülasə, ailənin uşaqların dəyər aşılama məsuliyyətini icra etməməsi, məktəblərdə dəyərlərin tədrisinin vacibliyini artırmışdır. Cəmiyyətlərdə hər şey ehtiyacdan qaynaqlanır. Bu səbəbdən cəmiyyətin bu ehtiyacını ödəmək üçün məktəblərə dəyərlərin tədrisi daxil edilməlidir.

Eyreve Eyre [1993] dəyərlərin tədris edilməsinin səbəblərini belə sıralamışdır: Dəyərlər ənənəvidir, ailələrimiz bizə dəyərlər öyrətməyə çalışmışlar, dəyərlər inanclarımızdır, həqiqətlərimizdir, dəyərlər cəmiyyətimizi güvənli edir. Dəyərlər və əxlaqi yönümlü davranışların araşdırılması uşaqlarda müstəqillik, muxtariyyət və etibar hisslərini inkişaf etdirir. Övladlarımızın dəyərləri onların xoşbəxtliyi üçün ən vacib və təsirli ünsürdür. İctimai huzurun və birliyin qorunması üçün dəyərlərin yeni nəsillərə çatdırılması vacibdir. Bu səbəbdən də təhsil cəmiyyətin ortaq dəyərlərini yeni nəsillərə ötürməyi və öyrətməyi hədəfləməlidir. Dəyişmiş dəyərləri uyğun olan yeni dəyərlərlə əvəz edə bilməlidir. Bu gün şiddət hadisələrinin başvermə tezliyi, cəmiyyətdə əsas dəyərlərin təhlükə altında olduğunun göstəriciləridir. Bu səbəbdən təməl dəyərlərin müzakirəsinə və bu dəyərləri cəmiyyətdə nümayiş etdirən insanların sayının artırılmasına daha böyük ehtiyac var. Buna isə yalnız cəmiyyətə yeni fərdlər qazandıran

məktəblərdə bu dəyərlərin şagirdlərə mənimsədilməsi ilə nail olmaq mümkündür [Akkirpik, 2007].

Çağdaş həyatın əhəmiyyət verdiyi bir çox mövzu var. Başda akademik nəaliyyət olmaqla mədəni, dürüst, insanlar arasındakı münasibətlərə əhəmiyyət verən, nəzakət qaydalarına riayət edən, təmizlik, nizam-intizam, iş intizamı və s. anlayışlar da ön plana çıxır. İnsanlar bir bütün olaraq qiymətləndirilir və insanları insan edən keyfiyyətləri inkişaf etdirmək üçün səylər göstərilir. Bu məqsədləri reallaşdırmaq üçün məktəblərin mövqeyi laqeyd yanaşılmayacaq qədər çox vacibdir.

Öyrənmə, təkrar və ya yaşantı nəticəsində düşüncə, hiss və davranışda meydana gəlir. Pedaqoqlara görə isə üç istiqamətdə baş verir: psixomotor, idrak və hissi. Psixo-motor fərdlərin fəaliyyət və hərəkətlərini əhatə edən davranışları ifadə edərkən, idrak fərdlərin şüurunda mövcud olan məlumatları ifadə etməkdir. Emosional öyrənmə insanların davranışının təməlində olan duyğuları da əhatə edir [Gül, 2013]. Bean [1990], təhsilin emosional ölçüsünün sosial və fərdi inkişafla əlaqəli olduğuna diqqət çəkmiş və təhsil proqramlarının emosional ölçüsünü təşkil edən elementlərin inanclar, dəyərlər, etik, əxlaq, sosial meyllər, gözləntilər, tutumlar və məmnunluq duyğuları olduğunu söyləmişdir [Bacanlı, 2006]. Jarolimek [1990], isə bəzi elmlərin, dəyər, inanc, tutum kimi psixoloji quruluşların bəzi cəhətlərini və xarakter formalaşmasını təhsilin hissi formasına daxil etmişdir. [istinad: Bacanlı, 2006]. Bacanlıya [2006] görə duyğular, inanclar, seçimlər, gözləntilər, dəyərlər, əxlaq, qiymətləndirmə və münasibətlər insanın emosional yönünü formalaşdıran cəhətlərdir. Emosional qavrama bu elementlərin hamısı ilə birbaşa və ya dolayısı ilə əlaqəlidir. Sarıya [2007] görə, təhsilin əsas məqsədinin insanların qəlblərini, şüurunu və əllərini azad etmək və yetkinləşdirmək olduğunu nəzərə aldıqda, bu üç istiqamət balanslı şəkildə həyata keçirmək məcburiyyəti meydana gəlir. Bu öhdəlik həm fərd, həm də cəmiyyət üçün vacibdir.

Dəyərlərdən məhrum bir təhsil sisteminin vəzifələrini tam yerinə yetirdiyini söyləmək mümkün deyil [Dilmaç, 1999]. Şagirdlərə yalnız idrak və psixo-motor bacarıqlar verildikdə cəmiyyətdəki fərdlər dəyərlər və münasibətlər kimi həyati əhəmiyyətli qabiliyyətlərini aşkarlamayacaqlar. Təhsildəki emosional meyara məhəl qoymamaq, fərdlərin sahib olduğu potensialın inkarına səbəb olacaqdır.

İnsanların yalnız idrak və ya psixo-motor bacarıqlara sahib olmaları halında müvəffəq olmaları mümkün deyil [Kumbasar, 2011].

Məktəblər cəmiyyətdəki bütün qurumlarla qarşılıqlı əlaqə və təsir gücünə malikdir. Belə ki, şəxslər məktəbdə əsas bilik və davranış qaydalarını öyrəndikdən sonra cəmiyyətin sağlamlıq, siyasət, hüquq, iqtisadiyyat və s. kimi digər qurumlarında fəaliyyət göstərməyə başlayırlar. Şəxslər məktəblərdə insani dəyərləri və cəmiyyətin ortaq dəyərlərini öyrənməyiblərsə, çalışdıqları bütün qurumlar, cəmiyyət və hətta ölkə mənfi təsirə məruz qalacaqdır. Buna görə də, məktəblərdəki dəyərlər yalnız təhsil müəssisələri üçün deyil, ölkədəki bütün qurumlar üçün lazımdır. Təhsil insanları tanımaq, xüsusi qabiliyyətlərini müəyyən edərək düzgün peşə seçminə yönləndirmək, onlara yol göstərmək və şəxsiyyət yetişdirmək adına icra edilən fəaliyyətlər kompleksidir [Şentürk, 2010].

**Milli-mənəvi dəyərlərin qorunmasında şagirdlərin maraqlarının nəzərə alınması.** İqtisadiyyatda, siyasətdə və mədəniyyətdə baş verən islahatlar, dünyaya inteqrasiyası, qloballaşma insan amilinə müxtəlif cəhətdən təsir göstərir. Dünyaya inteqrasiyada xalqımızın zəngin və şərəfli milli əxlaqını, milliliyi saxlamaq, onu yad aşınmadan qorumaq aktuallıq daşıyır. Xüsusilə gənclərin milli əxlaqımızı, milli dəyərlərimizi qoruması mühüm əhəmiyyətə malikdir.

Cəmiyyətin aparıcı qüvvəsi gənclərdir. Gəncliyimizin yetişməsində məktəbəqədər müəssisələr, ümumtəhsil müəssisələri önəmli rol oynayır. Çünki, şəxsiyyətin formalaşmasında mühüm əhəmiyyət kəsb edən yaş dövrləri bu müəssisələrdə cərəyan edir. Tədris-təlim-tərbiyə prosesi şagirdlərin:

- marağına əsaslanan;
- milli-mənəvi dəyərlərə dair bilikləri dərinləşdirən və zənginləşdirən;
- milli əxlaqımızın ruhunda tərbiyə edən;
- nümunəvi davranış təcrübəsi və rəftar tərzi formalaşdıran;
- tarixi keçmişimizə, dövlətimizə, vətənimizə hörmət, məhəbbət və iftixar hisslərini qüvvətləndirən və s. şəkildə təşkili məqsədə uyğundur. Bütün bunların effektivliyini şagirdlərin yaş dövrlərinin fizio-psixoloji xüsusiyyətlərini, həmin dövrə uyğun maraqlarını nəzərə alaraq tətbiqi uğurlu nəticələr verəcəkdir. Məsələn, kiçik yaşlı məktəblilər ilə nağıllar, rollu oyunlar, debatlar vasitəsi ilə (nağıl terapiyası, oyun terapiyası), erkən yeniyetmə və yeniyetmə yaş dövrü ilə sevdikləri musiqilər, filmlər, rollu oyunlar, debatlar vasitəsi ilə daha

effektiv olacaqdır. Həftədə bir dəfə “Dəyərlər” dərsini tədris planına daxil etməklə ilk addımı atmaq olar.

Milli-mənəvi dəyər anlayışı özündə böyük bir mənanı ehtiva edir. Mənəvi dəyər dedikdə əsrlər boyu xalqımızın yaratdığı əxlaqi və maddi dəyərlər sistemi nəzərdə tutulur. Hər bir xalqın varlığı, onun milli kimliyi ilk növbədə onun milli-mənəvi dəyərlərində ehtiva olunur. Bu həqiqətdir ki, bir toplumun varlığının qorunub saxlanması üçün hər şeydən öncə onun varlığını özündə ehtiva edən milli-mənəvi dəyərlərinin qoruyub saxlanması lazımdır. Amma təəssüflər olsun ki, 21-ci əsrdə qloballaşma dediyimiz proses müxtəlif xalqların milli-mənəvi dəyərlərinə müxtəlif formalarda, gizlin və ya aşkar şəkildə “təcavüz” edir, onu məhv etməyə, sıradan çıxarmağa çalışır. Sosioloq Asif Bayramov qeyd ki, hansı xalq qloballaşma dövründə milli dəyərlərə qarşı olan “təcavüzə” qarşı özünün milli-ideoloji cəbhəsini qura bilibsə və onu qorumağı bacarıbsa, həmin xalqın bu dalğadan salamat çıxma ehtimalı var. Onun sözlərinə görə, müasir gənclərin mənəvi dəyərlərimizə olan münasibətinə və onların özlərində daşıdığı dəyər anlayışına nəzər salsaq, bugünkü səhnənin bir o qədər də ürəkaçan olmadığını görə bilərik: "Lakin bununla yanaşı, digər xalqlarla müqayisədə daha yaxşı vəziyyətdə olduğumuzu da etiraf etməliyik. Hər halda, bu gün Azərbaycan gəncliyinin milli-mənəvi dəyərlərə yönələn hissəsi çox olduğu kimi, bu dəyərlərə biganə olan və qismən kosmopolitləşən hissəsi də kifayət qədər çoxalıb. Bunun isə özlüyündə müxtəlif səbəbləri var. Gənclərimizin xarici ölkələrdə təhsil alması, Qərb düşüncəsinin, Qərb şüurunun Azərbaycan gerçəkliyinə təsir göstərməsi mühüm faktorlar sırasındadır”.

Dünyaya gələn hər bir uşaq ailədən sonra cəmiyyətdə böyüyür, tərbiyə alır. Əgər hər hansı bir gəncimizin beyni, düşüncəsi, şüuru milli-mənəvi dəyərlərimizdən yayındırılmışsa, təhsil sahəmizdə boşluqdan qaynaqlana bilər. 11 illik təhsil müddətində milli ruha sahib insan yetişdirilmirsə, ideoloji baxımdan və bu ideologiyanın şagirdlərin marağını nə dərəcədə ödədiyinə diqqət yetirmək lazımdır. Etiraf etməliyik ki, gənclərimizin və gəncliyimizin itirmə prosesi ilə daha çox təhsil alma mərhələsində qarşılaşırıq.

## Öyrənmə mühitində şagirdlərdə maraq və milli-mənəvi dəyərlərin qorunması istiaqamətində məktəb psixoloqlarına metodik göstərişlər

Vətən, ata-ana, el-oba, yurd yeri, doğma ocaq sevgisi, namus-qeyrət təəssübü çəkmək, vətənpərvərlik, halal-haram, böyük-kiçik, ədəb-ərkan, etik dəyərlər, unudulmaz inam və inanclarımız, müqəddəs milli adət-ənənələrimiz milli dəyərlərimizin məhək daşıdır. Gənc nəslin azərbaycançılıq ideyaları ruhunda tərbiyəsi xalqımızın qələbələrinin, nailiyyətlərimizin təminatçısıdır. Əsrlər boyu xalqımızın böyük mənlik şüuru, əxlaqi dəyərlərə sədaqəti sayəsində, bütün təsirlərə baxmayaraq, öz dilini, dinini, milli adət-ənənələrini qoruyub saxlaya bilmiş, onu xüsusilə sovetlər dövrünün ideoloji taranlarından aşılanmağa imkan verməmişdir.

Məktəb dövrü hər insanın həyatının unudulmaz parçasıdır. Məktəb mühiti (məktəbin idarə heyəti, müəllimlər, psixoloqlar) şagirdlərə sadəcə tədris proqramlarında əks olunan bilikləri öyrətmək ilə kifayətlənmir. Eyni zamanda nəyin doğru, yaxşı, gözəl olduğunu da öyrədir. Müəllim sinif daxilində sadəcə dərs mövzularını izah edən şəxs deyil, şagirdlərinin qarşısında xarakteri ilə, mənliyi ilə örnək olan şəxsdir. Bu səbəblə müəllimlər, məktəb psixoloqları, məktəb kollektivini təşkil edən hər kəs peşələrinə həm ağıllarını həm də ürəklərini verməlidirlər.

Dəyərlərin tədrisi zamanı nailiyyət əldə etmənin təməl ünsürü müəllim ilə yanaşı psixoloqun da roludur. Psixoloqlar şagirdlərin davranışlarını izləməli və tədqiq etməlidir. Məktəb mühitində doğru ilə yanlışın seçimini şagirdə göstərmək və izah etmək psixoloqun vəzifəsidir. Psixoloqun nümunələr göstərərək, fərdi yanaşma vasitəsilə, şagirdin davranışını dolayı yol ilə dəstəkləyib dəstəkləmədiyini bildirərək və gerçəklikləri açıqlayaraq icra etməsi onun məsuliyyətləri daxilindədir. Eyni zamanda psixoloq və müəllimin birgə fəaliyyəti zamanı qoyulan dövlət standartları, fənnin tədrisi prosesində aşılanmalı olan dəyərlər, dəyərlərin psixoloji aspektləri daim müzakirə edilməlidir. Psixoloqların ailələr ilə bu istiqamətdə görüşləri də diqqətdən kənar qalmamalıdır.

Şagirdlərə dəyər verilməli, şəxsiyyət olaraq qiymətləndirilməlidir. Bunu yalnız özünü dəyərli bilən və şəxsiyyət kimi hiss edənlər edə bilər. Şagirdlərin

fərdi, mədəni-mənəvi xüsusiyyətləri və maraqları nəzərə alınaraq öyrənmələri və inkişafı üçün səy göstərilməlidir. Şagirdlərə aşılamaq istədiyimiz dəyərləri öz davranışlarımız ilə nümayiş etdirməliyik. Məsələn, ədalət dəyərindən danışıb, ədalətsizlik edilməməlidir. Aparılan bir çox tədqiqatlarda şagirdlərin formalaşmaqda olan dəyərlərinin müəllimlərin dəyərlərindən təsirləndiyi tədqiq edilmişdir [Broply ve Good, 1986; Dickinson, 1990; istinad Yılmaz, 2009]. Bura tolerantlıq, ədalət, hörmət, səxavət, nəzakət, azadlıq və şagirdlərin ehtiyaclarına həssaslıq kimi dəyərlər daxildir [Halsteadve Taylor, 1996]. Şagirdlərə dəyərləri təhlil etmək və ünsiyyət qurma qabiliyyətini aşılayarkən dəyərlərin müəyyən quruluş olduğunu göstərmək lazımdır ki, müəyyən dəyərləri seçə bilsinlər. Şagirdlərə dəyərləri tədris edərkən bitərəf mövqeyindən çıxış etmək lazımdır.

**“Öyrənmə mühitində şagirdlərdə maraq və milli-mənəvi dəyərlərin qorunması” istiqamətində, tərəfimizdən Azərbaycan məktəblərinə aparılan tədqiqat nəticələrinə əsasən məktəb psixoloqlarına tövsiyyə edilən metodlar:**

**1.** 50 nəfər yuxarı sinif şagirdi (yeniyetmə) ilə aparılan tədqiqatı nəzərinizə çatdırmaq istəyirik. Bir saatlıq “Beyin” adlı təqdimatdan (beynin gücü, ondan düzgün istifadə qaydası) və şagirdlərin müzakirə etmək istədikləri mövzuların müzakirəsi təşkil edilmişdir. Şagirdlərin psixoloji durumlarına (özgüvən, pozitivlik, aqressiya və s.) təsiri görə bilmək üçün əvvəldə və sonda şəkil çəkmələri istənilmişdir. Birinici şəkil ilə ikinci şəkil arasındakı fərqi analiz edərkən gözlə görüləcək şəkildə müsbətə doğru dəyişiklik müşahidə olunmuşdur:

- istifadə olunan rənglər neqativdən pozitivə doğru dəyişmiş;
- öz güvən əksikliyini ifadə edən kiçik rəsmlər böyük rəsmlər ilə əvəz olunmuş;
- iti uclu rəsmlərin sayı azalmış;
- vərəqdə rəsmin pozisiyası müsbətə doğru dəyişilmişdir və s.

Birinci rəsm zamanı heç müşahidə edilmədiyi təqdirdə ikinci dəfə çəkilən rəsmlər arasında kainat rəsmini çəkənlərin sayının artımı müşahidə olunmuşdur və s. rəsmlər şagirdlərin iştirakı ilə sözlü və emosional (musiqi alətləri vasitəsi ilə) təhlil olunmuşdur.

**2.** Məktəb hər bir uşağın ikinci ailəsi, ikinci evidir. Ailəsindən sonra ən böyük təsiri məktəbdə görür. Məktəblər dəyərlərimizi sevdirmək, ailə münasibətlərinə müsbət təsir edə bilmək üçün ən gözəl mühitdir. Yaş psixologiyasını və yaş dövrünə uyğun maraqları nəzərə alsaq qeyd edilən metodikalar mükəmməldir. ARETN-nin I qrant layihəsi ««Məktəb – icma klubu »nun yaradılması» layihəsi (Layihə rəhbəri 232 nömrəli məktəbin direktoru Ə.Məhluqə, layihə eksperti psix.e.d. B.Elxan, koordinatoru B-Ə.Bahar) zamanı aparılan tədqiqat nəticələri:

– Şagird, valideyn və müəllimlərin istək və gözləntiləri daim sorğular əsnasında diaqnostika olunur;

– İnkişaf etdirmək istədiyimiz istiqamətin məzmununa uyğun kitab seçimi və şagirdlərə evdə ailə ilə birlikdə kitab oxumaq tapşırığı verilən zaman bitdiyində məktəbdə valideyn, şagird, müəllimlər ilə kitab müzakirəsinin təşkili.

– Valideyn, şagird və müəllim münasibətlərinin nizamlanması üçün keçirilən maarifləndirici söhbətlərin, seminarların muzey, sərgi, teatr, film və s. gəzintilər əsnasında aparılması;

– Məktəbin məzunlarının məktəbə dəstəyi, onlarla görüşlər şagird, valideyn və müəllimlərin iştirakı ilə təşkil olunur;

– Valideynlərin məktəbdə peşələri və bacarıqları istiqamətində dərnəklər qurulmasına şərait yaradılır. Tədris ilinin sonunda fəaliyyət göstərən dərnəklərin nəticələrinin təqdimatının valideyinlərin iştirakı ilə nümayişinə şərait yaradılır.

**3.** ARETN-nin II qrant layihəsi "Təhsil müəssisələrində uşaqların cinsi tərbiyəsi" (Layihə rəhbəri 18 nömrəli məktəbin direktoru S.Rəna, layihə eksperti psix.e.d. B.Elxan, təlimçilər psix.f.d. B.Aynur, psixoloq Ə.Sevinc, koordinator B-Ə.Bahar) aparılan tədqiqat nəticələri:

– maarifləndirmə işləri şagirdlərlə qarşılıqlı güvən və müzakirə formatında quruldu;

– aşılanmalı olan dəyərlər onların maraq çərçivəsinə uyğun şəkildə təqdim olundu; (məsələn, sevdikləri mahnıların məzmunu və musiqisi tədqiq edilərək daha uyğun məzmun və musiqili mahnı nümunələri ilə dəyişdirildi,

xor ifası təşkil edildi. Davranış, münasibət, ünsiyyət, nümayiş etdirdikləri dəyərlər, öz güvən və s. istiqamətlərdə müsbət dəyişiklik müşahidə edildi);

– aşılanmalı olan dəyərlər onların ssenariləştirdiyi və ifa etdikləri rollu oyunlar vasitəsilə təqdim olundu (bu tədqiqat məktəbin "ən çətin uşaqlar"ı ilə gerçəkləşdirildi).

**4.** ARETN-nin III qrant layihəsi "Təhsil müəssisələrində psixoloji mühitin müəllim-valideyn-şagird kontekstində sistemləşdirilməsi" (Layihə rəhbəri 232 nömrəli məktəbin direktoru Ə.Məhluqə, layihə eksperti psix.e.d. B.Elxan, koordinator B-Ə.Bahar) aparılan tədqiqat nəticələri:

– "Könüllü valideynlər" məktəb psixoloqunun təşkil etdiyi müvafiq təlimlərdə iştirak edir;

– Təlimlərin istiqaməti şagirdlərin ailələrinə və müəllimlərinə yazdıqları məktublar əsasında müəyyən edilir;

– Mövcud problemlərin aradan qaldırılması üçün valideynlərin müəyyən psixoloji bilikləri əldə edib digər valideynlər ilə paylaşması təmin edilir;

– Psixoloq məktubların analizi nəticəsində müəllimlər ilə uyğun mövzularda görüşlər keçirdir;

– Görüşlər qrup terapiyaları formatında təşkil edilir;

– Emosional tükənmə yaşayan valideyn və müəllimlər nəticə etibarı ilə yanlış dəyərlərin təbliğinə, düzgün olmayan ünsiyyət, münasibət, şagird maraqlarının qarşılanmadığı tədris prosesinə yol açırlar.

Layihələrdə tətbiq edilən metodikaların uğurlu nəticələri layihə öncəsi və sonrası aparılan sorğu və müşahidələr sayəsində tərəfimizdən tədqiq edilmişdir. Nəticədə məktəb psixoloqu nəinki psixoloji aspektdən töhfələr verir eyni zamanda məktəbin təlim nəticələrinə də müsbət təsir göstərir.

**5.** Bakı İstanbul liseyinin psixoloqu Sevda Zehra Güvendik liseydə həftədə bir saat olan "Dəyərlər" saatında tətbiq etdiyi metodikaları diqqətinizə çatdırırıq:

"Hər həftə uşaqlar ilə sinif - sinif debatlar keçirərək uşaqları sinif auditoriyasından kənarda (yaxşı havada məktəbin həyətində, soyuq havada məktəbin akt zalında) uşaqları toplayaraq, hər həftə üçün yeni mövzu və yeni ssenari tərtib etmək. Məısələn, hər həftə yeni bir mövzu seçirik, mövzu haqqında öncə "paslaşma" metoduyla uşaqlar ilə sorğu cavab halında uşaqların

fikrini öyrənirdik. Bunu edərkən uşaqların fikrini səhnələşdirməsini, öz aralarında kiçik bir səhnə hazırlayaraq bu səhnəni canlandırmalarını istəyirdik. Səhnələri canlandırarkən seçilən mövzuları ilə bağlı öncdən mənəvi dəyərlərin önəmini vurğulayan, şagirdlərin öz dəyərlərinin fərqində olmaqları üçün filmlər izlədərək uşaqlara fikir vermək mümkündür”

Türkiyədəki məktəblərdə hər il “yerli malı” həftəsi elan olunur. O həftənin bir günü hər sinif özünə bir bölgəni seçir. O bölgəyə aid geyimlər geyinir. O bölgəyə aid yeməklər bişirir, öz guşəsini qurur və öz seçdiyi bölgəni numayiş etdirir, ənənələrindən danışır, milli geyimlərini geyinir və yeməklərdən gələn qonaqlara (məktəb şagirdlərinə) təqdim edir.

6-11-ci siniflər ilə daha çox xəyal qurmaq mümkün olur. Məsələn, gözəl yerli musiqilər dinləyərək özümüzü 19-cu əsrdə hiss etmək, o dövrdə yaşasaydıq kim olardıq sualına cavablar axtarmaq, o dövrü tarix müəllimləri ilə canlandırmaq və 19-cu əsrə dair Azərbaycandan şəkilləri araşdırmaq.

Ən azı ayda bir dəfə ailə dəyərləri, hörmət və sevgi haqqında debatlar təşkil olunmalıdır. Bir gerçək vardır ki, son zamanlar gənclər sevgi və hörmətdən tamamilə uzaq bir aləmdə yaşayırlar. Empatiya duyğusundan yoxsul, sevgisini bəlli edə bilməyən və daha çox intriqalara meyilli gənclik ilə qarşı qarşıyayıq. Çox çətin görünsədə, sevgi numayişi ilə, oyunlar, gözəl və diqqətli seçilmiş filmlər, klassik musiqi, ruhlarını qidalandıraraq uşaqlarımızı milli mənəvi dəyərlərimizə bağlı, adət-ənənələrimizə hörmət edən bir gənclik yetiştirə bilərik.

Məktəb psixoloqları sadəcə şagirdlər ilə deyil ailələr ilə də çalışmalıdırlar. Ananın doyurmadığı uşağı dünya bir araya gəlsə doyura bilməz. Valideynləri mütləq şəkildə ən azı ayda bir dəfə məktəbdəki bu tədbirlərə cəlb etmək, onlar ilə söhbətlər təşkil etmək lazımdır. Məktəb psixoloqu valideyn və uşaq bir bütövün ayrılmaz hissəsidir. Ailə ilə birgə fəaliyyətin digər metodu isə, keçirilən debatlardan sonra uşaqlara ev tapşırığı kimi mövzuları ailələri ilə etmələrini xahiş edirik. Beləliklə gələn həftəyə uşaqlar ailələrindən aldıqları enerji ilə, ailələri ilə etdikləri söhbətləri məktəbə gətirib analarının və atalarının düşüncələrini də paylaşırlar. Adətən məktəbdə danışılan mövzuları, izlənilən filmləri, qulaq asılan musiqiləri evdə müzakirə edən şagirdlər gələcək həftə çox böyük həyəcanla gəlib bunu məktəbdə bölüşürlər. Böyük siniflərdə

isə valideynləri mütləq şəkildə söhbətlərə cəlb etmək lazımdır. Ailələri də bu cür söhbətlərə cəlb etmək şagirdlərlə aparılan işin səmərəsinə çox böyük təsir göstərir.

Kiçik məktəblilərin yaş psixologiyası və maraqlarını nəzərə alaraq nağıllardan istifadə etmək məqsədəuyğundur. Art terapiyanın bir növü olan nağıl terapiyası zamanı öncə nağılı səhnələşdirmək daha sonra şagirdləri dairəvi şəkildə oturdaraq onların nə anladıqlarını müəyyən etmək üçün nağıldakı obrazların təhlilini aparmaq məqsədəuyğundur. Rolların seçilməsini də şagirdlərin ixtiyarına buraxaraq hansı şagirdin nağıl haqqında necə münasibətdə olduğunu müşahidə edə bilərik.

Müəllimlər sinifdə dəyərin hərtərəfli tədrisini həyata keçirmək üçün aşağıdakı prinsipləri tətbiq edə bilərlər:

1. Müəllim "nümunə" və "öyrədən" olmaq vəzifəsini daşımalıdır.
2. Sinifdə nümunəvi cəmiyyət modeli yaratmalıdır.
3. Məsuliyyətli tapşırıqlar verməklə nizam-intizama nəzarət etməlidir.
4. Demokratik sinif atmosferi yaratmalıdır.
5. Dərs proqramlarının tədrisi vasitəsilə dəyərlərin tədrisi həyata keçirilməlidir.
6. Əməkdaşlıq metodu ilə öyrənməyə üstünlük verməlidir.
7. Şagirdləri əxlaqi dəyərlərini əks etdirmələri üçün dəstəkləməlidirlər.
8. Münaqişələrin necə həll ediləcəyini öyrətməlidir.
9. Sinifdənxaric tədbirlərdə də sürətli inkişaf üçün müsbət modellərdən istifadə edilməlidir.
10. Məktəbdə müsbət əxlaq mədəniyyəti qorunmalıdır.
11. Valideynlər ilə yaxşı münasibət qurulmalıdır.

Həmçinin bir sıra məqamlar daim diqqət mərkəzində olmalıdır. Şagirdlərimizi düzgün istiqamətlərə yönəltmək, mənəvi tərbiyə aşılamaq, ailələrin, təhsil müəssisələrinin qarşısında duran əsas vəzifələrdəndir. Kütləvi informasiya vasitələrinin, televiziya-radionun təsir dairəsi, tərbiyəvi rolu böyükdür və dəstəkləyici mövqe daşımalıdır (ailələrdə və təhsil müəssisələrində verilən dəyər tərbiyəsinin əksini nümayiş etdirməməlidir). Milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik, tə-

şəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlanmalıdır.

Məktəb psixoloqu məktəblərdə yaradılan yüksək mənəvi-psixoloji mühit və kommunikasiya sisteminin sağlam olmasını təmin edilməsində rol oynayır. Təhsil həyatında məktəb rəhbərliyi, müəllim, şagird, eləcə də digər işçilər arasında qarşılıqlı hörmət və etibar əsasında formalaşan münasibət kommunikasiya prosesləri şagirdlərin inkişafı və akademik nailiyyətlərinin qorunmasında məktəb psixoloqlarının rolu böyükdür. “Öyrənmə mühitində şagirdlərdə maraq və milli-mənəvi dəyərlərin qorunması” aspektində tərtib edilmiş proqram məktəblərə təqdim edilməli və məktəblərin nailiyyət nəticələri tək akademik göstəriciyə görə deyil, bu aspektə görə də dəyərləndirilməlidir.

Təşkil edilən ezamiyyələr nəticəsində mədəniyyətlərin “Öyrənmə mühitində şagirdlərdə maraq və milli-mənəvi dəyərlərin qorunması” istiqaməti tədqiq edilməli, Azərbaycan dəyərlərinə uyğunlaşdırmalar, əlavələr, uyğun sintezlər edilərək cəmiyyətin formalaşmasında rol oynayan müəssisələrə təqdim edilməlidir. Müəllimlər şagirdlərin öyrənmə metodları barəsində məktəb psixoloqu tərəfindən maarifləndirilməlidir. Valideynlər məktəb psixoloqu tərəfindən övladlarının yaş xüsusiyyətlərinin psixoloji aspektləri barədə öncədən maarifləndirilməlidirlər. Məktəb kollektivinin milli-mənəvi dəyərlər sistemi, emosional sferası, peşə sevgisi zaman-zaman tədqiqatlara cəlb edilməli, nəticələr əsasında korreksiya işləri aparılmalıdır.

## Ədəbiyyat

1. ARTN, ARTİ - Milli əxlaq və ailə etikası (orta ixtisas məktəbləri üçün proqram) Bakı – 2008.

2. Bəylərova-Ələkbərova B.E. Musiqi – öyrənmə prosesini səmərəli edən psixoloji təsir vasitəsi kimi. Psixologiya jurnalı 2018 №3.

3. Əliyev B.H. “İdrak fəaliyyətinə və təlim motivlərinin təşəkkülünə emosiyaların təsirinin bəzi cəhətləri”. Psixologiya jurnalı 2018 №3.

4. Əfəndiyev T. Valideyn uşaq haqqında nələri bilməlidir. Azərtədrisnəşr 1961.

5. Ken Robinson və Lu Aronika. Yaradıcı məktəblər. Penguin Books – 2016

6. Dr. Alfred Adler Eğitimi zor çocukların psikolojisi. Kariyer developer 2000.

7. Zeynaloğlu Camal “Təlim fəaliyyətinin psixoloji prosesi” (Metodik tövsiyələr). “Print-S” nəşriyyatı, Bakı – 2017.

8. E. Назайкинский “О психологии музыкального восприятия”. М.: Изд.-во "МУЗЫКА", 1972.

9.https://aztehsil.com/news/8415-muellim-nifret-edilen-bir-sexs-deyil-sevilen-sinifde-daim-axtarilan-ve-gozlenilen-bir-sima-olmalidir.html

10. http://anl.az /el/Kitab/2017/10/cd/2017-1000.pdf.

11. Vüqar Orxan 525-ci qəzet.-2010.-24 fevral.-S.5.

12. http://www.anl.az/down/meqale/525/2010/fevral/108484.htm

13. http://www.kaspi.az/az/milli-menevi-deyerlerimiz-servetimizdir

14.http://egtkonus.com/deger-egitiminde-deger-boyutlandirma-yakla simi/.

15. http://www.respublica-news.az /index.php/dig-r-x-b-rl-r/m-d-niyy-t/item/1109-milli-maenaevi-daeyaerlaerimiz-hagg-nda-dushundzaelaer.

*Kitab "CN POLİGRAFİYA" Məhdud Məsuliyyətli Cəmiyyətində səhifələnmiş və çap olunmuşdur.*

Çapaimzalanıb: 01.12.2022
Format: 70x100 1/16. Həcmi: 6,75 ç.v. Tiraj: 965.
Sifariş *№ 39*.

AZ 1006, BAKI, Nərimanov rayonu, K. Rəhimov küçəsi 865,
bina 22c, mənzil 3
Tel./faks: (012)4652471
*e-mail: cn_poliqraf@mail.ru*